Xalqın qəzeti!

# Xalq qəzeti

№ 101 (30795) 17 may 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Avropa təhlükəsizlik, sabitlik və rifah axtarışında

## Azərbaycan Prezidentinin Aİ rəhbərləri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 16-da Tiranada Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü olub. Antonio Koşta və Ursula Fon der Lyayen Azərbaycanın Avropa İttifaqının vacib və etibarlı tərəfdaşı olduğunu bildirərək, ölkəmizin xüsusilə Avropanın enerjiyə ehtiyacı olan zaman göstərdiyi dəstəyi yüksək qiymətləndirdiklərini dedilər.**

Azərbaycanın Mərkəzi Asiya regionu ilə əlaqələri və Orta Dəhlizdə aparıcı rolu vurğulandı. Bununla yanaşı, ölkəmizin regionda və onun hüdudlarından kənarda sülhün və sabitliyin təmin olunmasında müxtəlif tərəflər arasında dialoqun aparılması üçün platforma rolu oynadığı da məmnunluqla qeyd edildi.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrə mühüm əhəmiyyət verdiyini deyərək, ölkəmizin Avropanın enerji təhlükəsizliyində roluna toxundu. Dövlətimizin başçısı ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu dedi, bu gün Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 ölkəsinin enerji təminatında Azərbaycanın rolunu vurğuladı.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycanın artan nüfuzu – ASB müstəvisindəki 6 məqam



Səhifə ⇨ 5

# Lələtəpəni geri almaq ohanyanların "yem"i deyildi...

**Ermənistan ordusunun darmadağın olması ilə başa çatmış İkinci Qarabağ müharibəsi ilə bağlı İrəvanda daha bir məhkəmə prosesi başlayıb. Bu dəfə müttəhimlər kürsüsündə 1988-ci ildən Qarabağda başlamış qanlı separatizm hərəkatının, o cümlədən Xocalı soyqırımının fəal iştirakçısı, ölkənin sabiq (2008–2016-cı illərdə) müdafiə naziri, hazırda parlamentdəki əsas müxalifət fraksiyası olan "Hayastan"ın rəhbəri Seyran Ohanyanın oğlu Artur Ohanyan əyləşib.**

Ölkə prokurorluğu A.Ohanyanı 44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrinin Lələtəpə strateji yüksəkliyi istiqamətində irəliləməsinin qarşısını ala bilməməkdə ittiham edir. İstintaq bu qənaətə gəlib ki, hərbi hissə komandiri, polkovnik rütbəli A.Ohanyan 2020-ci il oktyabrın 6–7-də səhlənkarlıq göstərib. Onun xidməti vəzifələrini lazımınca yerinə yetirməməsi ağır nəticələrə gətirib çıxarıb. Prokurorluğun məlumatına görə, Ohanyan oktyabrın 6-da keçmiş qondarma separatçı rejimin "müdafiə ordusu"nun komandanından Horadiz–Lələtəpə istiqamətində hücuma keçmək və yarılmış müdafiə xəttini bərpa etmək barədə tapşırıq alıb.

Lakin bir sıra sistemli uğursuzluqlar, o cümlədən tapşırığın lazımınca yerinə yetirilməməsi, bölmələr arasında qarşılıqlı əlaqənin olmaması, irəliləmə ardıcıllığının pozulması, qüvvələrin qeyri-adekvat bölüşdürülməsi, gələcək fəaliyyətlərin planlaşdırılmaması kimi səbəblərdən dislokasiya yerinə gec, xeyli az sayda canlı qüvvə və texnika gəlib ki, bu da döyüş tapşırığının uğursuzluğuna səbəb olub.

*(ardı 6-cı səhifədə)*



# "Odlar yurdu" "qoca qitə"nin gündəmindədir

### *Dövlət başçımızın Tirana səfəri bu durumu əks etdirir*



**Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyaya işgüzar səfəri və Avropa Siyasi Birliyinin (ASB) Tiranada keçirilən VI Zirvə görüşündə iştirakı beynəlxalq münasibətlər və regional siyasət müstəvisində mühüm hadisə kimi qiymətləndirilməlidir. Səfərin həm diplomatik, həm də geosiyasi nəticələri Avropa ilə Azərbaycan arasında strateji əlaqələrin yeni mərhələyə keçidini nümayiş etdirir. Azərbaycanın artan diplomatik fəallığı və prinsipial mövqeyi onu Avropa siyasi arxitekturasının periferiyasından mərkəzinə doğru hərəkət etdirir – bu isə qlobal siyasətdə balanslı güc olmaq istəyən bir dövlət üçün mühüm strateji nailiyyətdir.**

Avropa Siyasi Birliyi – 2022-ci ilin oktyabr ayında Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə yaranan bu yeni siyasi platforma Avropanın geosiyasi xəritəsində əhəmiyyətli dəyişikliklərə zəmin yaradan bir hadisə kimi qiymətləndirilməlidir. Birlik Avropa İttifaqı (Aİ) çərçivəsindəki dar institusional formatın hüdudlarından kənara çıxaraq, daha geniş, inklüziv və çevik siyasi dialoq müstəvisi yaratmaq iddiasındadır.

*(ardı 4-cü səhifədə)*

# Albaniya ölkəmizin strateji enerji tərəfdaşıdır



**Son illər Azərbaycan ilə Albaniya arasında iqtisadi-ticarət, investisiyaların təşviqi, enerji, kənd təsərrüfatı, humanitar və digər istiqamətlərdə əlaqələr yüksələn xətlə inkişaf edir. İki ölkə arasında diplomatik əlaqələrin qurulduğu 1993-cü il sentyabrın 23-dən ötən müddətdə dövlət başçıları, eləcə də nümayəndə heyətlərinin qarşılıqlı səfərləri siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün əlverişli imkanlar yaradıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan və Albaniya arasında 10-a yaxın mühüm sənəd, o cümlədən 2013-cü il aprelin 8-də Bakıda "Azərbaycan Respublikası Hökuməti və Albaniya Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq haqqında Saziş" imzalanıb.**

*(ardı 8-ci səhifədə)*

## Rusiya–Ukrayna: İstanbul görüşü atəşi kəsə bilmədi



**Rusiya və Ukrayna nümayəndə heyətləri artıq 2 gündür ki, aralarındakı ağır müharibəyə son qoymaq üçün İstanbula gəliblər. Ayın 15-də nəzərdə tutulan görüş bir çox səbəbdən baş tutmayıb. Dünən keçirilən danışıqlarda isə atəşkəs barədə razılığa gəlmək mümkün olmayıb.**

Hələlik diplomatik səylər real nəticələr vermir. Bu məqamda istər-istəməz sual yaranır: müharibəni niyə dayandırmaq mümkün olmur? Axı 3 ildən çoxdur ki, iki ölkə arasında ağır zorakılıqlarla müşahidə olunan gərgin döyüşlər gedir. Bu silahlı qarşıdurmada hər iki tərəfdən artıq yüz minlərlə insan həlak olub. Ukraynanın azı 7 milyondan çox sakini qaçqın düşüb.

*(ardı 15-ci səhifədə)*

# Azərbaycan Prezidentinin Aİ rəhbərləri ilə görüşü



(əvvəli 1-ci səhifədə)

Ölkəmizin Orta Dəhlizdə oynadığı vacib rola toxunan Prezident İlham Əliyev bu dəhlizin inkişafı məqsədilə Azərbaycanda yaradılmış nəqliyyat infrastrukturuna qoyulmuş investisiyaları və bu istiqamətdə aparılan işləri qeyd etdi. Dövlətimizin başçısı Orta Dəhlizlə yüklərin daşınma həcminin artdığını da dedi.

Söhbət zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri səviyyəsində Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyanın bərpaolunan enerji resurslarının ötürülməsi sahəsində imzalanmış strateji tərəfdaşlıq haqqında Sazişə, həmçinin Qara dənizin dibi ilə bərpaolunan enerji resurslarının ixracı üçün elektrik kabel xətti layihələrinə toxunuldu.

Avropa İttifaqı ilə əməkdaşlıq üçün bu istiqamətlərdə geniş imkanların olduğu qeyd edildi.

Görüşdə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində aparılan müzakirələrə toxunuldu, bu sahədə də Avropa İttifaqı ilə əməkdaşlıq üçün böyük perspektivlərin mövcud olduğu vurğulandı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# İlham Əliyev “Avropa Siyasi Birliyi”nin Zirvə toplantısında



**Mayın 16-da Tiranada “Avropa Siyasi Birliyi” 6-cı Zirvə toplantısının açılış plenar sessiyası keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

# “Avropa Siyasi Birliyi” 6-cı Zirvə toplantısı

## *Prezident İlham Əliyev mərasimdə iştirak edib*



**Albaniya Respublikasının Baş naziri Edi Rama Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşıladı.**

Toplantı iştirakçıları birgə foto çəkdirdilər.

Builki Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

Mərasimdə innovasiya, enerji və sənaye davamlılığına keçid yolu ilə rəqabətqabiliyyətli və iqtisadi təhlükəsizlik, miqrasiya, Avropanın yeni dünya kontekstində lider mövqe tutması kimi mövzular müzakirə olunur.

Qeyd edək ki, “Avropa Siyasi Birliyi” təhlükəsizlik, iqtisadi sabitlik və demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi və iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.







# Liderlərin işçi nahar görüşü



**Mayın 16-da Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Albaniya Respublikasının Baş naziri Edi Rama arasında işçi nahar əsnasında görüş olub. Dövlətimizin başçısı "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısının uğurla təşkil edilməsi münasibətilə Baş nazirə təbriklərini çatdırıb.**

Söhbət zamanı Azərbaycan ilə Albaniya arasında ikitərəfli münasibətlərin xüsusilə enerji sahəsində inkişafından, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıqdan məmnunluq ifadə edilib. Albaniyanın Korça şəhərinin Azərbaycan qazı ilə təchiz edilməsi layihəsinin önəmi vurğulanıb.

Azərbaycan Prezidenti və Albaniyanın Baş naziri ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

# Prezident İlham Əliyevin Albaniyaya səfəri başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasına işgüzar səfəri mayın 16-da başa çatıb.**

*AZƏRTAC*

# Ermənistan dayanıqlı sülhdə maraqlı deyil

**Mayın 15-də Ermənistanın baş naziri Nikol Paşinyan Albaniyada Azərbaycan İctimai Televiziyasına verdiyi müsahibədə Ermənistan konstitusiyasında mövcud ərazi iddiaları, habelə Minsk qrupunun ləğvi məsələsində növbəti dəfə beynəlxalq ictimaiyyəti çaşdırmağa cəhd edib.**

Ermənistan tərəfi üçün beynəlxalq müqavilələrdə ərazi bütövlüyünə dəstək ifadə edilməsinin heç bir əhəmiyyətə malik olmadığı danılmaz bir faktdır. Bunu sübut etmək üçün, Ermənistanın Almatı bəyannaməsinə qoşulması prosesini və bu razılaşmanı necə kobud şəkildə pozduğunu xatırlatmaq yerinə düşər. Ermənistan tərəfinin daim istinad etdiyi Almatı Bəyannaməsinə qoşulan zaman verdikləri qeyd-şərtləri, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa qarşı çıxan qüvvədə olan qanunvericilik aktlarının mövcudluğu hər kəsə məlumdur.

Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistanın baş nazirinin İctimai Televiziyaya müsahibəsi zamanı irəli sürdüyü iddialarla bağlı şərhində yer alıb.

Onun sözlərinə görə, baş nazir Ermənistanın tərəf çıxdığı və ratifikasiya edilmiş beynəlxalq müqavilələrin yerli qanunlar üzərində üstünlüyə malik olduğu barədə konstitusiya müddəasına istinad etməklə öz iddialarını arqumentlərlə sübut etməyə çalışması da tamamilə əsassızdır. O bildirib ki, 2022-ci ilin oktyabr ayından etibarən müzakirə olunan sülh sazişi layihəsində ərazi bütövlüyünə dəstək barədə müvafiq müddəaya razılıq verilməsi ilə yanaşı, paralel olaraq Ermənistan rəhbərliyinin 2023-cü ilin sentyabrında antiterror tədbirlərinə qədər qondarma rejimə necə dəstək verdiyini, onu legitimləşdirməkdə davam etdiyini heç kim unutmayıb. Həmçinin 1991-ci ilin sərhədləri və Almatı Bəyannaməsi əsasında ərazi bütövlüyünə istinad edən Ermənistan tərəfinin son 35 ilə yaxın müddətdə nəyə görə bu xəritələrə və razılıqlara əməl etmədiyinə, sovet xəritələrində əksini tapmış sərhədləri qəbul etməkdən imtinaya görə izahat verməsi daha yaxşı olardı.

"Qeyd edilənlərlə yanaşı, Ermənistan Konstitusiya Məhkəməsinin qərarlarına mütəmadi olaraq istinad edən baş nazirə Ermənistan tərəfinin hələ 2010-cu ilin yanvarında Türkiyə ilə münasibətlərin normallaşdırılmasına dair protokolların onun konstitusiyasına uyğunluğu ilə bağlı Konstitusiya Məhkəməsinin qərarının təfərrüatlı şəkildə əsaslandırıldığı zaman qondarma "Qərbi Ermənistan" iddialarından əl çəkmədiyini, eyni məntiq və yanaşmanın məhkəmənin Azərbaycanla Ermənistan arasında sərhəd komissiyalarının reqlamentinin Ermənistan konstitusiyasına uyğunluğu ilə bağlı 2024-cü il 26 sentyabr tarixli qərarının qəbulu zamanı tətbiq etdiyini xatırlamaq kifayətdir. Xüsusən də, məhkəmə qərarında preambula və dolayısı ilə Müstəqillik Bəyannaməsinin "erməni dövlətçiliyinin əsas prinsipləri" kimi səciyyələndirilməsi və onların dəyişilməz müddəalar olduğunun qeyd edilməsi, Ermənistanın Azərbaycan ərazilərinə qarşı iddialarından irəli gələn təhdidin miqyasını nümayiş etdirir", - deyə XİN sözçüsü vurğulayıb.

*XQ*

# MDB dövlətlərinin təhlükəsizlik müzakirəsi



**Mayın 16-da Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində təşkil olunmuş MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 56-cı iclasında iştirak etmişdir.**

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən verilən məlumata görə, tədbirdən əvvəl Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon MDB ölkələrinin nümayəndə heyətlərinin rəhbərlərini qəbul etmiş, sonra iclas öz işinə başlamışdır.



MDB məkanında beynəlxalq terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlıq və kibercinayətkarlığa, dini ekstremizm və radikalizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə mübarizənin aparılmasının, habelə region ölkələrinin üzləşdiyi xarici təhdidlərin vaxtında zərərsizləşdirilməsi məqsədilə xüsusi xidmət orqanları arasında məlumat mübadiləsinin aparılmasının vacibliyi iclasın əsas müzakirə mövzusu olmuşdur. Qeyd olunmuşdur ki, göstərilən istiqamətlərdə MDB ölkələrinin təhlükəsizlik orqanlarının fəaliyyətinin müasir dövrün çağırışlarına uyğun qurulması üçün bundan sonra da bütün imkanlar səfərbər edilməli, qurumların qüvvə və vasitələrindən təhlükəsizliyə mənfi təsir göstərən halların aradan qadırılması yönündə daima səmərəli istifadə olunmalıdır.

Tədbir ərzində MDB dövlətlərinin xüsusi xidmət orqanlarının qarşılıqlı əlaqələrinin gələcək perspektivləri və strategiyası, həmçinin qarşıda duran vəzifələr barəsində geniş fikir mübadiləsi aparılmışdır.

*XQ*

# Baş prokuror qəbul keçirib

**Mayın 16-da Baş prokuror Kamran Əliyev Bakı şəhəri Nizami rayon prokurorluğunun inzibati binasında Nizami rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 29 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

*XQ*



# Qərbi Azərbaycan mədəni irsi İordaniyada



**Azərbaycanın İordaniya Haşimilər Krallığındakı səfirliyinin təşkilatçılığı və Qərbi Azərbaycan İcmasının dəstəyi ilə Əmman şəhərində "Qərbi Azərbaycan mədəni irsinin izi ilə" mövzusunda elmi-praktiki konfrans və Qərbi Azərbaycana aid maddi mədəniyyət nümunələrindən ibarət "Qərbi Azərbaycan mədəniyyəti" adlı sərgi təşkil olunub.**

Sərgidə nümayiş olunan eksponatların kataloqu və Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyası tədbir iştirakçılarına təqdim edilib, həmçinin "Qərbi Azərbaycanın zəngin mədəni irsi" adlı videoçarx nümayiş olunub.

Konfrans Qərbi Azərbaycandan deportasiya olunmuş azərbaycanlıların mədəni irsi, mülkiyyət hüquqları və indiki Ermənistan ərazisində onlara aid abidələrin vəziyyəti barədə məlumatların İordaniya ictimaiyyətinə çatdırılması məqsədilə keçirilib.

Azərbaycanın İordaniya Haşimilər Krallığındakı səfiri Eldar Səlimov çıxış edərək, bu tədbirin bütöv bir xalqın hüquqlarının, mədəniyyətinin və mənəvi irsinin bərpasına yönəldiyini bildirib. İordaniyanın Baş nazirinin müavini, Yerli idarəetmə nazirinin müşaviri və "Yaxın Şərqdə Sülh Mədəniyyəti Birliyi"nin rəhbəri Məhəmməd Əl-Malkavi iki qardaş xalq arasında mədəni bağlılığı yüksək qiymətləndirib. O, Ermənistan ərazisindən didərgin düşmüş azərbaycanlıların doğma yurdlarına ləyaqətlə və təhlükəsiz qayıdışının təbii hüquqları olduğunu qeyd edib.

Daha sonra səfirlikdə təşkil edilmiş "Qərbi Azərbaycan mədəniyyəti" adlı sərginin açılış mərasimi keçirilib. Yaxın və Orta Şərqin tanınmış kolleksionerlərindən biri, tədqiqatçı, əntiq əşyalar və şərq xalçaları üzrə mütəxəssis Məhəmməd Əl-Bağdadinin kolleksiyasından seçilmiş, Qərbi Azərbaycan mədəni irsinin zənginliyini, orijinallığını və tarixi dərinliyini əyani şəkildə nümayiş etdirən tekstil, zərgərlik, metal məmulatları, tarixi sikkələr və digər əşyalar sözügedən sərgidə nümayiş olunub.

*XQ*

# Energetika naziri vətəndaşlarla görüşüb



**Energetika naziri Pərviz Şahbazov Ağstafada vətəndaşlarla görüşüb.**

Ağstafa rayon Heydər Əliyev Mərkəzində təşkil edilmiş görüşdə vətəndaşların elektrik və qazpaylayıcı şəbəkəyə qoşulma, qaz təchizatı, elektrik və qaz xətlərinin çəkilişi, elektrik xətlərinin istismar vəziyyəti, keyfiyyət göstəriciləri, qaz sayğaclarının dəyişdirilməsi, işlə təminat, təşəkkür və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

Nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş görüş zamanı Ağstafa rayonu ilə yanaşı, Gəncə, Mingəçevir şəhərləri, Goranboy və Tovuz rayonlarından olan 30-dan çox vətəndaş iştirak edib.

*XQ*

# “Odlar yurdu” “qoca qitə”nin gündəmindədir

(əvvəli 1-ci səhifədə)

Təsadüfi deyil ki, ASB məhz qlobal miqyasda sabitliyin ciddi şəkildə sarsıldığı, geosiyasi ziddiyyətlərin kəskinləşdiyi bir dövrdə formalaşdırılmışdır. Ukraynada baş verən müharibə, enerji bazarlarında yaranan qeyri-müəyyənlik, transmilli təhlükələr və qlobal güclər arasında artan rəqabət Avropanı siyasi birlik modelini yenidən nəzərdən keçirməyə vadar etdi. ASB konsepsiyası da məhz bu kontekstdə ortaya çıxdı: Avropanı “çevik koalisiya” modelinə keçirməklə həm qitə daxilində həmrəyliyi gücləndirmək, həm də qitədən kənarda olan, lakin Avropa ilə ortaq dəyərləri və maraqları paylaşan tərəfdaşlarla daha dərindən işləmək niyyəti.

Platformanın əsas ideyası Avropa İttifaqına üzv olmayan ölkələrlə – o cümlədən, Qərbi Balkanlar, Şərqi Avropa, Cənubi Qafqaz və hətta Mərkəzi Asiyadan olan dövlətlərlə – siyasi koordinasiyanı artırmaqdır. ASB üzvlüyü hüquqi baxımdan Aİ-yə daxil olmaq anlamına gəlməsə də, onun iştirakçısı olmaq bir dövlət üçün



həm simvolik, həm də strateji baxımdan mühüm status deməkdir və platforma dövlətlərə danışan tərəf olmaq imkanı verir; gələcək Avropa düzənində söz sahibi olma şansı yaradır.

ASB-nin struktur fəlsəfəsi “kooperativ suverenlik” anlayışına əsaslanır. Yəni, dövlətlər öz milli suverenliklərini qoruyaraq, eyni zamanda, qitənin ümumi təhlükəsizlik və rifahı üçün birgə qərarlar verməyi öhdələrinə götürürlər. Xüsusilə, Rusiya–Ukrayna müharibəsindən sonra aktuallaşan təhlükəsizlik gündəliyində bu amil özünü daha qabarıq göstərir. Qitənin yeni təhlükəsizlik arxitekturası, artıq təkcə NATO və ya Aİ-nin vasitəsilə deyil, daha geniş formatlarda, siyasi həmrəyliyə əsaslanan platformalarda qurulmalıdır.

Platformanın digər mühüm və hədəflənmiş funksiyası enerji təhlükəsizliyidir. Rusiya qazından asılılığı azaltmaq istəyən Avropa enerji mənbələrini şaxələndirmək üçün Cənubi Qafqaz və Xəzər hövzəsi ölkələrinə, xüsusilə, Azərbaycana yönəlməkdədir.

Burada diqqət çəkən bir məqam da var: ASB Avropa İttifaqının mərkəzində formalaşan “təkqütblü” siyasi hegemoniyanın qarşısında yeni bir çoxsəslilik imkanını da təklif edir. Platformada Fransa, Almaniya kimi böyük güclərlə yanaşı, Albaniya, Azərbaycan, Gürcüstan kimi nisbətən




kiçik, lakin strateji baxımdan əhəmiyyətli ölkələr də bərabər şəkildə söz hüququ əldə edirlər. Qeyd edə bilərik ki, bu amil yeni Avropa diplomatiyasının əsas fəlsəfəsinə – “inklüziv geosiyasət” modelinə uyğun gəlir.

Azərbaycan üçün isə ASB geosiyasi balansı qorumaq və Avropanın gələcək dizaynında fəal iştirak etmək baxımından mühüm fürsətdir. Platforma vasitəsilə Azərbaycan enerji təchizatçısı, nəqliyyat körpüsü və Cənubi Qafqazda sülh və sabitlik təşəbbüslərinin daşıyıcısı kimi Avropa siyasi gündəminə daxil olur.

Azərbaycanın Avropa Siyasi Birliyi platformasında fəal iştirakı təsadüfi və ya formal xarakter daşımır. Münasibətlər Prezident İlham Əliyevin düşünülmüş və strateji istiqamət daşıyan xarici siyasət kursunun məntiqi tərkib hissəsidir. Cənubi Qafqazın lider dövləti Azərbaycan bu platformaya aktiv dialoq tərəfdaşı kimi daxil olur və burada həm regional məsələləri gündəmə gətirir, həm də Avropa ilə siyasi, enerji və təhlükəsizlik müstəvisində yeni inteqrasiyalar üçün zəmin yaradır.

Prezident İlham Əliyevin 2022-ci ildə Praqada keçirilən ilk ASB sammitində və bu il Tiranada keçirilən VI Zirvə görüşündə göstərdiyi fəallıq Azərbaycanın ASB daxilində təkcə mövcud formatlara uyğunlaşmaq deyil, eyni zamanda, platformanın gündəliyini formalaşdırmaq əzmini nümayiş etdirir. Prezidentin çıxışlarında Azərbaycan diplomatiyasının mühüm prioritetləri – sülh təşəbbüsləri, enerji əməkdaşlığı və regional təhlükəsizlik siyasəti qlobal kontekstdə səsləndirilir və bu, ölkənin geosiyasi çəkisinin artmasında mühüm rol oynayır.

Azərbaycanın Avropadakı əhəmiyyətini anlamaq üçün onu yalnız Cənubi Qafqaz kontekstində deyil, daha geniş Avrasiya geosiyasi məkanı çərçivəsində qiymətləndirmək lazımdır. Azərbaycan bu gün, sadəcə olaraq, regional güc deyil, Avropa ilə Asiya arasında körpü rolunu oynayan, enerji və nəqliyyat təhlükəsizliyinin təminatçısı kimi çıxış edən strateji tərəfdaşdır.

Xüsusilə, Rusiya–Ukrayna müharibəsindən sonra Avropa İttifaqı ölkələrinin enerji asılılığından xilas olmaq üçün alternativ mənbələrə üz tutması Azərbaycanın rolunu ikiqat artırıb. TANAP (Trans-Anadolu Boru Kəməri) və TAP (Trans-Adriatik Boru Kəməri) kimi layihələr geosiyasi güc alətidir və bu kəmərlər vasitəsilə Azərbaycan qazı Balkanlardan İtaliyaya, oradan isə daha dərin Avropa bazarlarına çatdırılır.

Enerji marşrutu Avropa üçün təhlükəsiz, sabit və siyasi baxımdan riskli olmayan bir alternativ təklif edir. Azərbaycan isə öz növbəsində etibarlı strateji tərəfdaş kimi çıxış edir. Prezident İlham Əliyevin bu sammitlərdə enerji məsələlərini xüsusi vurğulaması təsadüfi deyil. Bu, Azərbaycanın “enerji diplomatiyası”nın mərkəzi sütunlarından biridir.

Azərbaycanın geosiyasi və geoiqtisadi əhəmiyyətini artıran ikinci əsas faktor Orta Dəhliz –təşəbbüsüdür ki, bu nəqliyyat xətti Çini Avropa ilə birləşdirən alternativ İpək Yolu rolunu oynayır. Azərbaycan bu dəhlizin əsas üzvlərindən biri kimi təkcə regional yox, beynəlxalq tranzit şəbəkələrinin mərkəzinə çevrilir.

Bakının təşəbbüsü ilə inkişaf etdirilən Bakı–Tbilisi–Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Limanı, eləcə də Zəngəzur dəhlizinin gələcək perspektivləri Azərbaycanın Avropa üçün strateji logistik qovşağa çevrildiyini göstərir.

Azərbaycanın Avropa ilə münasibətlərində üçüncü və bəlkə də ən önəmli istiqamət regional sabitlik və təhlükəsizlikdir. 2020-ci ildə Vətən müharibəsində əldə edilən qələbədən sonra Azərbaycan regionda yeni reallıqlar formalaşdırdı. Bu reallıqların əsasında beynəlxalq hüquq, ərazi bütövlüyü və sülhə əsaslanan əməkdaşlıq dayanır.

Rəsmi Bakı Ermənistanla sülh danışıqları prosesində qətiyyətli mövqe nümayiş etdirməklə yanaşı, beynəlxalq ictimaiyyətə açıq və konstruktiv mesajlar verir: sərhədlərin delimitasiyası, nəqliyyat-kommunikasiya xətlərinin açılması, suverenliyə hörmət göstərilməsi–bunlar Azərbaycanın sülh gündəliyinin əsas sütunlarıdır.

Fransa prezidenti Emmanuel Makronun Praqa sammitində son anda danışıqlara müdaxilə etməsi Azərbaycanda geniş rezonans doğurmuş və sonrakı dövrlərdə Parislə Bakı arasında münasibətlərin kəskin soyumasına səbəb olmuşdu. Fransa tərəfindən nümayiş etdirilən birtərəfli yanaşma və ermənipərəst mövqe onu region üçün etibarlı vasitəçi statusundan uzaqlaşdırdı ki, bu da sadəcə ikitərəfli münasibətlərin deyil, ümumilikdə, Qərbin vasitəçilik institutlarının etibarlılığına kölgə salan amillərdən biri oldu.

Belə bir vəziyyətdə Prezident İlham Əliyevin Tiranada iştirakı Azərbaycanın diplomatik balansı qorumaq niyyətinin, Avropa İttifaqı Şurası prezidenti Şarl Mişel kimi etibarlı tərəfdaşlarla birbaşa dialoqu davam etdirmək strategiyasının göstəricisidir. Bakı açıq şəkildə bəyan edir ki, sülh prosesi yalnız real, obyektiv və məsuliyyətli vasitəçilərlə mümkündür. Bu, həm Azərbaycanın maraqlarının müdafiəsi, həm də qlobal vasitəçilik institutlarına mesaj kimi qiymətləndirilməlidir.

Prezident İlham Əliyevin Tiranaya işgüzar səfəri çoxvektorlu və strateji əhəmiyyət kəsb edən bir diplomatik addım idi. Bu səfər Azərbaycanla Avropa arasında siyasi dialoqun davamlılığına xidmət etməklə yanaşı, ölkənin xarici siyasətində müəyyənləşdirilmiş prioritetlərin beynəlxalq müstəvidə daha geniş rezonans doğurmasına şərait yaratdı. Tirana sammiti Azərbaycan diplomatiyasının açıq dialoqa, çoxtərəfli əməkdaşlığa və qarşılıqlı maraqlar əsasında qurulmuş münasibətlərə sadiqliyini bir daha nümayiş etdirdi. Bu, Azərbaycanın regional sülhə, qlobal enerji təhlükəsizliyinə və Avropa ilə konstruktiv dialoqa verdiyi strateji önəmin növbəti təzahürü oldu. Tirana səfəri vasitəsilə Prezident İlham Əliyev bir daha sübut etdi ki, Azərbaycan təkcə Qafqazın deyil, bütövlükdə Avropanın sabitliyində və inkişafında mühüm rola malik, ağırlığı olan siyasi aktordur.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Köhnə “notda” yeni “mahnı”

## Paşinyan beynəlxalq aləmin gözünə kül üfürür

**Ermənistan baş naziri Nikol Paşinyan Albaniyanın paytaxtı Tirana şəhərində azərbaycanlı jurnalistin Ermənistan konstitusiyasında ediləcək dəyişikliklərlə bağlı sualını cavablandırarkən yenə də əsas hədəfdən yayınıb. Azərbaycanın haqlı olaraq gözlədiyi cavabı vermək əvəzinə, növbəti uydurmanı həll variantı kimi irəli sürüb və bununla da beynəlxalq ictimaiyyəti çaşdırmağa cəhd göstərib.**

Azərbaycana qarşı ərazi iddialarının əks olunduğu Ermənistan konstitusiyasının dəyişdirilməsi regionda dayanıqlı sülhün əldə olunması üçün başlıca şərtdir. Çünki bu ölkənin konstitusiyasında və digər hüquqi sənədlərdə ölkəmizə qarşı ərazi iddiaları hələ də qüvvədə qalır. Paşinyan Azərbaycanın ərazi bütövlüyünün tanınmasına dair 1991-ci ildə imzalanmış Alma-Ata Bəyannaməsinə istinad edir. Lakin ikibaşlı oyun aparılması rəsmi İrəvanın bu gün Azərbaycanın ərazi bütövlüyünü tanıması ilə bağlı qeyri-səmimi olduğunu təsdiqləyir. Əgər Ermənistan həqiqətən səmimidirsə, o zaman konstitusiyasından və digər qanunlardakı ölkəmizə qarşı ərazi iddialarını ehtiva edən müddəaları çıxarmalıdır. Amma Paşinyan deyir ki, Ermənistanda hələlik yeni konstitusiya layihəsi yoxdur və iddia edir ki, mövcud konstitusiya sülh sazişinin imzalanmasına maneə yaratmır. Bildirir ki, Ermənistan konstitusiya məhkəməsi mövcud konstitusiyaya əsaslanaraq, ölkəmizin qonşulara qarşı ərazi iddiasının olmadığı qərarını verib. Bu, artıq hüquqi cəhətdən təsdiq edilmiş faktdır.

Baş nazirin Ermənistanın tərəf çıxdığı və ratifikasiya edilmiş beynəlxalq müqavilələrin yerli qanunlar üzərində üstünlüyə malik olduğu barədə konstitusiya müddəasına istinad etməklə öz iddialarını arqumentlərlə sübut etməyə çalışması tamamilə əsassızdır. Görünür, Paşinyan yenə köhnə oyunu davam etdirmək fikrindədir. Konstitusiya dəyişdirilmədən sülh sazişinin imzalanmasını istəyir. Halbuki, Paşinyanın verdiyi “zəmanət” kifayət qədər mübahisəlidir. Gələcəkdə hər hansı bir hakimiyyət dəyişikliyi olarsa o zaman hansı mövqe sərgiləyəcək, müəyyən deyil. Eyni zamanda, məlumdur ki, Nikol Paşinyanın dialoqa və münasibətlərin normallaşmasına hazır olması barədə fikirləri İrəvanın atdığı real addımlarla uyğun gəlmir. Bölgədə dialoq qurmaq səylərinə təkcə Ermənistanın özündə gedən daxili siyasi proseslər deyil, həm də erməni diasporunun müqaviməti, həmçinin Paşinyan administrasiyasının sülh və sabitlik məsələsində konkret addımlarının olmaması da təsir edir.

Erməni baş nazir ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı sualı da konkret cavablandırmır. Əvəzində bildirir ki, Azərbaycanın təklif elədiyi Minsk qrupunun buraxılması şərti ilə razıdır. Amma “əmin olmaq istəyirik ki, Azərbaycanın istəyi bu münaqişəni öz ərazisində bağlayıb, onu Ermənistan ərazisinə köçürmək deyil”.

Bir həll yolu da təklif edir ki, ilkin olaraq sülh sazişi imzalansın və bundan sonra hər iki ölkə ATƏT-in Minsk qrupunun buraxılması üçün əlaqədar qurumlara müraciət etsin. Yəni eyni yerdə, eyni zamanda. Əsaslandırır ki, bu, regionumuzda qarşılıqlı etimadın və sabitliyin çox mühüm jesti olacaq.

Aydın görünür ki, burada da qaranlıq məqamlar var. Yəni Ermənistanın keçmiş münaqişənin qalığı olan Minsk qrupunun rəsmi ləğvinə qarşı olan cəhdləri, prosesi sülh sazişi ilə bağlamağa çalışması, bu ölkənin Azərbaycana qarşı gizli gündəminin mövcudluğunu nümayiş etdirir.

Digər bir məqam isə Ermənistan tərəfindən Azərbaycan Konstitusiyasının gündəmə gətirilməsi məsələsidir və bu da faydasız cəhddir. Çünki Azərbaycan Konstitusiyasında Ermənistan ərazisinə heç bir iddia yoxdur.



**Mövzu ilə bağlı Naxçıvan Dövlət Universitetinin “Ümumi hüquq” kafedrasının müəllimi Yunis Xəlilov** XQ-yə bildirdi ki, suverenliyimiz, konstitusiya quruluşumuz bərpa olunduqdan sonra Azərbaycan Ermənistanla sülh müqaviləsi imzalamağa səy göstərir: “Sülh müqaviləsinin imzalanması prosesinə mane olan əsas problem isə Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının olmasıdır. Bu səbəbdən məlumdur ki, Ermənistan konstitusiyasının dəyişdirilməsi Azərbaycanın əsas tələbləri sırasındadır. Ermənistan Cənubi Qafqazda sülhün tərəfdarıdırsa, Azərbaycana qarşı ərazi iddialarına son qoymalıdır”.

Y.Xəlilov vurğuladı ki, dövlətimiz rəsmi səviyyədə bununla bağlı qarşı tərəfə dəfələrlə müraciət edib: “Nəzərə almaq lazımdır ki, Ermənistanın Müstəqillik bəyannaməsinin preambulasında “Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli “Ermənistan SSR-ə yenidən birləşmək haqqında” birgə qondarma qərar yer almaqdadır. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur. Fakt açıq-aşkar ortadadır və əlavə şərhə ehtiyac yoxdur. Lakin erməni tərəfi bu mövzuda spekulyasiyanı davam etdirməkdədir. Dəfələrlə Ermənistanın xarici işlər nazirliyi bəyanat yayaraq, guya, heç bir qonşusuna, o cümlədən Azərbaycana ərazi iddiası olmadığını açıqlamışdı. Rəsmi İrəvan iddia edib ki, Ermənistanın konstitusiyası və ona dəyişikliklər ölkənin daxili işidir.

Rəsmi İrəvan hələ də prosesi uzatmaqla məşğuldur. Amma gec-tez buna getməyə məcburdur. Paşinyanın konstitusiyaya dəyişikliklə bağlı layihənin 2026-cı ilə qədər hazırlanması barədə tapşırığı da bunun göstəricisidir”.

Ekspert Ermənistanın, guya, Azərbaycan Konstitusiyasında Ermənistana qarşı ərazi iddiasının olması ilə bağlı fikirlərinə də münasibət bildirib: “Bunu onunla əsaslandırmağa çalışırlar ki, Konstitusiyamızda Azərbaycan Respublikasının Azərbaycan Xalq Cumuriyyətinin hüquqi varisi olduğu təsbit olunub. Xüsusi olaraq bunu da vurğulayaq ki, Ermənistan tərəfinin bu iddiası hüquqi baxımdan əsassızdır və beynəlxalq hüquq normalarına uyğun deyil. Azərbaycan Konstitusiyasında AXC-nin hüquqi varisi olması yalnız tarixi və hüquqi kontinuiteti, yəni dövlətin hüquqi əsaslarla davamlılığını təsdiqləyir və heç bir halda Ermənistan ərazilərinə qarşı iddia kimi şərh edilə bilməz. Bu məsələnin hüquqi aspektlərini izah edək:

1. Hüquqi varislik nədir? Hüquqi varislik beynəlxalq hüquqda və dövlətlərin konstitusiyalarında yeni yaranan dövlətin özündən əvvəlki dövlətin hüquqi və tarixi mirasını qəbul etməsini nəzərdə tutur. Azərbaycan Respublikasının AXC-nin hüquqi varisi olduğunu bəyan etməsi yalnız bu tarixi faktı və dövlətçilik ənənəsini qorumaq məqsədi daşıyır. 2. Ərazi iddiası yoxdur. Konstitusiyamızda heç bir ifadə Ermənistan ərazisinə qarşı iddia kimi şərh edilə bilməz. 3. Ermənistan konstitusiyasındakı fərqlər. Ermənistanın konstitusiyasında “tarixi Ermənistan torpaqları” anlayışı manipulyasiya üçün geniş imkan yaradır və qonşu dövlətlərə, o cümlədən Azərbaycana qarşı ərazi iddialarına hüquqi çalar əlavə edir. Bu, Ermənistanın öz konstitusiyasını beynəlxalq hüquq normalarına uyğunlaşdırmamasının göstəricisidir”.

Sonda onu da qeyd edək ki, Ermənistan regionda sülhün tərəfdarıdırsa, Azərbaycanın haqlı şərtlərini yerinə yetirməlidir. Müxtəlif bəhanələr və yanlış yanaşmalar, beynəlxalq ictimaiyyəti aldatmaq cəhdləri İrəvana heç bir fayda verməyəcək. Azərbaycanın milli təhlükəsizliyinə birbaşa təhdid olan Ermənistanın konstitusiyasının dəyişdirilməsi sülh üçün əsas şərtdir.

*Azər MUSTAFAYEV*

# Azərbaycanın artan nüfuzu – ASB müstəvisindəki 6 məqam

## Ölkəmiz "köhnə qitə"nin yanaşmalarını dəyişdirir

**Prezident İlham Əliyevin Avropa Siyasi Birliyinin Albaniyanın paytaxtı Tiranada keçirilmiş növbəti sammitində iştirakı Azərbaycanın xarici siyasət uğurunun növbəti göstəricisidir. Bu məqamı bir neçə cəhətdən xarakterizə etmək mümkündür.**

**Birincisi,** ölkəmizin beynəlxalq nüfuzunun artması üzərində dayana bilərik. Bu, Azərbaycanın Avropa İttifaqı və ümumilikdə, Avropa ilə münasibətlərinin yeni mərhələyə keçdiyinin təsdiqi kimi qiymətləndirilə bilər.

**İkinci məqam** Azərbaycana qarşı ədalətsiz yanaşmaların dəyişməsidir. Belə nəticəyə gələ bilərik ki, Qərbdə ölkəmizə münasibətdə yumşalma var. Təbii ki, bu, dövlətimizin prinsipiallığından qaynaqlanır. Deməli, düzgün balanslaşdırma xətti bəhrəsini verir. Daha doğrusu, yeni faydalar var.

**Üçüncü məqam** Azərbaycanın strateji əhəmiyyətlilik və etibarlı tərəfdaşlıq kursu ilə bağlıdır. Bəli, ölkəmiz beynəlxalq enerji və nəqliyyat məsələlərində öz sözünü deyir. Dünya, o cümlədən "köhnə qitə" anlayır ki, Azərbaycan malik olduğu təbii-coğrafi mövqeni dividendə çevirməyi bacarır. Mövcud trayektoriyada tərəfdaşlıq dividend üçün təminatdır. Tam əminliklə deyə bilərik ki, təminatın formalaşmasında



Prezident İlham Əliyevin şəxsi nüfuzu, liderlik keyfiyyətləri və Avropa dövlətlərinin rəhbərləri ilə yüksək səviyyəli əlaqələri, həmçinin şəxsi yaxınlığı müstəsna rol oynayır.

Ayrıca onu bildirək ki, hazırda Azərbaycan Aİ-nin Cənubi Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərq siyasətinin həyata keçirilməsində də etibarlı tərəfdaşdır. Bunu sübuta yetirən cəhətlər sırasında başlıca olaraq Aİ-nin Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallasın Azərbaycana bir müddət öncəki rəsmi səfəri vurğulanmalıdır. Əlbəttə, Aİ Şurasının Prezidenti Antonio Koştanın bu ilin yanvarında Prezident İlham Əliyevə zənginin üzərində də dayanmağa ehtiyac var.

Nəzərə alaq ki, telefon söhbəti zamanı Azərbaycan ilə Aİ arasında nəqliyyat, xüsusilə Transxəzər–Orta Dəhliz marşrutu üzrə daşımalar, Xəzər və Qara dəniz hövzələrini birləşdirən "yaşıl enerji" dəhlizinin yaradılması layihəsi, Azərbaycanın Aİ-yə üzv ölkələrə qaz ixracı və enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin təmasların davam etdirilməsi razılaşdırılıb. Onu da nəzərə alaq ki, ASB platformasında A.Koşta cənab İlham Əliyevlə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə birgə görüşdü. Bu da son dərəcə maraqlı və vacib məqamdır. Sözügedən görüşün də müzakirə diapazonu özünün genişliyi ilə yadda qaldı və ölkəmizin Avropa üçün önəmi bir daha vurğulandı.

**Dördüncü məqam.** Bu gün Ermənistanın beynəlxalq miqyasdakı bütün avantürist cəhdlərinin qarşısı alınıb. Ölkə artıq Aİ ilə əlaqələrdən sui-istifadə imkanlarını itirib. Halbuki, əvvəllər belə deyildi.



Avropa ermənipərəstləri, öz aləmlərində, həmin əlaqələri ölkəmizin şantajı kimi götürür, rəsmi Bakıya təsir alətinə çevirməyə cəhd göstərirdilər. Dövlətimizin başçısının düzgün müəyyənləşdirilmiş, uzaqgörən siyasəti nəticəsində belə "yanaşmalar" uğursuzluğa düçar olub. Buna əminliyimiz birmənalıdır.

**Beşinci məqam** bilavasitə balanslı xarici siyasət kursuna söykənir. Azərbaycan həm Şərq (xüsusilə Çin) ilə, həm də Qərb (Avropa İttifaqı) ilə münasibətlərini eyni intensivlikdə qurur və inkişaf etdirir. Buna görə də ölkəmiz "orta güc" ampluasındadır. Nəzərə alaq ki, bu amplua həm dinamiklik və çeviklik deməkdir, həm də diplomatik manevr imkanlarında genişlik.

**Altıncı məqam.** Bu məqam diplomatik aktivliklə bağlıdır. Məsələ ondadır ki, ASB-nin sammiti çərçivəsindəki təmaslar, o cümlədən keçirilən ikitərəfli görüşlər göstərdi ki, Azərbaycanın məzh diplomatik çevikliyi artıb. Bu isə özlüyündə ölkəmizə beynəlxalq marağın yüksələn xətt üzrə getməsi reallığını doğurur.

Sonda ümumiləşdirmə apararaq vurğulayaq ki, ASB-nin Tiranada keçirilmiş sayca altıncı sammiti ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə prinsipial aktor mövqeyinin gücləndiyini bir daha, özü də daha dolğun şəkildə ortaya qoydu. Sübut olundu ki, bütün kənar təsir cəhdlərinə baxmayaraq, Azərbaycanın Avropa ilə əlaqələri qarşılıqlı maraq əsasında inkişaf etməkdədir və hər iki tərəfdə bundan dərin məmnunluq hissi var.

***XQ-nin analitik qrupu***

# Ermənistan şərti sərhəddə hərbi gərginliyi artırır

**Azərbaycan 2020-ci ildə İkinci Qarabağ müharibəsi və 2023-cü il sentyabrın 19–20-də antiterror tədbirləri ilə ərazi bütövlüyü və suverenliyini bərpa etdi. Qələbədən sonra yekun sülhün təmin olunması istiqamətində danışıqlar aparıldı. Sonda iki ölkə arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin mətni razılaşdırıldı. Mətnin imzalanması üçün isə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddialar aradan qaldırılmalı, eyni zamanda, ATƏT-in Minsk qrupu ləğv olunmalıdır.**

Hazırda bu istiqamətdə danışıqlar aparılır. Lakin Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanmasına qarşı çıxan qüvvələr var və onlar tez-tez iki ölkə arasındakı şərti sərhəddə gərginlik yaradırlar. Atəşkəsin pozulması ilə bağlı məlumatlar da bundan xəbər verir. Son hadisə mayın 13-də qeydə alınıb. Həmin gün Ermənistan silahlı qüvvələri saat 20:45-dən 21:30-dək atəşkəsi pozub. Onlar Gorus və Çəmbərək rayonları istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutublar. Bu barədə Azərbaycanın Müdafiə Nazirliyindən bildirilib. Qeyd olunub ki, bölmələrimiz tərəfindən həmin istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Əvvəllər olduğu kimi, bu dəfə də, Ermənistan rəsmiləri atəşkəsi pozduqlarını inkar ediblər. Ermənistan Müdafiə Nazirliyinin məlumatında bildirilir ki, sərhədin şərq və cənub-şərq hissələrində yerləşən Azərbaycan mövqeləri atəşə tutulmayıb və xəbər həqiqətə uyğun deyil. Bundan əvvəl isə Azərbaycanın atəşkəsi pozduğu barədə yalan məlumatlar yayıblar.

Maraqlıdır ki, sülhlə bağlı irəliləyişin olduğu bir zamanda Ermənistanın təxribatları hayların sülh müqaviləsini imzalamağa hazır olmadığını göstərir. Bu, həm də Ermənistanın baş naziri Nikol Paşinyanın atəş açmamaq barədə verdiyi göstərişin dəyərsizliyindən xəbər verir.

Yada salaq ki, təqribən iki ay bundan əvvəl Paşinyan "Facebook" səhifəsində yazmışdı: "Ermənistan Müdafiə Nazirliyinə verdiyim göstəriş aydındır: atəşkəs rejiminin heç bir pozulmasına yol verməyin. Ermənistan müharibəyə yox, sülhə doğru irəliləyir".

O vaxtdan keçən müddətdə isə atəşkəs dəfələrlə pozulub. Amma Ermənistan tərəfindən dəfələrlə pozulan atəşkəs Aİ-nin müşahidə missiyası tərəfindən çox vaxt qeydə alınmayıb, hesabatlarında bununla bağlı hər hansı məlumat olmayıb. Çünki missiyanın əsas məqsədi regionda vəziyyətin sabitləşməsinə yox, gərginləşməsinə xidmət edir. İrəvanı da cəsarətləndirən məhz avropalı müşahidəçilərin bu mövqeyidir. Haylar əmindirlər ki, missiyanın fəaliyyəti onları qoruyacaq. Həm də buna paralel olaraq erməni tərəfi döyüş



mövqelərində mühəndis-istehkam işləri aparırlar.

Atəşkəsin pozulması və Aİ-nin müşahidə missiyasının atdığı addımlar da sübut edir ki, indiki halda Ermənistan ayrı-ayrı ölkələrdən, o cümlədən Fransadan silah almaq üçün müəyyən bəhanələr yaratmağa çalışır. Başa düşürlər ki, Rusiyadan silah almaq imkanları məhdudlaşıb. Hətta sülh müqaviləsi imzalansa belə, haylar Fransadan silah alacaqlarını bildirirlər. Ermənistanın müdafiə naziri Suren Papikyanın açıqlaması da çox şeydən xəbər verir: "İrəvanla Bakı arasında sülh müqaviləsi imzalandıqdan sonra da regionda təhlükəsizliyin təmin edilməsinin səviyyəsindən asılı olmayaraq, Ermənistan Fransadan silah almağa davam edəcək. Bu gün iki ölkə arasındakı hərbi əməkdaşlıq silahlı qüvvələrin, demək olar ki, bütün sahələrini əhatə edir. Müdafiə sahəsində islahatlar istiqamətində, hərbi təhsil sahəsində dəstək, birgə təlimlər və əlbəttə ki, silahlı qüvvələrin və müdafiə vasitələrinin müasirləşdirilməsi üçün hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsi prosesini xüsusilə vurğulamaq lazımdır".

Fransadan başqa, Qərbin müxtəlif strukturları, o cümlədən Brüsseldə oturan siyasətçilər də Ermənistana müxtəlif vədlər verməklə, silahlandırmaqla onu ümidləndirirlər. Onlar da haylarda revanşizm əhval-ruhiyyəni qızışdırırlar. Bu səbəbdən də hər vəchlə bölgədə təxribatçı, gərginliyə yönəlik addım və tədbirlərə əl atırlar. Onu da qeyd edək ki, Ermənistan 2022–2024-cü illərdə idxal etdiyi silahların 43 faizini Hindistandan alıb.

Azərbaycanın təklif etdiyi sülh müqaviləsi ətrafında danışıqların aparıldığı bir vaxtda Ermənistanın silahlandırılması isə bölgədə güc balansını pozur və revanşist qüvvələrin mövqeyini gücləndirir. Politoloq Mətin Məmmədli bildirdi ki, bu, yalnız sülh danışıqlarını çətinləşdirmir, həm də müqavilənin imzalanmasını əngəlləyir. Eyni zamanda, Ermənistan ictimaiyyətində yanlış illüziyaların yaranmasına səbəb olur, onun silahlanmasına rəvac verir: "Ermənistan və Fransa arasında hərbi əlaqələrin gücləndirilməsini, adətən, müttəfiqlik əlaqələrinin diversifikasiyası və gələcəkdəki qeyri-müəyyənliklərə qarşı müdafiə qabiliyyətliliyinin artırılmasına yönəlik strateji addım kimi şərh edirlər. Lakin Ermənistan və Fransa arasında hərbi-siyasi əlaqələrin dərinləşdirilməsinin səbəbləri daha genişdir. Misal üçün, Fransa öz geosiyasi nüfuz dairəsini ənənəvi sferasından kənara yaymağa çalışır, Ermənistana strateji cəhətdən həssas regionda əsas müttəfiq kimi baxır. Bu tərəfdaşlıq təkcə hərbi məsələləri yox, həm də dərin siyasi dialoq və iqtisadi razılaşmaları ehtiva edir".

M. Məmmədli qeyd etdi ki, yeni tərəfdaşlarına baxmayaraq, Ermənistanın Rusiya ilə bağları güclü olaraq qalır, Ermənistan ərazisində hələ də Rusiya hərbi bazaları mövcudluğunu davam etdirir: "Ermənistan Rusiya ilə ticarət dövriyyəsini artırıb. Beynəlxalq ekspertlərin qənaətincə, bu, sanksiya tətbiq edilmiş məhsulların təkrar ixracı sayəsində baş verib".

Onun sözlərinə görə, Azərbaycana qarşı 30 il təcavüzkar siyasət aparmış Ermənistanın silahlandırılması onun siyasi elitası və cəmiyyətində revanşist tendensiyaların artmasına xidmət edir: "Nəticə etibarilə, Fransanın Ermənistanı silahlarla təchiz etməsi Ermənistan və Azərbaycan arasında sülh perspektivlərinin yüksək olduğu məqamda hərbi-siyasi gərginliyi artırır. Hadisələrin bu cür inkişafı davam etməkdə olan sülh danışıqlarını zəiflədə və düşmənçilik hallarının daha da artmasına səbəb ola bilər".

Politoloq daha sonra bildirdi ki, Ermənistan baş naziri Nikol Paşinyan sülh mesajları verərkən Ermənistan ordusu



may ayında sərhəddə atəşkəs rejimini bir neçə dəfə pozub. İşğal tarixi olan və revanşist tələblərin hələ də gündəmində qaldığı Ermənistanın Fransa və Hindistan tərəfindən silahlandırılması bölgə üçün təhlükə yaradır. İkinci Qarabağ müharibəsindən sonra Ermənistan ordusuna Fransa və ABŞ-ın hərbi müşavirləri təyin edilib və birgə təlimlər keçirilib. 2020-ci ildə müharibədən əvvəl 700 milyon dollar olan ordunun hərbi büdcəsi 2025-ci ildə 1 milyard 708 milyon dollar müəyyən edilib. Halbuki bölgənin qarşıdurmaya yox, davamlı sülh və əməkdaşlığa ehtiyacı var".

**Politoloq Namiq Əliyev isə bildirdi ki,** sərhəddəki mövqelərimizin atəşə tutulmasının arxasında Azərbaycanla sülh sazişinin əleyhdarlarının təxribatı dayanır: "Bu, həm də, Aİ-nin müşahidə missiyası ilə əlaqəlidir. Çünki onun fəaliyyəti təhlükə altındadır və sülh sazişi imzalanarsa, o, sərhədi tərk etməli olacaq. Bunu Ermənistanın rəhbərliyi də açıqlamalarında bildiriblər. Onların sözlərindən belə məlum olur ki, müşahidə missiyası Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalanadək fəaliyyət göstərəcək".

Bu səbəbdən də bölgəyə sülhün təminatı üçün gələnlər atəşkəsin pozulmasında maraqlıdırlar.

Əslində, şərti sərhəddə Ermənistan ordusu atəşkəsi pozmaqla Azərbaycanı təxribatlara qarşı adekvat reaksiya vermək məcburiyyətində qoyur. Çətin ki, erməni tərəfi əvvəllər bunun necə bitdiyini unutsun. Buna baxmayaraq revanşizm arzusuna düşən haylar sərhəddə gərginlik yaratmağa çalışırlar. Onlar tərəfindən "sülh müqaviləsini imzalamağa hazırıq" açıqlamaları yalnız manipulyasiya vasitəsi ola bilər. Əgər qarşı tərəf sülh gündəmini rəhbər tutursa, o zaman sərhədyanı ərazilərdə hücum silahlarının yerləşdirilməsinə və atəşin pozulmasına son qoymalı, sülh müqaviləsinn imzalanmasına mane olan problemləri aradan qaldırmalıdır. Regionda sabitlik bunu tələb edir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# “Past”ın “sensasiyası”, yoxsa acı reallıq?

## *Ermənistan müxalifəti siyasi mübarizəni Qərbi Azərbaycana Qayıdış mövzusuna fokuslayır*

**Reallıq hissini itirənlərin illüziyaya qapılaraq nağıllara inanmaları, həqiqəti əyri güzgüdə təqdim etmələri, üzlərinə dirənən gerçəyi sensasiya kimi yozmaları normal qarşılanmalıdır. Acı məğlubiyyətdən ağır “tranşa” düşmələr, təfəkkürdə sapmalar, sürrealist yanaşmalar tibbin çoxdan müəyyən etdiyi patoloji diaqnozdur. Artıq Qarabağdan əli tam üzülmüş Ermənistan cəmiyyəti, onun yazılı və elektron mediası ağır aqibətlərini macəralarla, uydurma ssenarilərlə ört-basdır etməyə çalışır. Bəzən də çaşıb tarixi reallığı ictimai rəyə uydurma, hətta sensasiya kimi təqdim etmək yolunu tutur.**

Ermənistanın “Past” nəşri soydaşlarımızın ata-baba yurdlarına–Qərbi Azərbaycana qayıdışı barədə “sensasion” məqalə dərc edib. Böyük Qayıdışla bağlı çox önəmli məqamların yer aldığı yazıda doğru olaraq azərbaycanlıların tarixi torpaqlarına qayıtması rəsmi Bakı üçün prioritet sayılan məsələlərdən biri kimi təqdim olunur. Qayıdışın İrəvanla Bakı arasında danışıqlar mövzusuna çevrildiyini qeyd edən nəşr bunun cidd-cəhdlə ictimaiyyətdən gizlədildiyini iddia edir. Bu qayıdışın indi zarafat kimi səsləndiyini, zamanla heç də zarafat olmadığını anlayacaqlarını vurğulayan qəzet bununla bağlı Paşinyanın masası üzərinə konkret və təfərrüatlı məlumatın qoyulduğunu yazır. Bu layihənin yaxın zamanlarda həyata keçiriləcəyini istisna etməyən nəşrə görə, guya, Prezident İlham Əliyev Ermənistan baş naziri Nikol Paşinyana azərbaycanlıların Qərbi Azərbaycana qayıdışı ilə bağlı konkret layihə təqdim edib. “Bu layihə yaxın vaxtlarda reallaşdırıla bilər. Ermənistan rəhbərliyi məsələni gizlətməyə çalışsa da, qayıdış danışıqların əsas mövzularındandır” – yazan “Past”a 37 il bundan əvvəl doğma yurdlarından departasiya edilmiş soydaşlarımızın qayıdış hüququnun ədalətlə təmin edilməsi olacağını xatırlatmağımıza ehtiyac var.



Məqalədə, həmçinin Qayıdış konsepsiyası, dövlətimizin başçısının bu istiqamətdəki çıxışları və Zəngəzurla bağlı planlardan ətraflı söz açılır. Bildirilir ki, “dəhliz açılacaq, azərbaycanlıların yaşadığı ekslav yaradılacaq və bu, yalnız Zəngəzurla məhdudlaşmayacaq. Layihənin icrası Ermənistanın öhdəsinə düşür, Azərbaycan dili isə bu ölkənin rəsmi strukturlarında istifadə oluna bilər”.

Belə bir məqalənin dərci Ermənistandakı mövcud iqtidara qarşı düşünülmüş ideoloji təzyiq vasitəsi kimi istifadə oluna bilər. Amma məqalənin bizim üçün əhəmiyyət kəsb edən mahiyyəti ondan ibarətdir ki, qəzet bununla erməni cəmiyyətinə qayıdışın gec-tez reallaşacağını, Azərbaycanın Qayıdış Konsepsiyasının yaxınlaşdığını təsdiqləmiş oldu. Bu tezisin daxili siyasi mübarizədə hansı formada istifadə ediləcəyinin bizim üçün fərqi yoxdur. Əsas və gerçək mesaj odur ki, “azərbaycanlılar ana dilində təhsil alacaqlar, Ermənistanın qanunvericilik, icra və məhkəmə orqanlarında Azərbaycan dili işlənəcək”. “Past” indi bunu quru ehtimal, ironiyalı perspektiv kimi təqdim edə bilər, amma haylar 5 il bundan əvvəl də yuxularına gəlməyənlərlə gerçəklikdə üzləşəcəklərini ağıllarına belə gətirməzdilər.

*

Soydaşlarımızın fundamental hüquqlarının bərpa edilməsi istiqamətində Qərbi Azərbaycan İcması ilə dialoqa başlamalı, konkret addımlar atmalı olduğu dəfələrlə rəsmi İrəvanın diqqətinə çatdırılıb. Bununla bağlı icma Ermənistan hökumətinə rəsmi müraciət göndərib. Hələlik Hayastan rəhbərliyindən heç bir reaksiya yoxdur. Qərbi Azərbaycana Qayıdış Konsepsiyası layihəsini təhrif olunmuş redaksiyada təqdim edən və ona özlərinə sərfəli şəkildə şərh verən nəşrin “ekspertləri” daha da irəli gedərək, guya, konsepsiyada ölkəmizə qarşı vuruşmuş “qəhrəmanlara” Ermənistan ərazisində ucaldılmış heykəllərin ləğv edilməsinin göstərildiyini də yazırlar.

Oxucuların nəzərinə çatdıraq ki, Qərbi Azərbaycana Qayıdış Konsepsiyası internet resurslarda hamı üçün əlçatandır. Konsepsiyada soydaşlarımızın Ermənistandakı tarixi ərazilərə qayıdışının Hayastan üçün heç bir təhlükə yaratmadığı, əksinə, məqsəd bölgədə uzunmüddətli sülhə və sabitliyə nail olmaqdır. Sənəddə vacib məqamlardan biri tarixi torpaqlarına qayıdacaq soydaşlarımızın təhlükəsizliyinin üçüncü ölkələr tərəfindən təmini məsələsidir. Konsepsiyada oxuyuruq: “Ermənistan hökumətinin azərbaycanlı əhaliyə qarşı etnik əsaslarla geniş miqyaslı və sistematik zorakılıq törətmiş olması səbəbindən Qərbi Azərbaycan İcması təhlükəsizlik məsələlərində bu dövlətə etibar etmir. Ona görə də müvafiq mandatla və Qərbi azərbaycanlıların etimad göstərdiyi ölkələrin qüvvələrindən ibarət beynəlxalq təhlükəsizlik missiyasının qayıdış olacaq ərazilərdə yerləşdirilməsi zəruri hesab edir”. Bunu “Past”ın Qayıdış Konsepsiyasından xəbərsiz yazarları xatırlatma kimi qəbul edə bilərlər.

Konkret bu məsələdə Azərbaycanın narahatlığına tam haqq qazandırmaq mümkündür. Çünki 37 il əvvəl yüz minlərlə soydaşımız məhz erməni zorakılığının, etnik ayrı-seçkiliyin əzabını yaşayıblar. Həmin hadisələri yaşamış insanlar bu gün sağdır. O dəhşətli səhnələrin lentə alındığı video-xronikalar da durur. İndi rəsmi İrəvanın təhlükəsizlik vədlərinə inanmaq olarmı? Olmaz! Buna görə üçüncü ölkənin prosesdə iştirakına ehtiyac var. “Past” belə qüvvələrin sırasında Türkiyənin və Avropa İttifaqının yer ala biləcəyini yazır.

Artıq Ermənistan ictimaiyyətinə azərbaycanlıların tarixi torpaqlarına qayıdışı ilə bağlı müəyyən məqamlar bəllidir. Medianın bunu günün reallığı, yoxsa “sensasiya” kimi dövriyyəyə buraxmasından asılı olmayaraq, haylar özlərini o günə hazırlasınlar.

Bu “sensasiyanın” parlament seçkilərinə hazırlaşan müxalif düşərgənin Nikol Paşinyana qarşı təzyiq və şantaj kampaniyasının tərkib hissəsi ola biləcəyini də nəzərdən qaçırmamalıyıq. Yəni hay mediasının ilk dəfə müraciət etdiyi və tirajladığı bu mövzu baş nazirə qarşı istifadə olunacaq feyk-xəbərlərdən biridir. Aydın məsələdir ki, əgər Bakı İrəvana belə təkliflər versəydi və bu yöndə müzakirələr aparılsaydı, bunu heç cür gizlətmək mümkün olmazdı.

*İmran BƏDİRXANLI*
*XQ*

### Ekspert rəyi



***Əziz ƏLƏKBƏRLİ,***
***Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı:***

– Ermənistanla Azərbaycan arasındakı bu münaqişə təkcə Qarabağ müharibəsi ilə məhdudlaşmır. Bu münaqişənin azı 200 illik tarixi var. Ermənilər bu coğrafiyada 200 ildir azərbaycanlılara qarşı etnik təmizləmə, soyqırımı və deportasiya həyata keçiriblər. Qarabağ müharibəsi bu bədnam siyasətin yalnız son halqasıdır. Ona görə də Ermənistanla Azərbaycan arasında dayanıqlı, etibarlı sülh sazişinin imzalanması üçün Ermənistan Azərbaycana və azərbaycanlılara qarşı yeritdiyi iki əsrlik düşmənçilik siyasətindən səmimi şəkildə əl çəkməlidir. Qərbi Azərbaycan İcması ilk gündən ata-baba torpaqlarımıza dinc yolla, ləyaqətli şəkildə qayıdış uğrunda mübarizə aparır. Bununla bağlı Ermənistan rəhbərliyinə, beynəlxalq təşkilatlara dəfələrlə müraciət göndərmişik. İcmanın Qayıdış konsepsiyasının və digər mühüm sənədlərin BMT-nin əsas orqanlarının rəsmi sənədləri kimi yayılmasını təmin etdik. Biz çalışacağıq ki, gələcək nəsillər üçün bu problem qalmasın, yəni oraya – Qərbi Azərbaycana qayıdışımız gerçəkləşsin. 44 günlük müharibə nəticəsində torpaqlarımızı işğaldan azad etdik. İndi isə hədəfimiz Qərbi Azərbaycana qayıdışdır.

Azərbaycanla oyun oynamaq lazım deyil. Birincisi, Ermənistan Azərbaycana qarşı bütün ərazi iddialarından imtina etməli, bunun üçün konstitusiyasını dəyişməlidir, ikincisi də Qarabağ müharibəsinin tərkib hissəsi kimi 1987–1991-ci illərdə Qərbi Azərbaycandan – indiki Ermənistandan qovulmuş azərbaycanlıların geriyə qayıdış hüququnu tanımalı və təmin etməlidir. Özü də sözdə yox, əməldə”.

# Lələtəpəni geri almaq ohanyanların “yem”i deyildi...

## *Uğursuz əks-hücum erməni cəmiyyətində günahkar axtarışını alovlandırır*

*(əvvəli 1-ci səhifədə)*

Bundan başqa, istintaq müəyyən edib ki, Ohanyanın komandanlığı altında olan iki tabor faktiki olaraq fərarilik edib. İş üzrə müəyyən edilib ki, hərbi hissənin tabor komandiri, polkovnik-leytenant Q.A. silah-sursatın inventarlaşdırılması bəhanəsi ilə döyüş tapşırığının icrasında iştirakdan imtina edib. O, hücuma keçən taboru komandanlıqdan icazə almadan geri döndərərək əvvəlki mövqeyinə qaytarıb. Daha bir tabor komandiri Q.M. tankla birgə tank əleyhinə xəndəyə aşıb. O, xəsarət almasa da, bölməsi ilə hücumu başa çatdırmaqdan imtina edib.

Beləliklə, Ohanyana qarşı “hərbi vəziyyət, müharibə və ya döyüş şəraitində xidmətə səhlənkar münasibət” maddəsi, Q.A.-ya və Q.M.-ə isə “hərbi vəziyyət





dövründə hərbi xidmət vəzifələrini yerinə yetirməkdən imtina” maddələri ilə cinayət işi başlanıb. Təqsirləndirilən şəxslərin azadlıqda olmalarına baxmayaraq, məhkəmə onların ölkədən kənara çıxmasına qadağa qoyub. Yeri gəlmişkən, bildirək ki, bundan əvvəl həmin əməliyyatın uğursuzluğu və digər epizodlar üzrə, keçmiş separatçı rejimin “müdafiə ordusu” komandanı, general Cəlal Arutyunyan 5,5 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd etmək lazımdır ki, Lələtəpə istiqamətində hücum üzrə uğursuz əməliyyat Ermənistanda İkinci Qarabağ müharibəsinin ən ağrılı epizodlarından biri kimi qəbul olunur. 2020-ci il oktyabrın əvvəlində Azərbaycan Ordusunun Füzuli–Cəbrayıl istiqamətində sürətlə irəliləməsi fonunda Ermənistan komandanlığı əks-hücum təşkil etməyə cəhd göstərib. Hazırlanmış plana əsasən, erməni silahlı birləşmələri zirehli texnikanın dəstəyi ilə Lələtəpə yüksəkliyini geri almalı və Araz çayı boyunca irəliləyən Azərbaycan birləşmələrini mühasirəyə salmalı idi. Lakin bu plan tam fiaskoya uğrayıb. Azərbaycan tərəfi düşmən qoşunlarının cəmləşdiyi ərazini vaxtında müəyyən edib və qabaqlayıcı irimiqyaslı artilleriya zərbəsi endirib. Hücuma göndərilən tank taboru məhv edilib. Rəsmi məlumatlara görə, erməni tərəfi cəbhə xəttinə belə çatmadan 700-dən çox əsgər və onlarca texnika itirib.

Müharibə başa çatdıqdan, yəni, 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanat imzalandıqdan sonra Ermənistanla bu epizodla bağlı faktlara dair araşdırmalara başlanılıb. Müxalifət əməliyyatın, guya, şəxsən baş nazir Nikol Paşinyanın təşəbbüsü ilə başlandığını və 2016-cı il Aprel döyüşləri zamanı itirilən Lələtəpəyə nəzarəti bərpa etmək məqsədi daşıdığını iddia edib. Baş nazir özü bu əməliyyatın hazırlanmasında birbaşa iştirakını inkar edərək, hücum qərarının hərbi komandanlıq tərəfindən verildiyini vurğulamışdı. Nikol 2021-ci ildə bu ittihamlara cavab olaraq demişdi: “Tamamilə cəfəngiyyatdır! Bu təklifin müəllifi general olub. O, bunu real hesab edib və planı işə salıb”.

İndi isə Ermənistan baş prokurorluğunun ittiham aktına əsasən, məlum olur ki, əməliyyatın uğursuzluğuna görə məsuliyyət N.Paşinyana qarşı radikal müxalifətdə dayanan S.Ohanyanın oğlunun üzərinə qoyulub. O, həmin vaxt “Qarabağın müdafiə ordusu” adlanan qurumda yüksək vəzifə tutub. İddia edilir ki, tapşırığın planlaşdırılması və icrasında kobud səhvlərə yol verib.

Öz növbəsində Seyran Ohanyan konkret hərbi epizodlara münasibət bildirməyəcəyini deyib. Eyni zamanda, oğlunun əmrlə hərəkət etdiyini, məsuliyyəti də əmri verənlərin daşıdığını vurğulayıb: “Mənim oğlum komandan deyil, icraçı olub. Rəhbərlik ordu komandanlığı səviyyəsində həyata keçirilib”.

A.Ohanyanın vəkilləri əmin olduqlarını bildiriblər ki, məhkəmə araşdırması Lələtəpədəki uğursuzluğun əsl səbəblərinin aydınlaşacağına imkan verəcək. Onların fikrincə, müttəhimlər kürsüsündə strateji qərarlar qəbul edən yox, çətin döyüş şəraitinə düşmüş icraçı əyləşib. Qeyd ediblər ki, A.Ohanyana qarşı irəli sürülən “xidmətə səhlənkar münasibət” ittihamı faktiki olaraq, taktiki səviyyədəki bir zabitin məsuliyyətini əhatə edir. Lakin əmr yuxarıdan – “müdafiə ordusu”nun rəhbərliyindən və ya daha yüksək strukturlardan gəlibsə, bu zaman əsas məsuliyyət planı hazırlayan və hücuma göstəriş verənlərin üzərinə düşür. Vəkil Vigen Ambarsumyan deyib ki, əgər məqsəd əməliyyatın real səbəblərini ortaya çıxarmaqdırsa, bu halda təkcə icraçının deyil, əmri verən şəxslərin, o cümlədən ehtimal olunan siyasi rəhbərliyin də məsuliyyəti araşdırılmalıdır. Əks halda, bu, siyasi motivli “günah keçisi” axtarışı kimi görünür.

Onu da bildirək ki, istintaq materiallarında qeyd olunan əsas nöqsanlar (qarşılıqlı əlaqənin olmaması, ardıcıllığın pozulması, planlaşdırmanın zəifliyi) Ermənistan ordusunun struktur böhranını əks etdirir. Bu isə tək bir şəxsin deyil, ümumilikdə, hərbi sistemin iflasıdır. Ermənistan cəmiyyətində də bu qənaət getdikcə güclənir: Paşinyan hakimiyyəti hərbi fiaskonun əsas səbəblərindən biri olan sistemsizlik və qeyri-peşəkarlıqdan yayınmaq üçün məsuliyyəti fərdi şəxslərin üzərinə atır.

Ermənistandakı siyasi gərginliyi və 44 günlük müharibənin nəticələrindən əhalinin narazılığını nəzərə alsaq, Lələtəpə əməliyyatı ilə bağlı məhkəmə təkcə hüquqi deyil, həm də siyasi presedentə çevrilə bilər. Burada əsas məsələyə aydınlıq gətiriləcək: bütün kampaniyanın uğursuzluğuna görə həqiqətən kim məsuliyyət daşıyır – ordu, ayrı-ayrı zabitlər, yoxsa dövlət orqanları? Lələtəpə istiqamətində baş vermiş uğursuzluq Ermənistan ictimai şüurunda “utanc rəmzi” kimi qalır. Əsgərlərin fərariliyi, texnikanın dislokasiya yerində çatışmaması, artilleriya hazırlığının yoxluğu – bütün bunlar Ermənistan ictimaiyyətində ciddi narazılıq yaradıb. Bu fonda günahkar axtarışı siyasi və ictimai təzyiqlərlə müşayiət olunur. Hazırkı məhkəmə əhalinin narazılığını bir fiqura yönəltmək, yəni “daxili düşmən” obrazı yaratmaq cəhdi də ola bilər.

Onu da bildirək ki, Ermənistanda İkinci Qarabağ müharibəsinin nəticələri ilə hələ də barışmaq istəməyən böyük bir kütlə var. Bu kütlə təqsirkar axtarışındadır. Ancaq bu məhkəmə onların suallarına cavab verməkdənsə, daha çox siyasi hədəflərə yönəldilmiş görünür. Əgər doğrudan da məqsəd həqiqətin üzə çıxarılmasıdırsa, əməliyyatın planlaşdırılmasında, koordinasiyasında və qərarların verilməsində iştirak edən daha yüksək vəzifəli şəxslər də mühakimə olunmalıdır. Əks halda bu proses, sadəcə olaraq, “siyasi məsuliyyəti yayındırma” və “ictimai narazılığı yönəltmə” alətinə çevriləcək.

*Səxavət HƏMİD*
*XQ*

### Ekspert rəyi



***İlqar VƏLİZADƏ,***
***“Cənubi Qafqaz” politoloqlar klubunun rəhbəri, siyasi şərhçi:***

– Əslində, İkinci Qarabağ müharibəsinə görə Ermənistanda hamı – həm Paşinyan, həm hökumət, həm də Qarabağ klanı məsuliyyət daşıyır. İşğalda və bunun nəticəsində yaranan vəziyyətdə bütün bu tərəflərin hamısı təqsirkardır. Məhkəmə prosesində, əslində, hamı iştirak etməlidir. Obyektivlik naminə demək lazımdır ki, elə Paşinyanın özü bu prosesdə təqsirləndirilən şəxs qismində cavab verməlidir.

Seyran Ohanyan özü isə Azərbaycan ərazilərinin işğalında bilavasitə iştirak edib. Onun məsuliyyəti böyükdür və digər separatçı başçılar kimi, Bakı Hərbi Məhkəməsi qarşısında cavab verməlidir. Onun oğlu ilə bağlı aparılan məhkəmə prosesi isə əslində, Seyrana qarşı aparılan prosesdir. Yəni daxili siyasi məsələdir. Ona qarşı İkinci Qarabağ müharibəsində “xidmətə səhlənkar münasibət” ittihamının irəli sürülməsi bir bəhanədir. Ermənistan hakimiyyəti öz rəqiblərini sıxışdırmaq, əzmək, onlar üzərində üstünlük qazanmaq üçün 44 günlük müharibədən və onun nəticələrindən istifadə edir. Amma məntiqlə burada Paşinyan da, digərləri də təqsirkardır. Yeri gəlmişkən, Paşinyanın oğlu Aşot da işğal dövründə Qarabağda hərbi xidmətdə olub. Bunların hamısını nəzərə almaqla demək mümkündür ki, Artur Ohanyana qarşı proses heç də İkinci Qarabağ müharibəsi zamanı baş vermiş uğursuzluqlara hüquqi qiymət vermək məqsədi daşımır. Bu, daxili “razborka”dan başqa bir şey deyil.

Biz, əlbəttə, Ermənistan cəmiyyətinin, ümumiyyətlə, bu dövr haqqında başqa təsəvvürdə olmalarını, proseslərin real, olduğu kimi görmələrini istərdik. Amma, təəssüf ki, bu məsələ siyasi oyuna çevrilir və həqiqətin üzə çıxmasına imkan vermir.

# Elm siyasəti və milli elmi elita



II MƏQALƏ

## "Elm – sonsuza qədər ön sırada"

**ABŞ-də liberal elm siyasətinin əsaslarını yaradanlardan olan V.Buş haqqında I məqalədə yazmışıq. Fikrimizi davam etdirərək onu vurğulayaq ki, II Dünya müharibəsi zamanı o, ordunun maraqlarına uyğun elmi-tədqiqat işlərini koordinasiya etmişdir. 1945-ci ildə isə yazdığı "Elm – sonsuza qədər ön sırada" adlı əsəri ilə elm siyasətinin konseptual əsaslarını yaratmışdır.**

V.Buş həm də Amerika Prezidentinin elmi məsləhətçisi idi. 1940-cı ildə ABŞ-də müdafiə tədqiqatlarının Milli Komitəsini prezident F.Ruzvelt yaradanda ora nüfuz etməyi bacarmışdır. O zaman V.Buş Karneqi Fondunun rəhbəri idi. V.Buşun təkidi ilə yeni yaranmış Milli Komitəyə Harvard, Massaçuset universitetlərinin və Milli Elmlər Akademiyasının rəhbərlərini daxil etdilər. Bununla milli komitədə nəzarət alimlərə keçdi.

Sonra V.Buş Elmi Tədqiqat və Araşdırmalar Bürosunu yaratdı. Büro birbaşa ABŞ prezidenti tərəfindən maliyyələşdirilirdi. Milli komitə sonradan büronun tərkibinə daxil edildi və məsləhət-məşvərət şurasına çevrildi.

V.Buş hesab edirdi ki, dövlət tədqiqat institutları yaradıcılıq sərbəstliyi ilə dövlətin strateji maraqlarına xidmət edən fəaliyyətin sintezinə nail olmalıdırlar. Yəni onlar strateji perspektivi olan tədqiqatlar aparmalı və onu dövlətin elm siyasəti əsasında etməlidirlər.

Bununla V.Buş bir sıra alimlərin yaradıcılıqda tam sərbəstliyə üstünlük verilmə tələblərinin (o cümlədən, M.Polani və R.Mertonun) real əsası olmadığını sübut etdi. Hər bir halda liberal elm siyasətinin banilərindən olan V.Buş göstərir ki, bütün hallarda dövlət tabeliyindəki elmi-tədqiqat institutları şəxsi tədqiqat mərkəzlərindən fərqli olaraq dövlətin strateji maraqlarına uyğun vahid elm siyasəti çərçivəsində fəaliyyət göstərməlidirlər.

Bu, prinsipial məqamdır və hər bir ölkə üçün başqa faktorlardan qaynaqlanan özəlliklər üzərində düşünməyə istiqamətləndirir. O cümlədən liberal elm siyasətinin amerikan variantının vurğuladığımız bir sıra başlıca məqamlarından bir neçə qənaət əldə edə bilərik.

Birincisi, tam sərbəst elmi fəaliyyət nə fərdi, nə də institusional miqyaslarda mövcud deyildir. İnkişaf etmiş ölkələrdə isə elm birbaşa dövlətə xidmət etməlidir.

İkincisi, liberal elm siyasətində dövlətə aid olmayan elmi təşkilatlarda fəaliyyət sərbəstliyi təmin edilir. Lakin son məqamda onların fəaliyyəti də dövlətin strateji maraqlarından kənarda olması arzuolunan hal sayılmır. Bəzən bunun qarşısını ən sərt üsullarla ala bilirlər.

Deməli, liberal elm siyasətində yaradıcılıq sərbəstliyi ilə alim məsuliyyəti müəyyən nisbətdə götürülür. Bu nisbət konkret ölkənin dövlətçilik, elmi, siyasi, mədəni ənənəsi ilə indiki dövrdə qarşısına qoyduğu başlıca dövləti hədəflərin qarşılıqlı münasibətlərində dəqiq ifadəsini tapır. Buradan avtomatik olaraq üçüncü qənaət alınır.

Üçüncüsü, liberal elm siyasətinin məzmunu və məqsədi ölkədən ölkəyə fərqlənir. Bura elm siyasətinin substantiv aspekti ilə yanaşı, elmi fəaliyyətin təşkili fəlsəfəsi və əyani təzahür forması da daxildir.

## Marksist sistemin elm siyasəti

Burada əsas prinsip elmin dövlətin nəzarətində olması ilə bağlıdır. SSRİ dönəmində elmin təşkili əsasən üç istiqamətdə aparılırdı: birinci, akademik sistem daxilində elmi-tədqiqat müəssisələri şəbəkəsi, ikinci, ali məktəblər şəbəkəsi, üçüncü, ayrı-ayrı ixtisaslaşmış şöbələr şəbəkəsi. Burada elmi-tədqiqat aspektində aparıcı rolu akademik araşdırmalar oynamışdır. Bu da SSRİ-də akademiyaları, faktiki olaraq, elm siyasətinin başlıca obyekti halına gətirmişdi və həm də ölkənin elmi elitası əsasən bu sistemdə formalaşırdı.

Keçən əsrin 70–80-ci illərindən başlayaraq sovetlərdə marksistliklə yanaşı, elmin idarə olunmasında sistemli yanaşmanın tətbiqi genişləndi. Onun əsas ideya banisi Cermen Qvişiani idi. O, 1968-ci ildə etdiyi məruzədə SSRİ-nin elm siyasətinin mahiyyətini açmışdır. Həmin məruzədə C.Qvişiani sovet elm siyasəti çərçivəsində rasional formada sistem yanaşma metodunun tətbiq edilməsinin elmdə böyük uğurlara yol aça biləcəyi tezisini ifadə etmişdir. Bu o demək idi ki, marksist elm siyasətində müasir tələblərə uyğun yeniliklər edilsə, elmi uğurlar daha çox ola bilər. Lakin həyat göstərdi ki, liberal elm siyasəti daha geniş yayılmışdır və hazırda dünyanın aparıcı dövlətləri məhz liberal elm siyasəti əsasında marksist sistemin də müəyyən elementlərini daxil etməklə yeni elm siyasətinin hazırlanmasına üstünlük verirlər.

Problemin nəzəri aspekti üzərində detallı dayanmadan birbaşa vurğulanan təcrübənin Azərbaycana proyeksiyası məsələsinə baxaq.

## 1945–1980-ci illər

Akademik İsa Həbibbəyli XX əsrdə Azərbaycanda akademik elmin təşkili ilə bağlı geniş tədqiqat aparmışdır və onu konkret dövrüləşdirmişdir. Biz həmin dövrüləşdirmə çərçivəsində bir sıra məqamlara toxunacağıq.

1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının yaradılması ilə XX əsrdə ilk dəfə Azərbayanda elmi-tədqiqat vahid institutlaşma formasına keçmişdir. Onun akademiya formasında institutlaşması həm elm siyasəti, həm də elmi fəaliyyətin təşkilində həlledici rol oynamışdır. Çünki faktiki olaraq EA Azərbaycan SSR-də elmi-tədqiqatın aparıcı və əsas institutlaşmış forması olmuşdur. Əlbəttə, bu, ali məktəblərdəki elmi fəaliyyəti arxa plana atmırdı, lakin respublikada elmi araşdırmaların çox böyük yükü və məsuliyyəti məhz akademiyanın üzərinə düşürdü.

Buna görə də biz, XX əsr boyu Azərbaycanda elmin təşkilinin əsas məkanının EA və bu səbəbdən onun dövlətin elm siyasətinin başlıca obyekti olduğunu qəbul etməliyik. Lakin təəssüf ki, bu məqam 1969-cu ilə qədər respublikada bir qədər kölgədə qalmışdır. Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik edəndən başlayaraq Elmlər Akademiyası dövlət siyasətinin ön sırasına çıxarılmışdır.

Bununla Heydər Əliyev XX əsrdə, ilk dəfə olaraq, elm siyasətinə konkret məzmun vermiş və həmin kontekstdə Akademiyanın təşkilatlanmasının inkişafını sistemli hala gətirmişdir. 1982-ci ilə qədər Heydər Əliyev EA-nı Azərbaycan və azərbaycançılığa xidmət istiqamətində faktiki olaraq yenidən təşkilatlandırmışdır. Akademik İsa Həbibbəyli vurğulayır ki, bununla Heydər Əliyev faktiki olaraq ölkənin milli elmi elitasını yaratmışdır. Bu baza indi də AMEA-nın fəaliyyətində əsas rol oynamaqdadır.

## Müstəqillik mərhələsi

Müstəqillik mərhələsində Azərbaycanda elmi fəaliyyətin təşkili (institutlaşma səviyyəsində) yeni məzmun almışdır. Bu prosesin də təməlində Ulu öndərin elm siyasəti dayanırdı. Burada başlıca istiqamət dövlətə və azərbaycançılığa xidmətlə bağlı idi. Bu xətti davamlı olaraq inkişaf etdirən Heydər Əliyev 2001-ci ildə AMEA-nı "milli sərvət" kimi qiymətləndirdi. Həmin məqam həm elm siyasəti, həm də milli elmi elitanın formalaşması prosesində yeni mərhələnin başlanğıcı idi. Burada həm varisliyi, həm də yeniliyi onların qarşılıqlı münasibətləri kontekstində daha aydın təsəvvür etmək üçün bir sıra özəlliklərə baxaq.

## Elm siyasətində varislik

Liberal və marksist sistem modellərinin mahiyyəti göstərir ki, istənilən halda müstəqil dövlətdə elm siyasətində varislik prinsipinə əməl olunmalıdır. Onun elmi fəaliyyətin davamlı olması aspekti ilə yanaşı, elmin cəmiyyətdəki funksiyasının da bir xüsusiyyəti ilə bağlı səbəbi vardır. Məsələ ondan ibarətdir ki, ölkədə elm faktiki olaraq müasir cəmiyyətin elitasının formalaşmasında aparıcı rol oynamalıdır. Tədqiqatlarda bu məqam maraqlı şəkildə ifadəsini tapmışdır.

Nümunə olaraq göstərə bilərik ki, müasir araşdırmaçılar elmi elitanı üç tərkib hissəsinə ayırırlar – önelita, yaradıcı (kreativ elita) və postelita kəsimləri. Önelita gənc elmi nəsli əhatə edir. Onlar mövcud elmi elitanın təcrübəsi üzərində yenilikçi olmalı və faktiki olaraq yaradıcı kəsimi əvəz etməlidirlər.

Məntiqdən görünür ki, hər zaman kreativ, yəni yaradıcı elmi elita prakiki olaraq verilən zaman kəsiminidə ölkənin milli elmi elitasının fəaliyyətdə olan və birbaşa nəticəverən kəsimini təmsil edir. Kreativ elmi elita gənclərlə yaşlılar arasında ruhi, intellektual, mənəvi, əxlaqi və mədəni bağlantı yaradan və bu anlamda varisliyi təmin edən təbəqə rolunu oynayır.

Nəhayət, "postelita" milli elmi elitanın kiçik bir qismini ifadə edir ki, ona qoca alimlər daxildir. Postelita özünəxas tərzdə elmi varisliyi təmin edən, lakin feili olaraq kreativ elita səviyyəsində səmərəli (faydaverici, elmi nəticəalıcı) işləmək imkanı məhdud olan elmi kəsimdir. Onlar bütün ölkələrdə daha çox hakimiyyətə "yaxın" olurlar. Yəni həm elm adamlarının sözlərini demək, həm də nüfuz baxımından postelita mühüm rol oynayır.

Özlüyündə sual yarana bilər: elmi elitanın hansı kəsimi daha əhəmiyyətlidir? Əgər cavabı yuxarıda vurğulanan qısa müqayisələr fonunda axtarsaq, belə bir tezis irəli sürə bilərik: milli elmi elitanın hər üç kəsimi çox önəmlidir və praktiki aspektdə onların heç birini arxa plana atmaq olmaz.

O cümlədən önelita xatirinə postelitanı sıxışdırmaq yolverilməzdir, çünki bütövlükdə, həm dövlət-elm münasibətlərinə, həm də elmi yaradıcılıqda varisliyə ciddi ziyan ola bilər. Eyni zamanda, elmi təcrübənin dinamik ötürülməsi mexanizmi pozular ki, onun bərpası uzun müddət mümkün olmaz. Məsələ onunla bağlıdır ki, elmi təcrübənin ötürülmsəi elmi yaradıcılığın əsas şərtlərindən biridir və onun formalaşmasına uzun illər lazım gəlir. Bu prosesdə təhsillə elmin vəhdətinin təmini mühüm şərtdir. Təhsildə hazırlanan gənc kadrların sırf elmi araşdırmalara cəlb olunması sistemli və əsaslı yanaşma tələb edir.

Müasir Qərb liberal elm siyasətinə aid olan bir nümunə gətirək. İndi qərbli alimlər yazırlar ki, elə elmi problemlər mövcuddur ki, yüzlərlə və bəzən minlərlə tədqiqatçının vahid komandada işləməsini təşkil etmək zərurəti yaranır. Məsələn, bozon kiçik hissəciyinin tədqiqi üçün 5 min (!) kadr cəlb edilmişdi. Gen ardıcıllığının araşdırılması üçün isə 900-dən çox mütəxəssis birgə işləməli olmuşdur.

Azərbaycandakı elmi tədqiqat institutlarının (daha ali məktəbləri demirik) kadr potensialı baxımından bu rəqəmlər çox yüksəkdir. Bizim hansı elmi tədqiqat institutunda 5 min kadr çalışır? Heç birində. Deməli ki, faktiki olaraq bir elmi problemi araşdırmaq üçün tələb olunan yüzlərlə və minlərlə kadrı müvəqqəti də olsa, elmin institutlaşması kriteriyaları çərçivəsində vahid yaradıcı komandada birləşdirmək lazım gəlir. Buradan ən azı iki nəticə çıxarmaq olar.

Birincisi, müasir mərhələdə elmi fəaliyyətin institutlaşması daha da aktual hala gəlmişdir və burada fənlərarası tədqiqat istiqaməti üstünlük təşkil edir ki, bu da kadr aspektində çoxlu sayda insanın birgə yaradıcı işləməsini təmin etməyi ön sıraya çıxarır. Yəni elm siyasətində vahid məqsədə xidmət strateji əhəmiyyət kəsb edir.

İkincisi, ölkə miqyasında elm siyasəti ilə aparıcı elmi təşkilatın elm siyasəti vəhdət təşkil etməlidir. Onlar arasında hər hansı uyğunsuzluq mənfi nəticələr verə bilər.

Bu kontekstdə təsəvvür edək ki, sovet dönəmində uzun illər həm təhsilin təşkili, həm də sırf elmi araşdırmaları apara biləcək kadrların yetişdirilməsi ciddi sistemlilik şərtləri daxilində formalaşır və sonra bu prosesdən birbaşa fərqli (məsələn, liberal elm siyasətinə) modelə keçilir. Belə bir keçid həmişə nəticəsiz olur. Ona görə ki, məsələ yalnız fərdin elmi yaradıcılığı üçün geniş imkanların yaradılması ilə məhdudlaşmır. Burada müasir mərhələdə ön sıraya kollektiv elmi yaradıcılıq və elmi fəaliyyətin təşkilinin bu kollektiv yaradıcılığın praktiki nəticə verə bimәsini təşkil etmək məsələsi çıxır. Elmin optimal və müasir tələblərə uyğun institutlaşması zəruriliyinin təməlində ilk olaraq məhz bu şərt dayanır. Həmin özəllik çərçivəsində elm siyasəti ilə milli elmi elitanın formalaşması məsələləri sıx qarşılıqlı əlaqədə olurlar.

Əlbəttə, elm siyasəti ilə milli elmi elitanın formalaşması məsələsi yalnız varisliyin təmini ilə məhdudlaşa bilməz. Burada elmi elitanın tərkibi və ümumiyyətlə, ölkədə elmi fəaliyyətin institutlaşmasının kreativ aspekti ciddi ol oynayır. Eyni zamanda, biz bu məsələyə AMEA-nın yeniləşməsi kursu fonunda onun strateji inkişaf konsepsiyası aspektində varisliklə yeniliyin çoxtərəfli parametrləri kontekstində baxacağıq.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Milli Məclisin plenar iclası




**Mayın 16-da Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova 12 məsələnin müzakirə ediləcəyini bildirib. O, birinci məsələnin İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2024-cü ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumat olduğunu söyləyib.

Daxili işlər nazirinin birinci müavini, Azərbaycanın İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatoru Seyfulla Əzimov 2024-cü ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı təqdim edib. O bildirib ki, 2024-cü il ölkəmizin bir sıra dövlət orqanları, vətəndaş cəmiyyəti institutları və beynəlxalq tərəfdaşlarla birgə insan alverinə qarşı mübarizə sahəsində tədbirlər, normativ-hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi davam etdirilib. Müvafiq tədbirlər çərçivəsində "Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, "2025-2030-cu illər üçün Milli Fəaliyyət Planı", dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair tələbləri əks etdirən normativ sənəd layihələri üzərində işlər tamamlanaraq, aidiyyəti üzrə təqdim olunub.



Sonra parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2024-cü ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı barədə bu komitənin rəyini təqdim edib. Çıxışının sonunda komitə sədri Milli Koordinatorun illik fəaliyyətinin yüksək qiymətləndirildiyini bildirib, təkliflərini səsləndirib. Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı ilə bağlı rəhbərlik etdiyi komitənin mövqeyini diqqətə çatdırıb. Məsələ ilə bağlı müzakirələrdə çıxış edən deputatlar öz qeyd və təkliflərini söyləyiblər. Milli Məclisin Sədri məsələyə münasibət bildirərək, deputatların seçicilərlə görüşləri zamanı maarifləndirmə işində fəallıq göstərməsinin əhəmiyyətindən danışıb. Müzakirələrin sonunda insan alverinə qarşı mübarizəyə dair məlumatı nəzərə alınıb.

Sonra Sahibə Qafarova növbəti 6 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu qeyd edib. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan Respublikası Silahlı Qüvvələri İntizam nizamnaməsinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumatı diqqətə çatdırıb. Əli Hüseynli Mülki Prosessual Məcəlləsində və "İcra haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Sonra Arzu Nağıyev "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinin mahiyyəti haqqında danışıb. Əmək və sosial siyasət komitəsinin üzvü Soltan Məmmədov "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini diqqətə çatdırıb. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Cinayət-Prosessual Məcəllədə, İnzibati Xətalar Məcəlləsində və "Məhkəmələr və hakimlər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Mədəniyyət komitəsinin üzvü Şahin Seyidzadə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. Qanun layihələri səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin sədri gündəliyin digər 5 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu bildirib. Sonra Əli Hüseynli "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsini (birinci oxunuş) təqdim edib. Konstitusiya qanununun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sahibə Qafarova növbəti məsələnin "İstilik təchizatı haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) olduğunu bildirib. O qeyd edib ki, bu məsələ ilə əlaqədar energetika nazirinin müavini Orxan Zeynalov, "Azəristiliktəchizat" ASC-nin sədri İlham Mirzəliyev və Energetika Nazirliyinin şöbə müdiri Ələsgər Həsənov iclasda iştirak edirlər. Sonra Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "İstilik təchizatı haqqında" qanun layihəsini təqdim edib. İclasda iştirak edən energetika nazirinin müavini Orxan Zeynalov, "Azəristiliktəchizat" ASC-nin sədri İlham Mirzəliyev çıxışlarda qaldırılan məsələlərə münasibət bildiriblər, verilən sualları ətraflı cavablandırıblar. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov gündəliyin onuncu məsələsi – Cinayət Məcəlləsində və Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Sənəd səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Sənəd səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Növbəti məsələni – Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov təqdim edib.

Müzakirələrin sonunda səhiyyə naziri Teymur Musayev çıxış edib, sənədə təklif olunan dəyişiklikləri zəruri edən amillərdən söz açıb, onların əhəmiyyətini diqqətə çatdırıb, deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib, suallarını cavablandırıb. Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatıb.

***XQ***

# Albaniya ölkəmizin strateji enerji tərəfdaşıdır



(əvvəli 1-ci səhifədə)

İki ölkə arasında bağlanmış ticarət sazişləri isə iqtisadi əlaqələrin daha genişləndirilməsinə imkan yaradıb. İqtisadi münasibətlərin dərinləşməsi isə öz növbəsində ticarət dövriyyəsinin yüksələn xətlə inkişaf etməsinə gətirib çıxarıb. Təkcə onu qeyd etmək kifayətdir ki, 2006-cı ildə iki ölkə arasında cəmi 636,6 min ABŞ dolları dəyərində idxal-ixrac əməliyyatları həyata keçirilmişdisə, 2021-ci ildə bu məbləğ 4 milyon 951 min dollara yüksəlib.

Albaniya hazırda da Azərbaycanın iqtisadi tərəfdaşlarından biri olaraq ölkəmizi beynəlxalq aləmdə yaxından dəstəkləyir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ildə iki ölkə arasında ümumi ticarət dövriyyəsi 2 milyon 455,11 min dollar təşkil edib ki, bunun da 628,04 min dolları idxalın, 1 milyon 827,07 min dolları isə ixracın payına düşüb. Bununla belə, iki ölkə arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi üçün potensial olduqca yüksəkdir. Məhz bu səbəbdən tərəflər iqtisadi əməkdaşlığın inkişafı məqsədilə birgə səyləri artırmağı məqsədəuyğun hesab edirlər.

Azərbaycanla Albaniya arasında enerji sahəsində əməkdaşlıq isə iqtisadi əlaqələrin dərinləşdirilməsi baxımından əlverişli fürsətdir. Artıq bunun üçün möhkəm əsas da yaradılıb. Məlum olduğu kimi, Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verən 3500 kilometrlik Cənub Qaz Dəhlizinin sonuncu seqmenti sayılan Trans-Adriatik Boru Kəməri (TAP) Albaniyanın ərazisindən keçir. Məhz buna görə də TAP layihəsi iki ölkə arasında enerji əməkdaşlığının genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, TAP layihəsi üzrə Hökumətlərarası Saziş 2013-cü ilin fevral ayında Albaniya, İtaliya, Yunanıstan dövlətləri arasında imzalanıb və 2016-cı ilin mart ayından tikinti işlərinə başlanılıb. 2020-ci il dekabrın 31-də TAP boru kəməri vasitəsilə kommersiya qazının nəqlinə başlanılıb. Albaniyanın podratçı şirkətləri də TAP boru kəmərinin tikinti işlərində iştirak ediblər. Göründüyü kimi, bu ölkə TAP layihəsinin həyata keçirilməsi çərçivəsində öz tranzit imkanlarından faydalanmaqla yanaşı, məşğulluq startegiyasının həlli üçün də yaxşı fürsət qazanıb.

Eyni zamanda, Albaniya Azərbaycanın ölkənin enerji infrastrukturunda fəal iştirakında maraqlıdır. Təsadüfi deyil ki, Albaniyanın infrastruktur və energetika nazirinin müavini Seno Klosi mətbuata müsahibəsində ölkəsinin enerji sektorunun sürətli inkişafına baxmayaraq, qazlaşdırma məsələlərində geri qaldığını vurğulayaraq Azərbaycanla, xüsusən də SOCAR şirkəti ilə qarşılıqlı əməkdaşlığın qaz infrastrukturunun inkişafını sürətləndirməyə və enerji potensialını genişləndirməyə kömək edəcəyinə əminliyini bildirib. “Biz hər iki ölkənin malik olduğu təcrübə və potensialın, həmçinin enerji sahəsində toplanmış biliklərin mübadiləsi yolu ilə əməkdaşlığımızı genişləndirməyə çalışırıq. Məhz buna görə də sizin şirkətinizin – SOCAR-ın iştirakı ilə biz indi, deyək ki, layihənin ilkin mərhələsini – bu layihəyə investisiya qoyuluşuna başlamaq üçün konkret addımlara keçməzdən əvvəl biznes-planın hazırlanmasını başa çatdırırıq”, – deyə o, əlavə edib.

Albaniyanın 2026-cı ildə ilk dəfə TAP boru kəməri ilə “mavi yanacaq” alacağını söyləyən nazir müavini fikrinin davamında bildirib ki, qaz kəməri artıq Albaniya ərazisindən keçir və İtaliyaya ötürülür, lakin gələcəkdə şimala doğru bir qolun çəkilməsi ilə bağlı layihə hazırda baxılma mərhələsindədir. Onun sözlərinə görə, Albaniya qazlaşdırma sahəsində geri qalmağı aradan qaldırmağa çalışır və təchizat layihəsini strateji hesab edir. Yeri gəlmişkən, TAP-ın 2026-cı ildən etibarən əlavə olaraq ildə 1,2 milyard kubmetr qaz qəbul edəcəyi planlaşdırılır ki, bunun da 1 milyard kubmetrini İtaliya, daha 200 milyon kubmetrini isə Albaniya alacaq.

Azərbaycanın təbii qazını Avropa bazarlarına çatdıran TAP boru kəməri ilə ticarət əməliyyatlarının başlandığı gündən bu vaxtadək “köhnə qitəyə”, təqribən, 50 milyard kubmetrdən çox qaz nəql edilib.

Avropanın enerji təhlükəsizliyini və davamlılığını dəstəkləyən boru kəməri ilə 2026-cı ilə qədər ildə əlavə 1,2 milyard kubmetr qaz nəql olunması gözlənilir. TAP hazırda İtaliyanın enerji tələbatının ödənilməsinə mühüm töhfə verir.

Qeyd edək ki, TAP kommersiya qaz nəqlinə 2020-ci ilin dekabrında başlayıb. Boru kəməri Xəzər dənizinin Azərbaycan sektorundakı nəhəng “Şahdəniz” yatağından çıxarılan təbii qazı Avropaya çatdırır. TAP Türkiyə – Yunanıstan sərhədində TANAP boru kəmərinə birləşir, Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyanın cənubunda sahilə çıxır.

Boru kəməri perspektivli interkonnektorlar vasitəsilə Cənub-Şərqi Avropa ölkələrinə qaz tədarükünü asanlaşdıracaq. TAP-ın Yunanıstan və Albaniyadakı çıxışları, İtaliyaya uzanması ilə birlikdə Azərbaycan qazının daha geniş Avropa bazarlarına nəqli üçün çoxsaylı imkanlar yaradır. TAP Cənub Qaz Dəhlizinin əsas hissəsi kimi Avropa üçün strateji və iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edir.

Albaniyanın Korça şəhərinin qazlaşdırılmasını nəzərdə tutan “Nur” layihəsinə strateji əhəmiyyətli layihə kimi yanaşdığını vurğulayan Şeno Klosi onu da deyib ki, bu, ölkəsində qazlaşdırma sahəsində ilk pilot layihədir və Azərbaycanla əməkdaşlığı daha da inkişaf etdirməyə və genişləndirməyə imkan verəcək. SOCAR-ın iştirakı ilə həyata keçirilən Korca şəhərinin qazlaşdırılması layihəsinin ilkin mərhələsinin başa çatmaq üzrə olduğunu diqqətə çatdıran nazir müavini bununla paralel olaraq, hazırda Azərbaycan şirkəti ilə qazlaşdırmanın digər mümkün sahələrinin müzakirə edildiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, hazırda Albaniyanın inkişaf etməkdə olan turizm məkanı sayılan Vloranın da gələcəkdə “mavi yanacağa” tələbatının ödənilməsi, eləcə də qaz elektrik stansiyaları ilə bağlı bir sıra layihələr nəzərdən keçirilir.

“Nur” layihəsini Albaniya ilə Azərbaycan arasında enerji sahəsində ilk əməkdaşlıq kimi xarakterizə edən Şeno Klosi deyib ki, bundan sonra biz artıq iki ölkənin enerji sektorunda malik olduqları potensial və təcrübə mübadiləsinə əsaslanan digər layihələr üçün imkanlara baxırıq. “Artıq dediyim kimi, Azərbaycan da hazırda bərpa olunan enerji sektorunu çox sürətlə inkişaf etdirir. Albaniyada bərpaolunan enerji əsasən hidroenergetikaya əsaslanır. Amma bizim nasos stansiyaları, günəş panelləri, külək stansiyaları ilə bağlı mühüm layihələrimiz də var. İndi isə biz bu sahədə bilik və təcrübəmizi genişləndirmək üçün bu layihələrdən istifadə edirik. Çünki, artıq qeyd etdiyim kimi, bərpaolunan enerji gələcəkdir, lakin onu idarə etmək çətindir və ona görə də iki ölkənin təcrübə mübadiləsi aparması çox faydalıdır”, – deyə o əlavə edib.

Azərbaycan və Albaniya Avropa ölkələrinin enerji təchizatının diversifikasiyasında və enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan TAP layihəsinin üzvləridir. Cənub Qaz Dəhlizinin genişlənməsi, Azərbaycanın dəstəyi ilə yerli qazpaylayıcı sistemin qurulması TAP-ın Albaniya üçün faydalarını artıracaq perspektivlərdir. Korça şəhərinin qazlaşdırılması layihəsi ölkələrimiz arasında prioritet istiqamətlərdən biridir. Qaz şəbəkəsinin qurulacağı təqdirdə nəinki ölkənin enerji balansı şaxələnəcək, həm də Balkan regionunun enerji təhlükəsizliyinin gücləndirilməsində birgə iştirak şərtləndiriləcək.

**Dövlət Statistika Komitəsindən bildirilib ki, yanvar–aprel aylarında ölkədəki magistral təbii qaz kəmərləri ilə 13 milyard 893 milyon kubmetr təbii qaz nəql edilib və əvvəlki ilin eyni aylarına nisbətən 2,2 faiz azalma müşahidə olunub.**



## BTƏ qaz kəmərinin sayğacı 7 milyard kubmetri göstərir

Hesabat dövrü ərzində qaz nəqlinin 52,7 faizi Bakı–Tbilisi–Ərzurum boru kəməri vasitəsilə həyata keçirilib və bu kəmərlə təbii qaz nəqli 2,2 faiz azalaraq 7 milyard 324 milyon kubmetr təşkil edib.

Bu il Bakı – Tbilisi – Ceyhan kəməri ilə nəql olunan neftin həcmi də açıqlanıb. Bildirilib ki, yanvar – aprel aylarında respublikadakı magistral neft kəmərləri ilə nəql olunan neft 4,3 faiz azalaraq 12 milyon 233 min ton təşkil edib. Nəqletmənin 76,1 faizi Bakı –Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri (BTC) ilə həyata keçirilib və cari ilin yanvar–aprel ayları ərzində bu kəmərlə neft nəqli 3,04 faiz azalaraq 9 milyon 314,7 min ton olub.

Dövr ərzində BTC kəməri ilə nəql edilən neftin 83 faizini və ya 7731,5 min tonunu Azərbaycanda hasil edilən neft, 17 faizini və ya 1583,2 min tonunu isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil edib.

## Ceyranbatan suyu Pirallahıya axacaq

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən bildirilib ki, Bakı şəhərinin, xüsusilə Abşeron yarımadasının su təchizatını yaxşılaşdırmaq məqsədilə həyata keçirilən mühüm infrastruktur layihələrindən biri də Ceyranbatan-Abşeron-Balaxanı-Ramana-Zirə-Pirallahı magistral su kəməri və həmin kəmər boyu yerləşən mərkəzi anbarın tikintisidir.**



Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksindən layihə üzrə ayrılan yeni magistral su xəttinin inşasına Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti tərəfindən başlanılıb. Layihənin məqsədi Ceyranbatan su mənbəyindən Bakı və Abşeron ərazisinin dayanıqlı və keyfiyyətli su ilə təmin etmək və magistral boyu qəsəbələrə suyun çatdırılmasıdır.

Həmçinin layihənin icrası su təchizatında təzyiqin sabitləşməsinə, əhali sağlamlığının qorunmasına, regionun iqtisadi inkişafına, sənaye və xidmət sahələrinin inkişafına və təxminən, 100 mindən çox əhalinin keyfiyyətli su ilə təminatına şərait yaradacaq.

Yeni magistral su kəməri və həmin kəmər boyu yerləşən mərkəzi anbarın tikintisi çərçivəsində hər birinin tutumu 10 min kubmetr olan 4 ədəd su anbarının tikintisi nəzərdə tutulub. Hazırda 2 anbarın tikintisi üzrə işlər yekunlaşdırılıb, digərlərində isə tikinti-quraşdırma işləri davam etdirilir. Magistral su kəməri üzrə tikinti işləri 47 faiz tamamlanıb.

## “Aztelekom” böyüyür

**“Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi”nin (AZCON) tərkibində fəaliyyət göstərən “Aztelekom” MMC “Bakı Telefon Rabitəsi” MMC, “AzEvroTel” MMC, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi “Aztelekom” İstehsalat Birliyinin Beynəlxalq Avtomat Telefon Stansiyası, Gəncə Telekommunikasiya İdarəsi, “Azərrabitəlayihə” MMC və Sumqayıt Telekommunikasiya Qovşağının ona qoşulması nəticəsində yenidən təşkil edilib.**




“Aztelekom” MMC-dən bildirilib ki, yenidən təşkil edilmiş qurum yuxarıda adıçəkilən təşkilatların hüquqi varisi elan edilib və təsisçisi AZCON müəyyənləşdirilib.

Vahid idarəetmə mərkəzinin yaradılması inzibati proseslərin sadələşdirilməsinə, resurslardan istifadə səmərəliliyinin artırılmasına və dövlət vəsaitləri də daxil olmaqla kapital və əməliyyat xərclərinə daha çox qənaət edilməsinə imkan verəcək. Bu struktur dəyişikliyi təkrarlanan prosesləri aradan qaldıracaq, əməliyyatların daha çevik olmasına və qərarvermə prosesinin sadələşdirilməsinə zəmin yaradacaq.

İdarəetmənin yenidən təşkili alt təşkilatlarda mövcud qoşulma proseslərinin optimallaşdırılması, müştəri məmnuniyyəti və rəqəmsal əlçatanlığın da artırılması ilə nəticələnəcək. Yenidən təşkilin əsas məqsədlərindən biri də müştərilərə təqdim edilən xidmət səviyyəsi və keyfiyyətinin yüksəldilməsidir.

*Qəzənfər QASIMOV*
*XQ*



## Tallində vergi təcrübəsi mübadiləsi

**Estoniyanın paytaxtı Tallin şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) İcraiyyə Şurasının 153-cü iclası keçirilib. Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti məlumat yayıb.**

Bildirilib ki, toplantıda İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi, IOTA prezidenti Orxan Nəzərli çıxış edərək İcraiyyə Şurasının təşkilatın strateji məqsədlərinə nail olmaq istiqamətində böyük səylə çalışdığını diqqətə çatdırıb. Şuranın iclasında mühüm məsələlərin müzakirə olunduğunu vurğulayan O. Nəzərli qəbul ediləcək qərarların təşkilatın gələcək fəaliyyəti üçün strateji əhəmiyyət kəsb etdiyini bildirib.

İclasda Avropadaxili Vergi Administrasiyaları Təşkilatı tərəfindən keçirilən tədbirlər və təşkilatın fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində təşəbbüslər barədə məlumat verilib. Qurumda təmsil olunan ölkələrin birgə fəaliyyətinin əhəmiyyəti vurğulanıb, ümumi məqsədlərə və ortaq dəyərlərə töhfələri diqqətə çatdırılıb.

Toplantının davamında IOTA Katibliyi tərəfindən görülən işlər, İcraiyyə Şurasının 152-ci və 153-cü iclasları arasında fəaliyyət hesabatının layihəsi, 2024-cü ilin maliyyə hesabatının layihəsi, 2024-2025-ci illər üçün daxili auditorların hesabatı, 2024-cü il üçün IOTA strategiyasının illik icra hesabatı və 2025-ci il üçün büdcənin icrası məsələləri müzakirə edilib.

Səfər çərçivəsində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının prezidenti Orxan Nəzərli Estoniya Vergi və Gömrük Administrasiyasının baş direktoru Rayqo Ukqivi ilə görüşüb. Görüşdə iki ölkə arasında vergi inzibatçılığı sahəsində əməkdaşlıq perspektivləri və rəqəmsal həllərin tətbiqi imkanları müzakirə olunub. Tərəflər təcrübə mübadiləsinin vacibliyini vurğulayaraq birgə layihələrin həyata keçirilməsi istiqamətində razılığa gəliblər. Orxan Nəzərli estoniyalı həmkarını Avropadaxili Vergi Administrasiyaları Təşkilatının bu ilin 17–19 iyun tarixlərində Bakı şəhərində keçiriləcək Baş Assambleyasında iştiraka dəvət edib.

## Qeyri-neft sektorunda məhsul istehsalı 3,3 faiz artıb




**2025-ci ilin yanvar–aprel aylarında Azərbaycanda 39 milyard 305,8 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,9 faiz çox ümumi daxili məhsul istehsal olunub.**

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, hesabat dövründə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 3,5 faiz azalsa da, qeyri neft-qaz sektorunda 3,3 faiz artım baş verib. ÜDM istehsalının 37,3 faizi sənaye, 9,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,9 faizi tikinti, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 21,7 faizi digər sahələrin payına düşüb.

Bu dövr ərzində məhsula və idxala xalis vergilər ÜDM-in 10,3 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM isə 3 min 841,8 manata bərabər olub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Azərbaycan İƏT-in əməkdaşlıq missiyasına önəmli dəstək verir

**Gələn ay İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) sammitinin Bakıda keçirilməsi ölkəmizin beynəlxalq nüfuzunun artmasının, həmçinin regional əməkdaşlıqda oynadığı fəal və konstruktiv rolun məntiqi nəticəsidir. Bu mötəbər tədbir isə Azərbaycan ilə İƏT arasında strateji tərəfdaşlığın yeni mərhələyə qədəm qoymasına şərait yaradacaq və təşkilatın gündəliyində duran əsas məsələlərin müzakirəsi üçün mühüm platforma rolunu oynayacaq.**



Qeyd edək ki, İqtisadi Əməkdaşlıq Təşkilatı 1985-ci ildə İran, Türkiyə və Pakistan arasında regional iqtisadi əməkdaşlığı gücləndirmək məqsədilə yaradılıb. Bu təşəbbüs, əslində, 1964-cü ildən fəaliyyət göstərən Regional İnkişaf üçün Əməkdaşlıq Təşkilatının (RCD) davamı olub. 1979-cu ildə isə bu strukturun fəaliyyətinin dayanmasından sonra yeni regional mexanizmin formalaşdırılması zərurəti vurğulanıb.

Soyuq müharibədən sonrakı dövrdə geosiyasi xəritənin dəyişməsi, yeni müstəqil dövlətlərin meydana çıxması və qloballaşan iqtisadi çağırışlar regional inteqrasiyanı daha da aktuallaşdırdı. Bu baxımdan İƏT-in fəaliyyəti təkcə iqtisadi deyil, həm də nəqliyyat, enerji, ticarət, turizm, kənd təsərrüfatı və digər sahələri əhatə edən çoxşaxəli əməkdaşlıq modelinə çevrildi.

İƏT 1992-ci ildə böyük bir genişlənmə mərhələsinə qədəm qoydu. Məhz həmin il Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Tacikistan, Qırğızıstan və Əfqanıstan bu təşkilata üzv qəbul olundu. Bununla da qurumun coğrafi əhatə dairəsi Orta Asiyadan Qafqaza, Yaxın Şərqdən Cənubi Asiyaya qədər genişləndi. Belə bir genişlənmə isə həm təşkilatın gücünü artırdı, həm də fərqli iqtisadi modellərə və inkişaf səviyyələrinə malik ölkələr arasında körpü yaratdı. Nəticədə, qurum daxilində qarşılıqlı investisiya təşviqi, birgə nəqliyyat layihələri, enerji resurslarının mübadiləsi və ticarət əlaqələrinin asanlaşdırılması istiqamətində konkret addımların atılmasına başlandı.

Azərbaycan İƏT-in fəal və təşəbbüskar üzvlərindən biri kimi regional əməkdaşlıq platformalarında iştirakı daim diqqətdə saxlayıb. Respublikamızın geosiyasi mövqeyi, nəqliyyat-logistika imkanları və enerji resursları ölkəmizi İƏT üçün strateji tərəfdaşa çevirib. Bu baxımdan Bakı–Tbilisi–Qars dəmir yolu, Cənub Qaz Dəhlizi və Orta Dəhliz kimi layihələr İƏT məkanında inteqrasiyanı gücləndirən mühüm vasitələrdir.

Azərbaycan indiyədək həm də nəqliyyat dəhlizlərinin rəqəmsallaşdırılması və "yaşıl" enerji əməkdaşlığı sahəsində İƏT çərçivəsində bir sıra təşəbbüslərlə çıxış edib. 2021-ci ildə bu təşkilatın Turizm Nazirləri Şurasının Bakıda keçirilən toplantısı və 2023-cü ildə İƏT Gənclər Forumu kimi tədbirlər də Azərbaycanın quruma verdiyi əhəmiyyətin göstəriciləridir.

Gələn ay keçiriləcək Bakı Sammiti İƏT-in gündəliyində duran mühüm məsələlərin, xüsusilə də regional ticarət və nəqliyyat əlaqələrinin genişləndirilməsi, dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi və ərzaq təhlükəsizliyinin müzakirəsi baxımından olduqca əhəmiyyətlidir.

Eyni zamanda, bu sammit Azərbaycanın təşkilatda rəhbər funksiyalarını daha da gücləndirməsinə və regional təşəbbüslərinin dəstək qazanmasına imkan yaradacaq. Sammit çərçivəsində qəbul olunacaq Bakı Bəyannaməsi isə əməkdaşlıq gündəliyinə yeni nəfəs verəcək.

## EKSPERT RƏYİ

*Samir HEYDƏROV,*
*iqtisadçı ekspert*



İqtisadi Əməkdaşlıq Təşkilatının əsas məqsədi ortaq din və mentalitet birliyi olan üzv ölkələrin iqtisadi əməkdaşlığını artırmaqdır. Hazırda təşkilata 10 ölkə daxildir. Azərbaycanın təşkilata üzv ölkələrlə iqtisadi-ticari əlaqələri artan dinamika üzrə inkişaf edir. Belə ki, 2024-cü ilin göstəricilərinə görə, qardaş Türkiyə ilə iqtisadi ticarət həcmi 7,9 milyard dollardır.

Ticarət həcmi Azərbaycanın bu ölkələrlə olan toplam ticarət dövriyyəsinin 77 faizini təşkil edir. Digər ölkələrin də payı məhz qonşuluq prinsipi üzrə bölünür. Məsələn, İranla ötən ilki ticarət dövriyyəmiz 647 milyon dollar olub ki, bu da İƏT üzvləri ilə ticarət dövriyyəmizin 8,9 faizinə bərabərdir.

Ötən il Qazaxıstanla illik ticarətimiz 470 milyon dollar və ya təşkilatdaxili toplam ticarətimizin 6 faizinə bərabər olub. Digər yaxın qonşumuz Türkmənistanla illik ticarət dövriyyəmiz isə 384 milyon dollar və ya ümumi dövriyyənin 4,9 faizinə bərabərdir.

Özbəkistanla Azərbaycan arasında 2024-cü il üçün ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 40 faiz artaraq 252 milyon dollara yüksəlib. 2024-cü ildə Pakistan ilə ticarət dövriyyəmiz 22 milyon dollar, Əfqanıstanla 800 min dollar, Tacikistan ilə 7 milyon dollar, Qırğızıstan ilə 4 milyon dollar olub.

Göründüyü kimi, təşkilata üzv bir çox ölkələrlə ticarət dövriyyəmiz mövcud potensialı əks etdirmir. Buna səbəb kimi qeyd olunan ölkələrdə logistika və nəqliyyat infrastrukturunun inkişaf etməməsi, enerji sahəsində investisiyaların qıtlığı və geosiyasi risklər ola bilər. Bu ölkələr çox nadir metallarla zəngindirlər. Əfqanıstan litium, nikel, kobalt, mərmər və nadir metallarla zəngindir ki, bu gün həmin metallardan yüksək texnoloji məhsulların istehsalında istifadə olunur.

Əfqanıstan litium yataqlarına malik olmaqla hər zaman böyük güclərin diqqətini cəlb edib. Əbəs yerə bu ölkəni litiumun Səudiyyəsi adlandırmırlar. Litium bu gün litium-ion batareyalarının hazırlanmasında əsas maddə kimi istifadə olunur. Bu nadir sərvətin enerji saxlamaq qabiliyyəti var. Tacikistanda qızıl, gümüş, uran yataqları, alüminium oksid, civə və s. var. Qırğızıstan isə qızıl və gümüşlə yanaşı, polimetallarla zəngindir. Bir sözlə, region çox zəngin təbii sərvətlərə malikdir ki, bu da iqtisadi ticarət əlaqələrimizin yeni səviyyəyə yüksəlməsində nəzərə alına bilər.

Litium gələcəkdə texnologiyada, enerjidə, nəqliyyatda yanacaq kimi istifadə olunacaq. Başqa sözlə, bu, nefti əvəz edəcək. Ümumiyyətlə, litiumsuz "yaşıl" enerjiyə keçid qeyri-mümkündür. Bu gün Ukraynada müharibənin alt qatında duran əsas səbəblərdən biri litium uğrunda mübarizədir. Çünki Ukrayna Avropada ən böyük litium yataqlarına malikdir. XX əsrin əvvəlində ölkələr neft uğrunda müharibə aparırdılar, indi də savaşların litium yataqları üzərində olduğu müşahidə edilir.

Bu istiqamətdə Ələt Azad İqtisadi Zonasında Çinin BYD şirkəti ilə birgə elektrik batareyalarının istehsalı zavodunun tikintisi planlaşdırılır. Bununla da, gələcəkdə litiumun emalını əhatə etməklə istehsal zəncirində yeni bir mərhələnin əsasının qoyulması nəzərdə tutulur.

Sonda qeyd edim ki, Azərbaycan regional iqtisadi əməkdaşlığın dərinləşməsində maraqlıdır. Burada xüsusilə Prezident İlham Əliyevin uğurlu xarici diplomatiyasının mühüm istiqamətlərindən biri olan mehriban qonşuluq siyasətinin nəticələrini qeyd etmək lazımdır. Gələn ay keçiriləcək sammitdə də bu məsələlər müzakirə olunacaq və əməkdaşlığın yeni mərhələyə keçməsi üçün vacib məsələlərin həlli istiqamətində mühüm addımlar atılacaq.

# Aqrar sektor 1,8 faiz böyüyüb

## *4 ayda 2,3 milyard manatlıq məhsul istehsal olunub*

**Azərbaycan iqtisadiyyatının aparıcı sahələrindən sayılan kənd təsərrüfatının modernləşdirilməsi, problemlərin həllinə sistemli və kompleks yanaşılması, dövlətin maliyyə resurslarından səmərəli istifadə olunması müsbət nəticələr verir. Prezident İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısı, eləcə də dövlətin həyata keçirdiyi ünvanlı, konkret hədəflərə yönələn stimullaşdırıcı tədbirlər aqrar sektorda təşəbbüskarlığa geniş meydan açır. Bu da ölkədə bitkiçilik və heyvandarlıq məhsullarının istehsalına, ümumi ixracda kənd təsərrüfatı mallarının payının artmasına səbəb olur.**



Aqrar sektorda müşahidə olunan müsbət dinamika 2025-ci ilin ötən dövründə də davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-aprel aylarında ölkəmizdə 2 milyard 345 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal edilib. Bu isə əvvəlki ilin eyni dövrünə nisbətən 1,8 faiz artım çoxdur.

Hesabat dövründə ölkə üzrə 194 milyon manat bitkiçilik məhsulları istehsal olunub ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 9,3 faiz çoxdur. Bitkiçilk məhsullarından tərəvəz istehsalında daha çox artım qeydə alınıb. Belə ki, ilin 4 ayında təsərrüftlarda 147,7 min ton tərəvəz istehsal olunub. Bu isə ötən ilin ilk 4 ayı ilə müqayisədə 12,4 faiz artıqdır. Bununla yanaşı, hesabat dövründə kartof istehsalı 2,1 faiz artaraq 52 min tona çatdırılıb.

Cari ilin yanvar-aprel aylarında kənd təsərrüfatının heyvandarlıq sahəsində əldə olunmuş nəticəni də qənaətbəxş hesab etmək olar. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ilin ilk 4 ayında ölkə üzrə 2 milyard 151 milyon manatlıq heyvandarlıq məhsulları istehsal olunub ki, bu da əvvəlki ilin müvafiq dövründəkindən 1,1 faiz çoxdur. Mühüm növ heyvandarlıq məhsullarına gəldikdə isə, yanvar-aprel aylarında diri çəkidə 192,3 min ton ət, 701,9 min ton süd, 798,1 milyon ədəd yumurta və 1,9 min ton yun istehsal edilib. Ötən ilin yanvar-aprel ayları ilə müqayisədə yumurta istehsalı 4,4 faiz, ət istehsalı 1,2 faiz artıb. Bununla belə, süd istehsalı eyni səviyyədə qalsa da, yun istehsalı 4,6 faiz azalıb.

# Dəmiryolunda sərnişindaşıma artıb

**2025-ci ilin yanvar-aprel aylarında "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən 2 milyon 979 min 167 sərnişin daşınıb. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 412 min 949 sərnişin və ya 16,1 faiz çoxdur. "Azərbaycan Dəmir Yolları" QSC-nin məlumatına görə, yanvar-aprel aylarında Abşeron dairəvi marşrutu üzrə qatarlarla 2 milyon 820 min 738 sərnişin daşınıb ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 373 min 168 sərnişin və ya 15,2 faiz artım deməkdir.**



Hesabat dövründə Bakı – Ağstafa – Bakı marşrutu üzrə 123 min 89 sərnişin daşınıb. Bu marşrutla sərnişin daşınması əvvəlki ilin eyni dövrü ilə müqayisədə 18 min 849 nəfər və ya 18,1 faiz artıb. İlin ilk dörd ayında Bakı – Qəbələ – Bakı marşrutu üzrə 11 min 909 sərnişin daşınıb ki, bu da ötən ilin eyni dövrünə nisbətən 17,3 faiz azdır. Bu müddətdə Bakı – Balakən – Bakı marşrutu üzrə isə 23 min 431 sərnişin daşınıb.

Cari ilin ilk 4 ayında ölkəmizə gəlmiş xarici turistlərin 8 min 281 nəfəri regionlara səfərlərini qatarlarla həyata keçiriblər. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2 min 35 sərnişin və ya 33 faiz artım deməkdir.

# "Araz vadisi" yüksəliş vadisinə çevrilir

## *İqtisadi zonaya 35 milyon manatdan çox investisiya yatırılıb*



**İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib ki, logistik imkanlar baxımından əlverişli ərazidə yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında hazırda investisiya portfeli 130 milyon manata yaxın olan 16 sahibkarlıq subyekti rezident, 3 sahibkar isə qeyri-rezident kimi qeydiyyata alınıb. Bu sahibkarlıq subyektləri tərəfindən sənaye parkında, ümumilikdə, 1800-ə yaxın daimi iş yerinin yaradılması nəzərdə tutulub.**

İndiyədək sənaye parkında görülmüş işlərə sahibkarlar tərəfindən 35 milyon manatdan çox investisiya yatırılıb, 100-ə yaxın daimi iş yeri yaradılıb. 200 hektar ərazini əhatə edən parkın 30 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib. Hazırda parkda 2 müəssisənin səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb. Sənaye parkında sahibkarlar tərəfindən bugünədək 1,7 milyon manatlıq məhsul satışı və xidmətlər göstərilib.

Bundan başqa, parkda hazırda 5-dən çox müəssisənin tikintisi istiqamətində işlər görülür. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına sahibkarlar tərəfindən 35 milyon manatdan çox investisiya yatırılıb, 100-ə yaxın daimi iş yeri yaradılıb.

Qeyd edək ki, Pakistan kapitallı "Azerbaijan Rice Processing Mill" MMC-yə İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidentliyi statusu verilib. Bildirilib ki, şirkət tərəfindən sənaye parkının ərazisində "Düyü emalı" layihəsinin həyata keçiriləcəyi planlaşdırılıb.

# Laçında kiçik SES-lərin gur işığı



**İşğaldan azad olunmuş ərazilərimizdə yerləşən dağ çaylarının üzərində qurulmuş kiçik su elektrik stansiyalarının enerjisistemə töhfəsi getdikcə artır. Bu baxımdan Laçın rayonundakı "Zabux" və "Qarıqışlaq" kiçik su elektrik stansiyalarının fəaliyyəti diqqət çəkir.**

Energetika Nazirliyinin sözügedən enerji obyektlərinin fəaliyyəti ilə bağlı yaydığı məlumat da bunu təsdiqləyir. Məlumatda bildirilir ki, istismara başladığı dövrdən bu il mayın 1-dək "Zabux" kiçik su elektrik stansiyasında 11,6 milyon kilovat-saat, "Qarıqışlaq"da isə 9,4 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

Xatırladaq ki, Laçın rayonunda Həkəri çayının sağ qolu olan Zabux çayının üzərində yerləşən "Zabux" və "Qarıqışlaq" kiçik su elektrik stansiyaları 2024-cü il mayın 10-da istismara verilib. Ümumi gücü 2,8 meqavat təşkil edən "Zabux" stansiyasında hər biri 0,7 meqavat gücündə olan 4 hidroaqreqat quraşdırılıb. "Qarıqışlaq" stansiyası isə ümumi gücü 4 meqavat olmaqla 1 hidroaqreqatdan ibarətdir.

Hazırda ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsalının həyata keçirildiyi hər iki stansiyadan ətraf mühitə istixana effekti yaradan qazlar atılmır.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 153** **Bakı şəhəri, 8 may 2025-ci il**

**"Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Ovçuluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 43-VIIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 noyabr tarixli 228 nömrəli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Ovçuluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 43-VIIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 noyabr tarixli 228 nömrəli Fərmanının icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti **qərara alır:**

**1** "Azərbaycan Respublikasında balıqçılıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 sentyabr tarixli 146 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 9, maddə 556 (Cild I); 2024, № 2, maddə 208; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 aprel tarixli 95 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə "növləri, dərəcələri" sözləri "məbləği" sözü ilə, "cərimələr" sözü "görə təbiətə dəymiş ziyan" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Balıq və digər su bioresurslarından istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və balıq və digər su bioresurslarının qeyri-qanuni ovuna cərimələr" üzrə:

1.2.1. adında "növləri, dərəcələri" sözləri "məbləği" sözü ilə, "cərimələr" sözü "görə təbiətə dəymiş ziyan" sözləri ilə əvəz edilsin;

1.2.2. 3-cü hissədə "cərimələr" sözü "görə təbiətə dəymiş ziyan" sözləri ilə əvəz edilsin;

1.2.3. 4-cü hissə üzrə:

1.2.3.1. mətndə "növləri və dərəcələri," sözləri "məbləği" sözü ilə əvəz edilsin;

1.2.3.2. cədvəldə "dərəcələri" sözü "əmsalları" sözü ilə əvəz edilsin;

1.2.4. 5-ci hissə üzrə:

1.2.4.1. üçüncü abzasda "dərəcədir" sözü "əmsaldır" sözü ilə əvəz edilsin;

1.2.4.2. dördüncü abzasda "(limiti, kvotası)" sözləri "(kvotası)" sözü ilə əvəz edilsin;

1.2.5. 10-cu hissənin cədvəlinin on dördüncü sətrində "bioresursları üçün cərimələr" sözləri "bioresurslarına görə təbiətə dəymiş ziyan" sözləri ilə əvəz edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasında balıq və digər su bioresurslarından istifadə haqqı və qaydaları" üzrə:

1.3.1. 2-ci hissə üzrə:

1.3.1.1. birinci abzasda "limitlər (kvotalar)" sözləri "kvotalar" sözü ilə əvəz edilsin;

1.3.1.2. ikinci abzasda "(limiti, kvotası)" sözləri "(kvotası)" sözü ilə əvəz edilsin;

1.3.2. 5-ci hissənin altıncı abzasında "(limiti, kvotası)" sözləri "(kvotası)" sözü ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 22 fevral tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 119 (Cild I) ilə təsdiq edilmiş "Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1-1-ci bənd əlavə edilsin:

"3.1-1. qeyri-qanuni heyvan ovuna görə təbiətə dəymiş ziyan;".

**3.** "Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi qaydaları", "Heyvanlar aləmindən istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni heyvan ovuna cərimələr" və "Heyvanlar aləmi obyektlərindən istifadəyə görə ödənişlərin və qeyri-qanuni vəhşi heyvan ovuna görə cərimələrin istifadəsinə dair Təlimat"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 176 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 964 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında və 1-ci hissədə "növləri, dərəcələri" sözləri "məbləği" sözü ilə "cərimələr" sözü "görə təbiətə dəymiş ziyanın məbləği" sözləri ilə, "cərimələrin" sözü "təbiətə dəymiş ziyanın məbləğinin" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Heyvanlar aləmindən istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni heyvan ovuna CƏRİMƏLƏR" üzrə:

3.2.1. adında "növləri, dərəcələri" sözləri "məbləği" sözü ilə, "CƏRİMƏLƏR" sözü "görə təbiətə dəymiş ziyanın məbləği" sözləri ilə əvəz edilsin;

3.2.2. 1.3-cü bənddə "növləri dərəcələri" sözləri "məbləği" sözü ilə, "cərimələr" sözü "görə təbiətə dəymiş ziyan" sözləri ilə əvəz edilsin;

3.2.3. II hissənin adında "NÖVLƏRİ VƏ DƏRƏCƏLƏRİ" sözləri "MƏBLƏĞİ" sözü ilə əvəz edilsin;

3.2.4. 2.1-ci bənddə "növləri və dərəcələri" sözləri "məbləği" sözü ilə əvəz edilsin;

3.2.5. III hissənin adında "OVU ÜÇÜN TƏBİƏTƏ DƏYMİŞ ZİYANA GÖRƏ TƏTBİQ EDİLƏN CƏRİMƏLƏR" sözləri " OVUNA GÖRƏ TƏBİƏTƏ DƏYMİŞ ZİYANIN MƏBLƏĞLƏRİ" sözləri ilə əvəz edilsin;

3.2.6. 3.1-ci bənddə "ovu üçün təbiətə dəymiş ziyana görə cərimələr" sözləri "ovuna görə təbiətə dəymiş ziyanın məbləği" sözləri ilə əvəz edilsin;

3.2.7. 3.2-ci və 3.3-cü bəndlərdə "ziyana görə cərimələr" sözləri "ziyanın məbləği" sözləri ilə əvəz edilsin;

3.2.8. 3.4-cü və 3.7-ci bəndlərdə "cərimələr" sözü "təbiətə dəymiş ziyanın məbləği" sözləri ilə əvəz edilsin;

3.2.9. 3.5-ci bənddə "ovu üçün təbiətə dəymiş ziyana görə cərimələr" sözləri "ovuna görə təbiətə dəymiş ziyanın məbləği" sözləri ilə əvəz edilsin;

3.2.10. 3.6-cı bənddə "cərimələr" sözü "təbiətə dəymiş ziyanın məbləği" sözləri ilə əvəz edilsin;

3.2.11. 3.7-ci bəndə "ödəmələr" sözündən sonra "(balıq və digər su bioresurslarından istifadəyə görə ödəmələr istisna olmaqla)" sözləri əlavə edilsin;

3.3. həmin Qərarla təsdiq edilmiş "Heyvanlar aləmi obyektlərindən istifadəyə görə ödənişlərin və qeyri-qanuni vəhşi heyvan ovuna görə cərimələrin istifadəsinə dair Təlimat" üzrə:

3.3.1. adında "cərimələrin" sözü "təbiətə dəymiş ziyanın məbləğinin" sözləri ilə əvəz edilsin;

3.3.2. 1-ci və 2-ci hissələrdə "cərimələrdən" sözü "təbiətə dəymiş ziyanın məbləğindən" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 12 iyul tarixli 134 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 667 (Cild I) ilə təsdiq edilmiş "Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondlarının və vəsaitlərinin yaradılması və onlardan istifadə Qaydası"nın 3-cü hissəsinin "d" bəndi "e" bəndi hesab edilsin və aşağıdakı məzmunda "d" bəndi əlavə edilsin:

"d) heyvanlar aləminin obyektlərindən istifadəyə görə ödəmələrin (balıq və digər su bioresurslarından istifadəyə görə ödəmələr istisna olmaqla) və qeyri-qanuni vəhşi heyvan ovuna görə təbiətə dəymiş ziyanın məbləğinin;".

**5** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 2 iyun tarixli 243 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1220 (Cild I); 2024, № 3, maddə 331, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Balıq və digər su bioresursları ovunun Qaydaları"nın 1.7-ci bəndinin ikinci cümləsində "növləri, dərəcələri" sözləri "məbləği" sözü ilə əvəz edilsin.

**6** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 iyun tarixli 256 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1231 (Cild I); 2024, № 1, maddə 116, № 3, maddə 331) ilə təsdiq edilmiş "Akvakulturanın həyata keçirilməsi Qaydası"nın 4.6-cı bəndinin birinci cümləsində "növləri, dərəcələri" sözləri "məbləği" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 154** **Bakı şəhəri, 8 may 2025-ci il**

**"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bir sıra qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 46-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bir sıra qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 46-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2008, № 2, maddə 134 (Cild I); 2024, № 1, maddə 81, № 5 (II kitab), maddə 594, № 9, maddə 1067, № 11, maddə 1246) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin 77-ci maddəsinin beşinci abzasının birinci cümləsində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

**2** "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti üçün ərzaq payı normalarının və xidməti heyvanların yemləmə normalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 yanvar tarixli 2 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 82; 2025, № 2, maddə 187) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 9 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ümumqoşunları və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sıravi və rəis heyəti üçün quru ərzaq payı Normaları"nın "Qeydlər" hissəsinin 2-ci bəndinin ikinci cümləsində "ərzaqların" sözü "qida məhsullarının" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 10 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sıravi və rəis heyətinin ərzaq payları verilərkən məhsulların əvəz olunması Normaları"nda hər iki halda "ərzaq xidməti" sözləri "ərzaq (qida) xidməti" sözləri ilə əvəz edilsin;

2.3. həmin Qərarla təsdiq edilmiş 11 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sıravi və rəis heyətinə müalicə ərzaq payları verilərkən məhsulların əvəz olunması Normaları"nın cədvəlinin 7-ci hissəsində "ərzaqları" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin.

**3.** "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Nizamnaməsi"nin və "Heydər Əliyev adına Hərbi Liseyin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 4 avqust tarixli 274 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 960 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Nizamnaməsi"nin 1.6-cı və 11.4-cü bəndlərində "ərzaq" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Heydər Əliyev adına Hərbi Liseyin Nizamnaməsi"nin 1.6-cı və 11.4-cü bəndlərində "ərzaq" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin.

**4.** "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində Bakı Hərbi Kollecinin, Gəncə Hərbi Kollecinin və Naxçıvan Hərbi Kollecinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 may tarixli 272 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 609; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 aprel tarixli 97 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Bakı Hərbi Kollecinin Nizamnaməsi"nin 7.19-cu bəndində "ərzaq" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Gəncə Hərbi Kollecinin Nizamnaməsi"nin 7.19-cu bəndində "ərzaq" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin;

4.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Naxçıvan Hərbi Kollecinin Nizamnaməsi"nin 7.19-cu bəndində "ərzaq" sözü "qida məhsulları" sözləri ilə əvəz edilsin.

**5** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 14 iyun tarixli 303 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 723, № 11, maddə 1255) ilə təsdiq edilmiş "Müdafiə və ya dövlət təhlükəsizliyi ehtiyaclarının meyarları və onlarla bağlı satınalmaların keçirilməsi Qaydası"nın 3.2.5-ci və 13.3.9-cu yarımbəndlərində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 156** **Bakı şəhəri, 12 may 2025-ci il**

**"İşçilərin əmək kitabçasının forması və onun doldurulması Qaydaları"nın təsdiq edilməsi və "İşçilərin əmək kitabçasının forması və onun tərtibi qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 26 dekabr tarixli 186 nömrəli Qərarının ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının 2-ci hissəsinin dördüncü abzasına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "İşçilərin əmək kitabçasının forması və onun doldurulması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2** "İşçilərin əmək kitabçasının forması və onun tərtibi qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 26 dekabr tarixli 186 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 9, maddə 1090) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 158** **Bakı şəhəri, 13 may 2025-ci il**

**"Qeyri-rezident fiziki şəxslərin akkreditasiyadan keçirilməsi qaydası və həmin şəxslərə dair tələblər"in təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2443 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Qeyri-rezident fiziki şəxslərin akkreditasiyadan keçirilməsi qaydası və həmin şəxslərə dair tələblər" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 159** **Bakı şəhəri, 15 may 2025-ci il**

**"Təhlükə potensiallı obyektlərin Siyahısı"nın təsdiq edilməsi və "Təhlükə potensiallı obyektlərin Siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 10 may tarixli 94 nömrəli Qərarının ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Texniki təhlükəsizlik haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 347 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** "Təhlükə potensiallı obyektlərin Siyahısı" təsdiq edilsin (əlavə olunur).

**2** "Təhlükə potensiallı obyektlərin Siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 10 may tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 5, maddə 344 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 160** **Bakı şəhəri, 16 may 2025-ci il**

**"Göytəpə şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Göytəpə şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**



# Azərbaycan Britaniya Kral Atçılıq Şousunda

**Birləşmiş Krallıqda ənənəvi olaraq təşkil edilən "Vindzor Kral Atçılıq Şousu - 2025" start götürüb. Ölkəmiz Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə ilk dəfə olaraq 130 nəfərlik nümayəndə heyəti ilə bu təntənədə təmsil olunur.**

Bu ilin ən möhtəşəm çıxışlarından "Azerbaijan - Land of Fire" şou-kompozisiyasında çılğınlığı və gözəlliyi ilə seçilən Qarabağ atları, zərif Azərbaycan rəqsləri, ecazkar milli musiqimiz və 2025-ci il üçün yeni olan orkestrin çıxışları nümayiş etdirilib.

Dövlət Sərhəd Xidmətinin rəqs ansamblı və süvarilər dəstəsi 20 Qarabağ atı ilə ölkəmizi növbəti dəfə yüksək səviyyədə təmsil edərək tamaşaçıların böyük rəğbətini qazanıb. Şou-kompozisiyanın rəhbəri, Əməkdar artist Gövhər Həsənzadə, quruluşçu rejissoru və xoreoqrafı Dövlət Sərhəd Xidmətinin əməkdaşı, Əməkdar artist Fərid İbrahimov, süvarilər dəstəsinin məşqçisi, baş təlimatçı İmran Əhmədli, Nümunəvi Hərbi Orkestrin baş dirijoru, Əməkdar artist Səməd Vəkilov-dur.

Günün sonunda Vindzor qəsrində qonaqların şərəfinə təşkil olunmuş rəsmi ziyafətdə Əməkdar artist Afaq Abbasova-Budaqova və Səadət İsmayılova incə zövqlə seçilən piano ifaları ilə gecəyə xüsusi rəng qatıblar.

**XQ**

# Milli mətbuatımız sovet epoxasının iflası və milli azadlıq hərəkatı dövründə

**Milli dirçəliş və milli əhvalın yüksəlməsinin təntənəsi idi ki, Topxanada bir ağacın kəsilməsi haqqında xəbər xalqı Azadlıq (onda Lenin) meydanına toplaya bilmişdi və hərəkat xalq birliyinin nələrə qadir olduğunu göstərdi. Amma sütunları laxlayan imperiya heç də 70 ildə qazandıqlarını asanlıqla əldən vermək niyyətində deyildi. 1990-cı ilin qanlı 20 Yanvarı da keçmiş SSRİ rəhbərliyinin Azərbaycanla bağlı apardığı siyasətin təzahürü idi.**


XALQ qəzeti
Əsası 1919-cu ildə qoyulmuşdur
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
QIYMƏTİ 2 MANAT
һејдәр Әлијевин сәнајечиләри илә
ХАЛГЫН БИРЛИЈИ МУСТӘГИЛЛИЈИМИЗИ МӨҺКӘМЛӘТМӘЈИН РӘҺНИДИР

Həmin gecə sovet ordusu, Ermənistanın təcavüzündən və SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq etirazını bildirən xalq kütlələrinə qarşı hərbi əməliyyatlara başladı. Millət vəkili Cavanşir Feyziyev hələ illər əvvəl “Xalq qəzeti”ndə dərc olunmuş “20 Yanvar–əsarətin son gecəsi” məqaləsində yazırdı: “Soyuq 20 Yanvar səhəri açılmağa macal tapmamış bəşər tarixinin insanlığa sığmayan ən faciəvi hadisələrindən biri – Bakı küçələrində dinc nümayişçilərin gülləbaranı baş verdi. Azərbaycana, nəyin bahasına olursa-olsun, milli mücadiləni boğmaq və yatırtmaq məqsədi ilə yeridilən rus qoşunları Bakıda və respublikanın müxtəlif rayonlarında 146 nəfər mülki şəxsi küçələrdə, evlərində, avtomobillərində, iş yerlərində qətlə yetirdi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu”.

Yanvarın 19-da hərbi əməliyyatın ilkin mərhələsi kimi Azərbaycan Televiziyasının enerji bloku partladılmış, respublika Televiziyası və Radiosunun verilişləri tamamilə kəsilmişdi. Kütləvi informasiya vasitələrinin fəaliyyəti dayandırılmış, xalq informasiya almaq hüququndan məhrum edilmişdi. Dövlətin rəsmi orqanı olan "Kommunist” qəzetinin növbəti sayı 18 yanvardan sonra bir də 27 yanvar 1990-cı ildə nəşr olunmuşdu. Qəzet doqquz gün çap edilməmiş, bu müddətdə 20 Yanvar faciəsi barədə xalqa heç bir rəsmi məlumat verilməmişdi.

Faciənin miqyası ilə bağlı ilk xəbər verən “Kommunist” qəzetinin əlavəsi "Səhər” qəzeti idi. Baş redaktorun müavini olan mərhum Məzahir Süleymanzadə yazırdı: “Kommunist” qəzetinin kağız ehtiyatından yararlanmaqla 2 milyon tirajla nəşr olunan “Səhər” dinc əhaliyə açılan atəşləri, uşaqların, qadınların və yaşlıların meyitləri əks olunmuş fotoları dərc etməklə əhalini informasiya blokadasından azad etdi”.

Amma milli mücadilənin girdabında boğulan SSRİ inhisarçı siyasətindən əl çəkməmiş və onun tabeliyində olan mətbuat, o cümlədən “Kommunist” qəzeti də 1990-cı ilin iyulunda çağırılan Sov.İKP-nin XXVIII qurultayının yeni “ideallarını” cəmiyyətə təqdim edirdi. Şübhəsiz ki, qurultaya həvəslə gedən Azərbaycan kommunistləri bu kimi “idealları” dəstəkləməkdə olsalar da, baş verənlərə etirazlarını da gizlətmirdilər. Hətta qurultay nümayəndəsi Zemfira Verdiyevanın qəzetdə dərc edilən çıxışında “...prezident hakimiyyətini təsis etmək ideyasını irəli sürəndə bunu onunla əsaslandırdılar ki, yeni hakimiyyət formasına daha böyük dinamik qətiyyət, operativlik vermək lazımdır. Qonşu respublikada (Ermənistan) qəsbkarlıq niyyətləri güdən, konstitusiyaya zidd ordu təşkil edilməsini necə başa düşmək olar?! Ölkənin hər hansı sakini cib bıçağı üstündə soyuq silah gəzdirmək adı ilə məhkum edildiyi halda bu terrorcu təşkilatın gücü və qüdrəti mərkəzi televiziya ilə nümayiş etdirilir, hətta bəzi qəzetlərdə tərifl ənir” deyə bildirirdi. “Kommunist” qəzetinin qurultayın gedişindən materiallar hazırlamaq üçün Moskvaya ezamiyyətə göndərilmiş müxbiri Elman Qədirov isə “Kremlin təzadları” məqaləsində yazırdı: “Qurultay qalın meşədə kompassız hərəkət edən yolçuya bənzəyir. Gah işıq gələn tərəfə gedir, gah tüstü çıxan tərəfə. Düzgün yol isə hələ tapılmayıb”.

Azərbaycan Kommunist Partiyasının yeniləşdirilməsi yolu ilə respublikanın siyasi və iqtisadi inkişafının yeni səviyyəyə yüksəldilməsini “təmin edəcək” Azərbaycan kommunistlərinin XXXII qurultayı, Sov.İKP qurultayının yekunları və respublika partiya təşkilatının təxirəsalınmaz vəzifələrindən danışan Azərbaycan KP MK-nın birinci katibi A.Mütəllibovun çıxışı Sov.İKP nizamnaməsinə sadiqlik nümayiş etdirməkdə idi. Amma qəzetin dərc etdiyi bəzi məqalələrin məzmununa diqqət edəndə tam başqa mənzərəyə də şahidlik edirik. Bu sırada kommunist rejiminin tədqiqatçısı, uzun illər rəhbər vəzifələrdə çalışmış tarix elmləri doktoru Kamran Rəhimovun “Yenidənqurmanın dialektikası” məqaləsi diqqət çəkir: “Bəzən bizi işin düz getməməsində, cəsarətsizlikdə, ikili mənəviyyatda təqsirləndirirlər. Əlbəttə, söhbət kimin haqlı, kimin haqsız olduğundan getmir. Onu demək lazımdır ki, onillərlə biz yalan və qorxu şəraitində yaşamışıq. Sosializm haqqında Lenin nəzəriyyəsinə yenidən baxılmalıdır”.

Göründüyu kimi, günün “yenidənqurmasına və yeniləşməsinə” bəraət qazandırmaq niyyəti ilə kommunist rejiminin dünəninə qiymət verən kommunist müəlliflər bəzən bilərəkdən, bəzən də bilməyərəkdən rejimin mahiyyətini ortaya qoyurlar. Bu kimi yazılarla yanaşı, milli ruhun və milli tarixin yüksəlişini təbliğ edən, tariximizin şərəfli səhifələrini gündəmə gətirən və mətbuada dərc edilən məqalə və yazıların sayı da onlarca olmuşdur. “Azərinform”un böyük qardaşı”, “Azərbaycan Demokratik Respublikası”, “Demokratik respublikaya həsr edilir”, “Təkamül” qəzetinin baş redaktoru, “Beş hürriyyət”, “Xatirə lövhəsi açılmışdır. Respublika Azərbaycan milli dövlət quruluşunun dirçəliş gününü bayram edir”, “Böyük Əkinçi. Yaxud unudulmuş Həsən bəy Zərdabi”, “Tağıyev H.Z.: sahibkar, mesenat. Tarix elmləri doktoru Marat Allahverdiyevin kitabı haqqında”, “Azərbaycan xanlıqları. Dəyirmi masa”, “Folklorumuzun fədailəri”, “Orta əsr Azərbaycan dövlətləri. Dəyirmi masa” və s. Milli tariximiz haqqında olan bu yazılar nəşrinə uzun illər çox möhkəm qadağalar qoyulduğu mövzulardandır. Əslində, onların məzmun və mənasına, bir də müəlliflərin kimliyinə diqqət edəndə görünür ki, xalqın ziyalıları çox şeyləri bilirmiş. Sadəcə, həqiqətlərin söylənməsi mümkün olmayıb, olanlar da ciddi senzura nəticəsində həyata vəsiqə ala bilməmişdir.

Milli mücadilənin güclənməsi Azərbaycan mətbuatında daha çox Türkiyə ilə əlaqəli yazıların artımı ilə də müşayiət olunmaqda, bu mövzu bir nömrəli məsələ kimi diqqəti cəlb etməkdə idi. Müstəqilliyimizin tarixi boyu olduğu kimi, bu dövrdə də türkdilli ölkələrin kütləvi informasiya vasitələrinin apardığı araşdırmalar adət-ənənələrimiz və müştərək tariximiz haqqında bilgilərimizin genişləndirilməsində və türk dünyasının inteqrasiya yollarının axtarılıb tapılmasında mühüm rol oynayırdı.




Bu dövrdə mətbuat yeni mövzular ortaya qoysa da, hələ də bütün nəşrlər dövlətə bağlı idi, yəni nəşr olunan qəzet və jurnallar mütləq mənada hansısa bir dövlət təşkilatının nəşri kimi təqdim olunurdu. O, başqa məsələ idi ki, bu nəşrlərdə yeni əhval-ruhiyyənin, milli çağırışların yer tapması həm dövrün tələbi, həm də vətənpərvərlik mövqeyindən yeni idi. Deyək ki, “Gənclik-Molodost” (baş redaktor Məmməd İsmayıl) respublika komsomolunun jurnalı olsa da, ətrafında yeni dövrün havası ilə yüklənmiş, milli ruhlu müəllifləri toplamaqla, həm də cəmiyyətin aparıcı gücü olan böyük bir gənclik ordusunu birləşdirməkdə idi. Yaxud “Vətən” cəmiyyətinin nəşri olan “Odlar yurdu” qəzeti (redaktor Ramiz Əskər) dünya azərbaycanlılarının birliyinə dair ciddi çağırışlar səsləndirməkdə idi. Bu kimi meyillər partiya-sovet mətbuatının dəst-xəttində və mövzu seçimində də özünü göstərirdi.

Bu baxımdan ölkənin baş mətbu orqanı “Kommunist” qəzetinin müstəqillik ərəfəsində nəşr olunan saylarında Türkiyə mövzusu aktuallıq baxımından diqqəti cəlb etdiyi kimi, həm də xarici ölkə həyatından dərc edilən məqalələr sırasında say etibarı ilə ən çox diqqət çəkənidir. Az bir zaman kəsiyində bu mövzuda dərc edilən yazıların sayı belə kifayət qədərdir: iki ildə (1990 və 1991-ci illər) 345 yazı. Mövzu və janr rəngarəngliyi ilə seçilən bu yazılar təkcə statistikası ilə yox, həm də müəlliflərin duyğu və düşüncələrinin türk dünyasına məhəbbət və doğmalığı ilə maraq oyada bilir.

Qardaş Türkiyənin adının keçdiyi və mətbuatda dərc edilən bu yazılar, janrından, üslubundan, mövzusundan asılı olmayaraq, uzun illər ayrı düşmüş xalqlarımızın milli mədəni bağlılıqlarını ortaya qoyan nümunələrdir. Bu yazılarda təkcə ayrı-ayrı fərdlərin yox, yaşından və zümrəsindən asılı olmayaraq, bütün xalqın, eləcə də müstəqillik mücadiləsinə qalxan insanların (əslində, o vaxtlar buna inananlar çox az idi), daha çox xalqlarımızın doğma münasibətlərinin ifadəsi və tərənnümü hiss olunmaqdadır. Əslində, mətbuatın yaratdığı bu mənəvi körpü gələcək əlaqələrin qurulmasında təməl kimi də qəbul edilə bilər. Ola bilsin ki, hansısa bir məsələdə o dövrkü hakimiyyətin mövqeyində xalqın fikirləri ilə müəyyən ayrılıqlar olsun və sonralar göründü ki, bu, var idi. Amma Türkiyə ilə bağlı elə də ciddi və prinsipial mövqe nümayişi olmadığından heç vaxt gündəmə təsir etməmişdir.

Azərbaycanın SSRİ-nin tərkibində olduğu illərdə Türkiyənin dövlət və hökumət adamlarının Moskvaya rəsmi səfərləri çərçivəsində, birmənalı olaraq, Azərbaycana səfərlər də planlaşdırılmış və demək olar ki, bu səfərlər uğurla baş tutmuşdur. Keçən əsrin 60-cı illərindən başlayan bu səfərlərdə Bakı ziyarətləri də önəmli yer tutmaqla, təkcə ümumittifaq deyil, eləcə də respublika mətbuatının işıqlandırdığı mövzulardan olmuşdur. Düzdür, respublika mətbuatı və onun baş orqanı olan “Kommunist” qəzeti bu məsələləri müəyyən qadağa və hədlər çərçivəsində işıqlandırsa da, hər halda, rəsmi xarakterli bu təqdimatların özündə belə qardaşlıq münasibətlərindən doğan mənəvi bağlılıqları asanca görmək olur. Azərbaycanın müstəqilliyi ərəfəsində isə münasibətlərdə daha ciddi yaxınlaşmalara və əlaqələrin genişlənməsinə şahidlik edirik. Türkiyənin Moskvadakı fövqəladə və səlahiyyətli səfiri V.Vuralın 16 yanvar 1991-ci ildə, ardınca Türkiyə prezidenti Turqut Özalın 13 mart 1991-ci ildə Moskva, sonra da Bakı səfərləri və Bakıda Türkiyə konsulluğunun fəaliyyətə başlaması, baş konsulun Azərbaycanın dövlət başçısı tərəfindən qəbulu Azərbaycan–Türkiyə münasibətlərində yeni mərhələnin başlandığının müjdələri idi. Göründüyu kimi, artıq bu məsələ dövlətlərarası münasibətlərdə də özünü göstərir və siyasi dairələrin gündəmini müəyyən edirdi. Çox sonralar eks-prezident Ayaz Mütəllibov Türkiyəyə ilk səfərini xatırlayaraq deyirdi: “Bəxtiyar da (Bəxtiyar Vahabzadə ) məni müşayiət edən böyük nümayəndə heyətinin tərkibində idi. Bizim heyətin hərarətlə qarşılanmasından təsirlənən şair dedi: "Kaş biz öz müstəqil dövlətimizi təmsil edəydik". Cavab verdim ki, darıxma, gün gələr, bunu da görərik! O vaxt mən Nazirlər Kabinetinin sədri idim”.

Artıq zaman yeni hökmlərini diktə etməkdə, bu sırada isə Sovetlər birliyinin yaxınlaşan süqutu görünməkdə idi. Amma Azərbaycana, eləcə də SSRİ tərkibində olan digər türk respublikalarına milli münasibətlərin və onların gələcək müqəddəratlarının təyinində dəstəyin gözləniləndən aşağı səviyyədə olması da diqqəti cəlb edirdi. Bu, əslində, ölkədəki millətçilərin önəmli mövqeyi olsa da, Turqut Özal Türkiyəsi daha çox iqtisadi, ticari və mədəni əlaqələrin qurulmasına, dövlətlərarası münasibətlərin bu yöndə inkişaf etdirilməsinə çalışırdı. Burada, təbii ki, NATO üzvü olan bir dövlətin başqa istiqamətdə siyasət aparmasını gözləmək də reallıqlara sığası fakt deyildi. Amma maraqlıdır ki, istər Türkiyədəki bəzi millətçi qüvvələr, istərsə də bu qüvvələrin dəstəyinə arxalanan və ondan ruhlanan xalq kütlələri bu dəstəyi ummaqda idi. Bütün bu reallıqları xarakterizə etməyə çalışan tədqiqatçı Fərqanə Hüseynova Azərbaycan–Türkiyə əlaqələrinin kulturoloji aspektlərinin tədqiqinə həsr etdiyi monoqrafiyasında yazırdı: Müstəqilliyin bərpasından sonrakı illərdə Azərbaycanın dil, mənəvi, tarixi, mədəni və siyasi cəhətdən sıx tellərlə bağlı olduğu türk dövlətləri ilə hər hansı formada yaxınlaşmaq cəhdi onun xarici siyasətinin dini, etnik təəssübkeşlik prinsipləri əsasında həyata keçirilməsi və bu əməkdaşlığın “pantürkizm”ə, “panturanizm”ə meyilli olması haqqında ittihamlarla müşayiət olunurdu. Bununla belə, XX əsrin 90-cı illəri təkcə Azərbaycan üçün deyil, bütünlükdə, türk dünyası üçün əlamətdar hesab edilə bilər.

Təbii ki, burada milli-tarixi bağlılığın və qardaşlıq çağırışlarının rolu danılmaz olduğu kimi, təsiri də qaçılmaz idi. Hətta Azərbaycana vaxtilə – XX əsrin əvvəllərində edilən hərbi kömək, Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun tarixi xilaskarlıq missiyası 80-ci illərin sonunda və 90-cı illərdə uşaqdan-böyüyədək, az qala, hər kəsin danışdığı və qardaş Türkiyədən umduğu böyük köməyin bir nömrəli mövzusu idi. Amma xalqdan uzun illər gizlədilən və ya işğal tarixi kimi təqdim edilən bu tarixin kökündə nələrin dayandığını bəzi siyasətçi və tarixçilərdən başqa dərindən bilən yox idi. Ona görə ki, sovet təbliğat sistemi Azərbaycan–Türkiyə münasibətlərinin bütün tərəflərini “ustalıqla” təhrif etmiş, bu sahədə bütün imkanlardan bəhrələnmişlər. Hətta erməni-bolşevik basqıları önündə qırğınlara məruz qalıb, az qala, bir millət kimi varlığını itirmək təhlükəsi ilə üzləşəndə Azərbaycan türklərinin çağırışı ilə köməyə gələn Osmanlı ordusu və Azərbaycan könüllülərinin yaratdığı İslam Ordusu işğalçı və təcavüzkar kimi dəyərləndirilmiş, bu iftiralara etiraz edənlər isə repressiya qurbanları olmuşlar.

Milli dirçəlişin yenidən oyandığı bir vaxtda Azərbaycan Respublikası 1991-ci ilin avqustunda dövlət müstəqilliyini elan edir. Amma oktyabrın 18-də tanınan, yeri gəlmişkən qeyd edək ki, ilk dəfə məhz Türkiyə tərəfindən tanınan bu müstəqillik Azərbaycanın müasir beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunmuş, beynəlxalq imic qazanmış və suverenliyini qorumağa qadir bir dövlət olduğunu dünyaya göstərə bilmişdi. Müstəqilliyinin ilk günlərindən Azərbaycanın xarici siyasət xəttində də Türkiyə və türkdilli ölkələrlə əməkdaşlığın qurulması xüsusi diqqətdə olmuşdur.

Şübhəsiz ki, cəmiyyətin ictimai-siyasi həyatında baş verən qabarma və çəkilmələr milli mətbuatımızın diqqətində olmaqla, onların dövrülülüyünə, məzmun və ideya qayəsinə də təsirsiz ötüşməmişdir. Azərbaycanın ikinci müstəqilliyinə qovuşduğu ərəfədə respublika mətbuatında Türkiyə mövzusu gündəlikdə duran önəmli mövzulardan olmuşdur. Ən önəmlisi, bu materiallar artıq redaksiyaya Moskvadan gəlmirdi. Bu fakt özü də qəzet materiallarını rəsmi çərçivədən çıxarmış, jurnalist sənətkarlığı baxımından da zəngin bir spektr yaratmışdır. Deyək ki, əgər vaxtı ilə qəzet səhifələrində Türkiyə haqqında olan məqalə və təqdimatlar ancaq rəsmi materiallar idisə, artıq bu ənənə qırılmışdı, müəllif yazılarının, zarisovka, reportaj, müsahibə kimi jurnalistika janrlarının yer aldığının da şahidi oluruq. Ən başlıcası isə, Türkiyə haqqında dərc edilən rəsmi xəbərlərdə belə tarixdən qaynaqlanan qardaşlıq ənənələrinin təqdimatının, demək olar ki, bütün yazılarda yer alması idi. Bu yazılarda milli ruh, tarixi köklərə bağlılıq özünü daha bariz şəkildə göstərirdi. Hətta respublikanın baş mətbuat orqanı olan “Kommunist” qəzetində müstəqillik ərəfəsində Türkiyə və türk dünyası haqqında onlarca material dərc edilmiş, ictimaiyyətin türk dünyasına olan sevgisi açıq mövzuya çevrilmişdi. Aradan keçən illər bu əlaqələri daha da zəruri etmiş və bu gün də mətbuatda Azərbaycan–Türkiyə mövzusu aktuallığı ilə seçilən və diqqət mərkəzində olan bir nömrəli mövzu kimi ən önəmli yeri tutmaqdadır.

***Namiq QƏDİMOĞLU***
***XQ***

Heç kim unudulmayıb

# Qarabağ müharibəsinin vətənpərvərlik ekranı

## *Mərkəzi Elmi Kitabxananın yaddaş xəzinəsi*




**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında Vətən müharibəsindən sonra yaradılan Qarabağ Müharibəsi Qəhrəmanları Fondundayıq. Azərbaycanda kitabxana sistemində bir ilk olan fondun müxtəlif guşələrə ayrılmış hər bucağında əbədiyyətə qovuşmuş Vətən fədailərinin fotoları sıralanıb, onların keçdikləri yol və qəhrəmanlıqları haqqında məlumatlar toplanıb.**

"Qarabağ Azərbaycandır" guşəsinin önündəyik. İlqar Mirzəyevin, Polad Həşimovun, Babək Səmidlinin, Çingiz Mustafayevin, Əliyar Əliyevin, Allahverdi Bağırovun... bizə tanış simaları çərçivədən boylanır. Burada I Qarabağ, Aprel və Tovuz döyüşləri və Vətən müharibəsi şəhidlərinin, qalib gələn zabitlərimizin baxışları şəkillərdən bizi salamlayır. İnsanın qəlbindən istər-istəməz bir nida qopur: "Niyə, nəyə görə siz həyatla tez vidalaşdınız?" O andaca qürurverici bir hiss ruhumuzu tərpədir, cavab özünü gözlətmir: "Torpaqlarımız işğaldan azad olsun deyə, qalib ölkə adını qazanaq və tapdaqdan azad olan ərazilərimizdə abadlıq, şən həyat başlasın deyə". Ruhunuz şad olsun, igidlər!

Qarabağ Müharibəsi Qəhrəmanları Fondunun rəhbəri Röqsanə Səfərzadə bizə bələdçilik edir. Fondun 2021-ci ildə AMEA-nın Rəyasət heyətinin qərarına əsasən yaradıldığını bildirir.

Guşədə yaradılan stenddə şəhid ailələrinin fonda bağışladığı kitablar sıralanıb. Bu kitabları fonda təqdim edənlərin məlumatlarına görə, onlar şəhidlərin mütaliə etdikləri nəşrlərdir. Hər vərəqində onların əl izləri, hər səhifəsində göz nuru qalıb. Cek London, Fyodr Dostoyevski, Lev Tolstoy, Rabindranat Taqor yaradıcılığından nümunə əsərlər, Ömər Faruk Yusifin "Əbdülhəmidin akıl oyunları", Hüseyn Nihal Atsızın "Bozqurdlar"ı, Ziya Bünyadovun "Azərbaycan VII–IX əsrlərdə", "Hərbi biliklər", "Vətən məni çağırdı", şəhid Ziyad Muradovun "Şeirlər" kitabları və digər nəşrlər stenddə səliqə ilə düzülüb. Diqqətimi hərbi geyimin bir aksesuarı çəkir, sonra kiçik bir cihaz... Röqsanə xanım bildirir ki, biz bu fonda yalnız kitablar toplayırıq. Amma iki qazinin hərbdən yadigar qalan əşyasını ailələrinin qəlbinə toxunmasın deyə qəbul etmişik.

Digər guşədə Ulu öndərin işğaldan əvvəl Qarabağda keçirilən toplantılarda iştirakı zamanı çəkilən şəkillər, eyni zamanda, qələbədən sonra azad edilən torpaqlarda Prezident İlham Əliyevin görüşlərini, söhbətlərini, gəzintilərini əks etdirən fotolar yer alır. Onların sırasında şəhid ailələri ilə vaxtaşırı keçirilən görüşlərdə çəkilən şəkillər də boy göstərir. Röqsanə xanım şəhidlərin anım günlərində onların ailələrinin iştirakı ilə toplantılar keçirdiklərini vurğulayır. Şəhid xanımlar – Salatın, Gültəkin, Arəstənin şəkilləri bizə boylanır. Həmkarımız Məhərrəm, Toğrul həkim, Xudayar, Şükür Həmidov, kimlər... kimlər...

Guşəni Ümummilli liderin bu sözləri bəzəyir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm."

Digər guşənin qarşısına keçirik. "Zəfər memarları" adlı bu guşə, həqiqətən, bir yaradıcılıq şedevri, möhtəşəm sənət əsəridir. Azərbaycan bayrağının rəngləri ilə süslənmiş respublikamızın xəritəsi divar boyu sərgilənib. Röqsanə xanım deyir:

– Burada 44 günlük müharibədə şəhidlik məqamına yüksələnlərin adları yazılıb. Bu şəhidlər Zəfəri qazanan memarlarımızdır. Fondda keçirilən bütün yığıncaqlarda iştirak edən şəhid ailələri üzvlərindən hər biri orada öz həyat yoldaşının, oğlunun, qardaşının adını görəndə təskinlik tapır. Şəhid anaları qonağımız olanda övladlarının adlarının bu "xəritə"də olmasından kədərləndikləri qədər də qürurlanırlar. Guşə yerli və xarici ölkədən gələn qonaqlar tərəfindən də yüksək dəyərləndirilir. Onlar "xəritə"yə baxıb heyranlıqlarını gizlədə bilmirlər.

Sol divar boyu düzülən bu rəflərdə 1500-ə yaxın kitab yer alıb. Bunlar 1-ci Qarabağ, Aprel və Tovuz döyüşləri və Vətən müharibəsinə həsr olunmuş, eyni zamanda, şəhidlərimiz haqqında yazılan kitablardır. Onları sərgi şəklində düzmüşük ki, fonda daxil olan hər kəsin diqqətini çəksin. Burada, eyni zamanda, İlham Əliyevin "44 günlük diplomatiya dərsləri" kitabı 3 dildə, "Vətən müharibəsinin tarixi" və "Şəxsiyyət faktoru"nun isə 4 – Azərbaycan, rus, türk və ərəb dillərində nəşrləri diqqət çəkir. Mərkəzi Elmi Kitabxananın bir şöbəsinin hazırladığı "44 günlük salnamə"də xeyli mühüm faktlar öz əksini tapır. Rəflərin davamında kitabxana qaydasında sıralanmış kitablar yer alır.



31 Mart Azərbaycanlıların Soyqırımı Gününü, 2020-ci ilin oktyabrında Gəncədə baş verən erməni terrorunu, müharibədə Azərbaycanın tarixi-dini abidələrinin vandalizm nəticəsində dağıdılmasını əks etdirən məlumatlar fotolarla təqdim olunur. Müharibə qəhrəmanları haqqında qəzetlərdə gedən məqalələri də toplayırıq. Gördüyünüz bu qovluqlarda qəhrəmanlarımızın doğum tarixlərinə uyğun ailələri tərəfindən verilən məlumatları yerləşdirmişik. Bütün şəhid ailələri ilə əlaqə yaratmaq çətin olduğundan biz özümüz həmin şəhidlər haqqında məlumatlar əldə etmişik. Bəzi ailələr övladlarının diplomlarını, sertifikatlarını təqdim ediblər. Bilirlər ki, burada qorunan hər sənəd gələcək nəsil üçün toplanır. Həmin şəhidlər ailənin övladı olmaqdan çıxıb xalqın övladına çevrildiklərinə görə, onlara aid məlumatlar da xalqa aid olmalıdır deyirik. Məqsəd odur ki, bura şəhid övladı, qardaşı, qohumu gələndə bilsin ki, bu kitabxanada onların ataları, əmiləri, qardaşları haqqında məlumat toplanıb və qorunur.

1-ci Qarabağ müharibəsinə həsr etdiyimiz qovluq da var. Ora məlumat toplamaq bir qədər çətin olsa da, yenə müəyyən qədər əldə edə bilmişik. Qeyd edim ki, Mərkəzi Elmi Kitabxananın direktoru Hüseyn müəllimin qardaşı Ramil Hüseynov da 1-ci Qarabağ müharibəsinin şəhididir.

Torpaqların işğaldan azad edilməsi uğrunda döyüşlərdə və antiterror əməliyyatı zamanı şəhid olan həkimlər, müəllimlər, jurnalistlər, haqqında məlumatlar ayrı-ayrı qovluqlarda toplanıb. Müəllimlər günündə, səhiyyə işçiləri günündə, mətbuat günündə şəhid olanların xatirəsini anır, şəkillərinin önünə gül düzürük. Digər bölmələri ziyarət edirik. Bu fond Qarabağ müharibəsi ilə bağlı zəngin xəzinədir desək, heç də səhv etmərik. Şəhidlərə aid məlumatların toplandığı qovluqlardan savayı, qazilərlə bağlı 3, Qarabağ müharibəsi iştirakçıları ilə bağlı 3 qovluq hazırlanıb.

"Zəfər salnaməsi", "Şuşa zirvədən uca", "Həqiqətin anomastikası", "Azərbaycan Respublikasının milli atlası", "Qarabağ real tarix", "Qarabağ albom", "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası", "Qarabağın qara kitabı" kimi nəşrlər dəyirmi masanı bəzəyir.

...Çərçivədən boylanan 700 bal toplamış, evin tək oğlu Müşfiq Orucovun hərbi xidmətini başa vurmağa cəmi iki ayı qalıbmış. Ermənilərlə döyüşdə qəhrəmancasına həlak olub. O, texniki sahədə təhsil alıb və daha sonra hərbi xidmətə yollanmışdı.

Hüquqşünas Ceyhunun ailəsi Rusiyada yaşayır. Bakıda 134 saylı məktəbdə oxuyub, təhsil alıb. Müharibə başlayanda ailə onu Rusiyaya dəvət edib, işlə təminat vəd edib. Ceyhun isə deyib ki, bəlkə iş elə gətirər ki, burada lazım ola bilərəm. O, oktyabrın 1-də Füzulidə şəhidlik məqamına yüksəlməyilə Vətənə, dövlətə lazım olduğunu sübut edib.

**Fondun rəhbəri deyir:**

– Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşları olan müharibə iştirakçıları, həmçinin digər qazilərlə bağlı faktların yerləşdirildiyi qovluqlar da var. Doğum günlərində onları dəvət edirik, xatirələrini dinləyirik. Eyni zamanda, şəhidlər haqqında yazılan kitabların bu dəyirmi masada təqdimatlarını keçiririk. Onların ailələri, valideynləri, övladları iştirak edir, münasibət bildirirlər. Bir qayda olaraq, 3 əlamətdar gündə – Zəfər, Anım və Silahlı Qüvvələr Günündə fondda tədbirlər təşkil edirik. Qazilər, müharibə iştirakçıları gəlirlər. Jurnalistləri dəvət edirik, onların zabitlərlə, şəhid ailələri ilə görüşlərinə şərait yaradırıq. Zabitlər qanlı-qadalı döyüş yollarından söhbət açırlar. Fondun fəaliyyəti beləcə davam edir.

Başqa bir istiqamətdə də fəaliyyətimiz var. SBS telekanalı ilə əməkdaşlıq edirik. Vətən müharibəsi bitəndən sonra kanalın radiosu yaranıb. Radioda şəhidlərin, qazilərin valideynlərinin səsi Qarabağdan gəlir. Radioda "Vətən uğrunda" verilişi təşkil edilib. Hər həftə 25–30 dəqiqəlik verilişdə 1 şəhid anasını dəvət edirik. O, övladı haqqında xatirələr danışır. Qazilər, veteranlar döyüş yolundan söz açır. Beləcə, radio ilə əməkdaşlığımız davam edir.

**– Bu o deməkdir ki, fondda iş dayanmır. Yaratdıq, bitdi deyilmir. Daim gördüyünüz işlərlə şəhid ailələrinə təskinlik verirsiniz.**

– Doğrudur. Fonda gələn ailələri radioya dəvət edirik. Radioda görüşdüklərimizi fonda dəvət edirik ki, gəlib burada şəhidlərin xatirəsinə yaratdığımız guşələrlə, məlumatlarla tanış olsunlar. Beləcə, işlərimiz davam edir. Şəhidlərin ruhu qarşısında borcumuzu yerinə yetiririk. Texnika elmləri doktoru, dosent Hüseyn Hüseynov Mərkəzi Elmi Kitabxananın direktoru olaraq işimizə daim böyük dəstək olur. Şəhid ailələrini qarşılayır, onlarla ehtiramla görüşür. Mərasimlərimizdə iştirak edir, fikir bildirir. Bütün tədbirlərin keçirilməsində onun əməyi var.

Çox sevinirik ki, tələbələr diplom işlərini bizim fonda həsr edirlər. Gənc qızlar, oğlanlar müraciət edirlər. Məlumat toplamaqda onlara kömək edirik. Yəni fondda daim iş gedir.

**– Demək, bura ziyarət olunmaqdan başqa, həm də bir araşdırma ünvanıdır.**

– Bəli. Zalda qoyulmuş infoköşkdə Vətən müharibəsi şəhidlərinə həsr olunmuş videoçarxlar nümayiş olunur. Ardıcıl olaraq hər dəfə doğum günlərinə uyğun 10 gün (məs. may ayının 1-dən 10-dək, 10-dan 20-dək və s.) müddətində doğulanların həyat və döyüş yolu bu çarxlarda əksini tapır. İnfoköşkdə şəhidin doğulduğu zaman və məkan, döyüşdüyü ərazilər və şəhid olduğu yer göstərilir.

Müəllimlər fonda gəlirlər. Bəzən elə olur ki, onlar şəkillərə baxanda uşaqları tanıyırlar. Deyirlər ki, bunlar bizim şagirdlərimiz olub, biz bu uşaqlara dərs demişik, Vətənpərvərlik öyrətmişik. Onların haqqında əlavə məlumatlar verirlər. Biz fond olaraq bunları yalnız təbliğ edirik. Simalarına baxın, kədərlisi var, təbəssümlüsü var... Burada gördüklərinizin hamısı bizim əməkdaşların gərgin axtarışları nəticəsində əldə edilib.

Diqqətimizi may ayında doğulanların fotolorının düzüldüyü stend çəkir. Ötən ay apreldə doğulanların fotoları nümayiş edilib, gələn ay iyunda dünyaya göz açanların fotoları və hər biri haqqında məlumat burada sərgilənəcək. Fonda daxil olanlar bayraq uğrunda can verənlərin bayraq altında sərgilənən şəkillərini seyr etmədən, onlar haqqında kiçik məlumatı oxumadan fondu tərk etmirlər. Şəkildən boy göstərənlərin hamısı bizim üçün əzizdir, doğmadır, canımız- qanımızdır. Onlar bizim müstəqil, suveren ölkədə alnıaçıq, üzüağ gəzməyə stimul verənlərimizdir.




Zəfər qurbanları

# İgid bir evin yox, bir elin oğludur

**Vətən müharibəsi şəhidi Həsrət Ələsgərov haqqında rəsmi məlumatlarda bildirilir ki, o, 2001-ci il fevralın 8-də Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olub. 2008–2019-cu illərdə İ.Mürşüdov adına Aşağı Quşçu kənd tam orta məktəbində təhsil alıb. Digər şagird yoldaşları kimi həmişə dərslərinə səylə çalışıb, vətənpərvər ruhda böyüyüb. Orta məktəb yoldaşlarının və müəllimlərin yaddaşında bacarıqlı, tərbiyəli və cəsur şagird kimi qalan Həsrət daim işğalda olan torpaqlarımızın səbəbkarlarına nifrət etdiyini dilə gətirib.**



Orta məktəbi bitirdikdən sonra "təhsil qaçmır, sonra oxuyaram, hələlik, özümüzü gücləndirməli, mənfur qonşuların xainliklərinə qarşı hər şeyə hazır olmalıyıq"– deyib və valideynlərinə sənədlərini ali məktəbə verməkdən imtina etdiyini bildirib. Atası Vahid və anası Arzu Ələsgərovlar onu bu fikirdən daşındırmağa çalışsalar da, Həsrətin inadı qarşısında susublar. 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılan gənc Vətən müharibəsinə qədər Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət edib.

Həsrət Ələsgərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsinə qoşulub. Döyüş əməliyyatlarında həmişə şücaət göstərib. Komandirləri onun hər döyüşdən sonra fərqləndiyini bildiriblər.

**Atası Vahid Ələsgərov deyir:**

– Döyüş yoldaşları danışırdılar ki, Həsrət çox cəsur və qorxmaz idi. Verilən bütün çətin döyüş tapşırıqlarını uğurla yerinə yetirirdi. Bütün döyüşən igidlərimiz kimi onun da arzusu Şuşanın azad edilməsində iştirak etmək, orada dalğalanan Azərbaycan bayrağını görmək idi. İmkan düşdükcə bizə zəng edib deyirdi ki, ondan nigaran qalmayaq: "Narahat olmayın, biz burada davalı kinoların həqiqisini nəinki görürük, həm də onun iştirakçısıyıq. İnşaallah, qələbə bizimlə olacaq. Bizim nə güclü, hazırlıqlı ordumuz varmış, ata, bilmirdik. Tankın üstünə gedən oğullar var. Düşməni ot kimi biçirik. Gedirlər, it sürüsü kimi, ev-eşiklərini, silah-sursatlarını qoyub, arxalarına baxmadan qaçırlar. Belə getsə, az müddətdə zəfərə nail olacağıq. Şuşadan sizə zəng edəcəyəm. Bax, onda toy-bayram edərsiniz".

Təəssüf ki, namərd atəşi onun bu arzusunu ürəyində qoydu. Həsrət Ələsgərov oktyabrın 8-də Suqovuşan döyüşləri zamanı bu istiqamətdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid oldu. Onun nəşi doğma Tovuz rayonunun Aşağı Quşçu kəndinə gətirildi. Azərbaycan bayrağına bükülmüş tabut həyətə girəndə Həsrətin anasının naləsi göyə ucaldı. "Şuşanın azadlığını görmək arzusu ilə vuruşan nakam balam" – deyib tabuta sarıldı. Bacısı Şöhrət və qardaşı Nüsrət nə edəcəklərini bilmədən analarını tabutdan aralamağa çalışdılar. Həsrət rayon ictimaiyyətinin, kənd camaatının, dostlarının, müəllimlərin iştirak etdiyi böyük izdihamla dəfn edildi. Atası Vahid göz yaşları içində ona təqdim edilən Azərbaycan bayrağını, sanki, oğlunun ətrini duyacaqmış kimi bağrına basdı.

Anasının Həsrətlə bağlı arzuları ürəyində qaldı. Oğlunu ali təhsilli, cəmiyyətdə yüksək mövqe sahibi görmək istəyirdi. Nə biləydi ki, balası öz canı-qanı ilə yüksək mövqeyə qalxacaq, Azərbaycanın qəhrəmanı olacaq, adı hər yerdə şərəflə çəkiləcək və adının qarşısına "şəhid anası" kəlməsini yazdıracaq. Və o, canının bir parçası olan oğlu Həsrətə əbədi həsrət qalacaq. Ələsgərovlar ailəsinin oğlu xalqın övladına çevriləcək, adı qəhrəman kimi ölkədə tanınacaq.



İndi kim deyirsə ki, Ələsgərovların ailəsində həyat olduğu kimi davam edir, inanmayın. Bunu ananın ağ saçları, qəmli baxışları, heç vaxt gülməyən siması və dərd dolu ürəyi deyir. Oğlunun dostlarını görəndə bağrı qana dönən ananın bu gün təsəllisi Həsrətdən qalan şəkillər, telefondakı mesajlar, səs yazıları və medallardır. O medallar ki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən verilib.

Şəhid Həsrət Ələsgərov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

*Səhifəni hazırladı:*
*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Türk dövlətlərinin təhsil əməkdaşlığı




**Mayın 16-da Türk Dövlətləri Parlament Assambleyasının Təhsil, mədəniyyət, sosial və humanitar məsələlər komissiyasının "TÜRKPA üzv dövlətlərində təhsil sahəsində proseslərin uyğunlaşdırılması: problemlər və inkişaf perspektivləri" mövzusuna həsr olunmuş videokonfrans formatında 12-ci iclası keçirilib.**

İclasda TÜRKPA-nın Təhsil, mədəniyyət, sosial və humanitar məsələlər üzrə komissiyasının sədr müavini, Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva və komissiyanın üzvü, deputat Hikmət Məmmədov çıxış ediblər.

Günay Əfəndiyeva komissiyanın hesabatına istinadən qeyd edib ki, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə arasında bir sıra ikitərəfli təhsil sazişlərinin imzalanması və ortaq universitetlərin yaradılması bu sahədə atılmış mühüm addımlar sırasındadır.

O bildirib ki, bu təşəbbüslər yalnız təhsil sahəsində əməkdaşlığın dərinləşməsinə deyil, eyni zamanda, ümumtürk inteqrasiyasının sürətlənməsinə və gələcək nəsillərin ortaq dəyərlər əsasında formalaşmasına xidmət edir.

Həmin gün Təhsil, mədəniyyət, sosial və humanitar məsələlər komissiyasının, eyni zamanda, "TÜRKPA üzv dövlətlərində təhsil sahəsində müasir çağırışlar, problemlər və inkişaf yolları" mövzusunda seminarı keçirilib. Seminarda çıxış edən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və ümumi təhsil şöbəsinin müdiri Çapay Məmmədov nazirliyin türk dövlətləri ilə təhsil sahəsində fəal əməkdaşlıq etdiyini bildirib.

Sonra Qırğız Respublikası Təhsil və Elm Nazirliyinin Elm və innovasiyalar departamentinin aparıcı mütəxəssisi Ayjan Karibekova, Türkiyə Respublikası Ali Təhsil Şurasının müşaviri İlyas Kara, Milli Təhsil Nazirliyi Milli Təhsil Akademiyasının eksperti Murat Akkuş və nazirliyin Beynəlxalq Təşkilatlar Şöbəsi, Avropa Birliyi və Xarici Əlaqələr Baş İdarəsinin ekspert müəllimi Şeyma Nur Dündar çıxış ediblər. Çıxışçılar Türk dövlətləri arasında elm, təhsil, mədəniyyət və humanitar sahələrdə ortaq fəaliyyətlərin perspektivləri və birgə layihələrin həyata keçirilməsi ilə bağlı fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

*XQ*

# Qərbi Azərbaycanın mədəni irsi qayıdışın yoluna işıq salır

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialında "Qərbi Azərbaycana qayıdış: İrəvanda maarifçilik hərəkatının tarixi-mədəni əsasları" mövzusunda elmi-nəzəri konfrans keçirilib.**



Filialın direktoru dosent Tünzalə Yusifova məclisi giriş sözü ilə açaraq son 200 ildə Azərbaycan xalqının başına gətirilən faciələrdən, soyqırımlarından, deportasiyalardan danışıb. Qərbi Azərbaycan məsələsinin həmişə gündəmdə olduğunu, Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra bu məsələnin daha da aktuallaşdığını dilə gətirib. O, Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyətinin Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdacaqlarına dərin inam yaratdığını vurğulayıb.

Konfransda ADPU-nun ibtidai təhsilin pedaqogikası kafedrasının müdiri professor Fərrux Rüstəmov "XIX əsrdə və XX əsrin əvvəllərində İrəvanda maarifçilik hərəkatı" mövzusunda məruzə edib. Professor XIX əsrin əvvəllərində xalqımızın milli faciəsinin əsasına çevrilən Kürəkçay, Gülüstan, Türkmənçay müqavilələrinin mahiyyətindən, ermənilərin Qərbi Azərbaycana köçürülmələrindən, sonrakı dövrdə qədim türk torpaqlarında oyuncaq erməni dövləti yaradılmasının xalqımız üçün faciəli nəticələrindən geniş söz açıb. Məruzədə davamlı ruslaşdırma, xristianlaşdırma siyasəti yeridən çar Rusiyasının bu bölgədə açdığı qəza, rus-tatar məktəbləri, progimnaziya, gimnaziya və müəllimlər seminariyasının fəaliyyəti də yer alıb.

İrəvandakı maarifçilik hərəkatının milli-mədəni qaynaqlarını şərh edən məruzəçi bu hərəkatın formalaşmasında Azərbaycan xalqının zəngin elmi-mədəni və folklor ənənələrinin, İslam Şərqinin elmi-fəlsəfi mərkəzləri olmuş xüsusilə məktəb və mədrəsələrin və o dövrün ictimai-siyasi proseslərinin də önəmli rolunu vurğulayıb. Qeyd edilib ki, İrəvan maarifçilik mühitinin Azərbaycana bəxş etdiyi böyük din xadimləri, maarifçilər, ziyalılar öz fəaliyyətləri ilə yalnız dini və dünyəvi təhsilin inkişafına deyil, həm də milli-mədəni kimliyin qorunub saxlanmasına və yeni nəsillərin maariflənməsinə dəyərli töhfələr verib.

ADPU-nun ədəbiyyatın tədrisi texnologiyası kafedrasının professoru Yaqub Babayev Professor Fərrux Rüstəmovun Qərbi Azərbaycanın təhsil tarixi ilə bağlı tədqiqatlarının toplandığı "İrəvan Müəllimlər Seminariyası və onun məzunları" və "İrəvan kişi gimnaziyası və onun azərbaycanlı məzunları" kitablarının bölgənin mədəni irsinin öyrənilməsinə töhfə olduğunu söyləyib.

Elmi məclisdə qeyd edilib ki, Qərbi Azərbaycanın mədəni irsinin qorunub yaşadılması soydaşlarımızın doğma yurdlarına qayıdışı uğrunda ümumxalq mübarizəsinə mənəvi dəstək qazandırır.

***T.RÜSTƏMLİ***
***XQ***

# "Ağ ölüm"ə ölüm!

**2025-ci ilin yanvar-aprel ayları ərzində hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 2 min 992 cinayət faktı aşkarlanıb.**

Bu barədə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupundan məlumat verilib. Bildirilib ki, cinayət faktlarının 894-ü narkotik vasitələrin qanunsuz satışı, 2 min 74-ü narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 22-si narkotik tərkibli bitkilərin qanunsuz əkilib becərilməsi, 2-si bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 2 ton 593 kiloqram, 402 qram narkotik vasitələrin və psixotrop maddələrin 2 ton 271 kiloqram 278,043 qramını marixuana, 140 kiloqram 727,95 qramını heroin, 60 kiloqram 688,812 qramını tiryək, 30 kq 822,838 qramını həşiş, 21 kiloqram 378,121 qramını digər narkotik vasitələr, 68 kiloqram 104,632 qramını psixotrop maddələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 4 min 263 ədəd metadon, 2 min 578 ədəd çətənə bitkisi qanunsuz dövriyyədən götürülüb.

Qanunsuz dövriyyədən çıxarılmış 2 ton 593 kiloqram, 402 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 68 milyon 673 min manat kimi qiymətləndirilir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 1499 nəfər cinayət məsuliyyətinə cəlb edilib, onlardan 33-ü xarici ölkə vətəndaşıdır. Məsuliyyətə cəlb edilmiş vətəndaşlardan ümumilikdə 329 kiloqram 616,125 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə götürülüb.

Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə 2025-ci ilin yanvarın 28-də qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiya tərəfindən 24 qərar əsasında barəsində məhvetmə qərarı qəbul olunmuş 5 ton 168 kiloqram 332,011 qram müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr yandırma üsulu ilə məhv edilib.

Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 30 min 280 nəfər istiqamətləndirilib. Onlar narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilib. 1526 nəfərdən 940 nəfərinin istifadəçi olması müəyyənləşib və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilib.

*XQ*

*Xuntaçıların məhkəməsi*

# Beynəlxalq qurumlar və xarici media da Ermənistanın işğalçılığına şahidlik edir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 16-da davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmədə Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli tərəfindən Azərbaycanın vaxtilə Ermənistan tərəfindən işğal olunmuş suveren ərazilərində mədəni irsin məhv edilməsini əks etdirən sənədlərin tədqiqinə başlanılıb.

Belə ki, 1993-cü il aprelin 7-də xarici media subyektində nəşr olunan Kəlbəcərin Ermənistan ordusu tərəfindən işğalına dair məqalə tərcüməçi vasitəsilə tədqiq olunub.

Bildirilib ki, "Qafqazda hücumlar yeni qaçqın dalğası yaradır" sərlövhəli məqalədə Ermənistan ordusunun Kəlbəcərdə "uğurla" irəliləməsinin minlərlə azərbaycanlının öz torpağından qaçmağa məcbur qalmasına səbəb olduğu qeyd edilib. Yazıda bildirilib: "Bazar ertəsi Kəlbəcərdə qadınlar və uşaqlar helikopterlərə minməyə cəhd ediblər. Döyüşlərdən qaçan 39 minə yaxın insan qaçqın mərkəzlərində qeydiyyatdan keçib".

Məqalədə, həmçinin qeyd edilir: "Murov keçidi, Azərbaycan, 6 aprel 1993-cü il. Onlar (azərbaycanlılar - red.) qarla örtülmüş düzənliklərdə qara nöqtələr kimi görünürdülər. Doqquz min fut (təxminən 2743 metr) hündürlüyündəki dağ keçidinin şimal yamacından enən üç nəfər öz torpaqlarında sığınacaq axtararaq irəliləyirdi. Meşə yoluna bənzər bir cığırda onların, əslində, beş nəfər olduğu məlum oldu.

Taqətdən düşmüş 30 yaşlarında bir kişi və qucaqlarında körpə uşaqları olan 20 yaşlarında iki qadın. Onların hamısı soyuqdan donurdu, meşədə və dağda 6 günlük yürüşdən sonra şok vəziyyətində idilər. Cənubi Qafqazda Ermənistan ordusu həftəsonu Kəlbəcəri ələ keçirərək minlərlə insanın qaçmasına səbəb olub və böyükmiqyaslı məcburi köçkün böhranı yaradıb.

Kəlbəcərin erməni qoşunları tərəfindən işğalı onlara (ermənilərə – red.) Qarabağı Ermənistanla şimaldan cənuba birləşdirən geniş ərazi üzərində nəzarət imkanı verib. Birinci əlaqə ötən il Laçında qurulmuşdu, bu yol qoşunların və təchizatın Qarabağa çatdırılması üçün istifadə olunurdu".

Bundan başqa, yazıda vurğulanır ki, yalnız Azərbaycan hökuməti deyil, həm də Kəlbəcərin işğalının əyani şahidi olan bir çox insanlar hücumun birbaşa Ermənistan ərazisindən həyata keçirildiyini bildiriblər. Qeyd edilib ki, Qarabağa açılan yeni "şimal dəhlizi" 100 kilometrdən çoxdur. Bu da faktiki olaraq Kəlbəcər bölgəsinin tam şəkildə ilhaqı deməkdir. ABŞ Qafqazdakı yeni hücumlara görə Ermənistanı qınayır.

Bu gün ABŞ Ermənistanı qonşu Azərbaycanın şimal-qərbində yerləşən əraziləri 11 gün əvvəl başlanan hücumlar nəticəsində ələ keçirdiyinə görə kəskin şəkildə qınayıb. ABŞ Dövlət katibi Varren Kristoferin bəyanatında administrasiya İrəvan hökumətini qüvvələrini dərhal geri çəkməyə çağırıb. Eyni zamanda o, bazar ertəsi Ermənistan Prezidenti Levon Ter-Petrosyana etiraz məktubunun təqdim olunduğunu qeyd edib".

Daha sonra "İzvestiya" qəzetinin 1993-cü il aprelin 2-də nəşr olunan buraxılışında işıq üzü görən məqalə tədqiq olunub.

Yazıda deyilir: "Ermənistan ordusu Kəlbəcər rayonunun ətrafına çatıb. Hücum həm Ermənistan, həm də Qarabağ tərəfdən həyata keçirilib. Kəlbəcər rayonu tam olaraq blokadaya alınıb, onu Azərbaycanın digər əraziləri ilə birləşdirən yollar artıq kəsilib. Şəhər daim raket, artilleriya hücumlarına və havadan bombardmana məruz qalır. Dinc əhali arasında çoxlu sayda ölən var. Minlərlə insanın taleyi məlum deyil".



Beləliklə, məhkəmə iclasında tədqiq olunan hər iki xarici mənbədə Ermənistan silahlı qüvvələrinin Kəlbəcərin işğalında, mülki əhalinin qətlə yetirilməsində iştirakı öz əksini tapıb və təsdiqlənib.

Sonra BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilən qətnamələr ingilis dilindən tərcüməçi vasitəsilə tədqiq olunub.

Məhkəmədə daha sonra beynəlxalq insan hüquqları müdafiəsi təşkilatının 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinə amansız hücumunu, mülki əhalini qətlə yetirməsini əks etdirən hesabatı tədqiq olunub.

Hesabatda bildirilir ki, Ermənistan ordusu Qarabağda ələ keçirdiyi bütün ərazilərdən Azərbaycanın mülki əhalisini qovub və ya girov götürüb. Qaçıb canını qurtarmağa çalışan insanları heç bir fərq qoymadan güllələyiblər.

Təşkilatın hesabatında genişmiqyaslı talan və mülki əhalinin əmlakının məhv edilməsi, 1993-cü ilin iyulunda Ağdamın Ermənistan ordusu tərəfindən işğalı, şəhərin talan edilməsi barədə məqamlar da yer alıb.

Sənəddə Ermənistan ordusunun Qarabağda baş vermiş döyüşlərdə iştirakı da tədqiq olunur. Vurğulanıb ki, Azərbaycanın mülki əhalisinin heç bir fərq qoyulmadan atəşə tutulması, bombardmana məruz qoyulması insanların məcburi şəkildə yerlərini dəyişmələrinə səbəb olub. Mülki əhali girov götürülüb, əmlakı talan edilib və yandırılıb.

Bundan əlavə, hesabatda həmin dövrdə Ermənistan Respublikasının hərbi cinayətlər törətməsi ilə əlaqədar Cenevrə Konvensiyasının ciddi şəkildə pozulduğu qeyd edilib. Hesabatda Ermənistan ordusunun hərbi qaydaları pozması, müharibə cinayətləri törətməsi halları da əksini tapır.

Girovlar, müharibə əsirləri ilə düzgün şəkildə davranılmaması və onların öldürülməsi kimi hallar da sənəddə yer alıb.

Sonra dövlət ittihamını müdafiə edən prokuror tərəfindən Azərbaycanın rayon, şəhər, qəsəbə və kəndlərinin Ermənistan tərəfindən işğalından sonra dağıdılmasını, viran qoyulmasını, mədəni, tarixi, dini abidələrin məhvini, infrastrukturun, mülki əmlakın, qəbiristanlıqların məhv olunmasını əks etdirən foto və videomateriallar təqdim olunub.

Bildirilib ki, işğal dövründə dini abidələrimiz və məscidlərimiz dağıdılmaqla yanaşı, həm də orada donuz saxlanılmaqla təhqir olunub.

İclasda, həmçinin işğaldan azad edilmiş rayon, şəhər və kəndlərə baxış keçirilməsinə dair protokollar, həmin protokollara əlavə edilmiş foto və videogörüntülər nümayiş etdirilib.

Ardınca ibtidai istintaq zamanı keçirilmiş ekspertiza rəyləri elan olunub.

Qeyd edək ki, bu təcavüzkar müharibə zamanı Azərbaycanın mədəni sərvətinə aid olan tarix və mədəniyyət abidələrinin hücum obyektinə çevrilməsi hərbi əməliyyatların dəstəklənməsi üçün istifadə edilməsi, qəsdən böyük həcmdə yandırılması, artilleriya qurğularından atəşlər açıb partladılması, fiziki üsullarla qismən və tamamilə dağıdılması, eləcə də oğurluq, soyğunçuluq, vandalizm aktları törədilməsi nəticəsində ölkəmizə və xalqımıza xüsusilə külli miqdarda ziyan vurulub.

Məhkəmə prosesi mayın 19-da davam etdiriləcək.

*XQ*

Rəsul Rza – 115

# Poeziyamızın yaşıl işığı



**Yaradıcısı olduğu "Söz" jurnalının baş redaktoru, mərhum Şəkər Aslanın arxivinə baxarkən Xalq şairi Rəsul Rzayla bağlı bir yazı əlimə keçdi. Düşündüm ki, şairin 115 illik yubileyi ərəfəsində bu xatirə lap yerinə düşdü. Onun 90 illiyinə həsr olunmuş kitabını da yenidən oxudum.**

Kitab bu dəfə tamam ayrı ovqat bəxş etdi mənə. Bir anlığa, sanki, Rəsul Rzanı şəxsən tanıdım. Çinar ömrü arzusunda olan şairin bütün yaşantılarını müasirləri kimi mən də gördüm. "Bir kimsəyə enməmiş, heç kəsə baş əyməmiş bir ömrü" izlədim.

Şair-dramaturq Teyyub Qurbanın tərtib etdiyi "Yaşıl rəngin işığı" 18 müəllifin qələmə aldığı xatirələr kitabında yarımbaşlıq kimi verilmiş "İlk Azərbaycan ensiklopediyasının taleyi ilə bağlı xatirələr, məqalələr toplusu"nda gənc yazarlara mənəvi ata olan Rəsul Rzanın milli təəssübkeşliyindən, qayğıkeşliyindən söz açılır.

O, böyük vəzifələrdə olub. Lakin kitabdan əxz elədim ki, "vəzifə bioqrafiyası"nın ən yüksək zirvəsi yaşıl rəngli Azərbaycan Ensiklopediyasının (ASE) baş redaktorluğudur. Kitabı oxuyanda isə o illərin ağrılı yaşantılarıyla baş-başa qaldım.

...Ensiklopediya. Bu elmi idarə Rəsul Rzaya lazım idimi? – Su kimi, hava kimi. Ensiklopediya Rəsul Rzaya Azərbaycanı Azərbaycana tanıtmaq üçün lazım idi. O, gələcək naminə, bu gün üçün dünyanın nəzərini Azərbaycana yönəltmək istəyirdi. Lakin Rəsul Rza I cildi hazırlaya bildi. Həmin cild də senzuradan keçmədi. Tarix elmimizdə baş verən çəkişmələrin badına getdi. Bir baş redaktor kimi Rəsul Rzanın götürdüyü xətt milli, tarixi, özümlü dəyərlərə söykənirdi. Təəssüf ki, Azərbaycan istiqlalının, elminin, milli mədəniyyətinin təşəkkülündə rol oynamış adamların adları "ASE"nin cildlərinə düşmədi.

Dili qılınc, qəlbi kövrək, qayğıkeş, xisləti xeyirxahlıqla dolu idi Rəsul Rzanın. Onun insanpərvərliyi, humanistliyi, əliaçıqlığı, yan-yörəsinə, rəhbərlik etdiyi kollektivin hər bir üzvünün ailə və şəxsi qayğılarına canıyanalıqla yanaşması yalnız Rəsul Rzaya xas xüsusiyyətlər idi.

Rəsul müəllim, demək olar ki, bütün vaxtını ensiklopediyaya rəhbərliyə sərf edirdi. Hətta həyatının qayəsi olan bədii yaradıcılıq da arxa plana keçmişdi. O, çox demokratik ruhlu bir insan idi. Həqiqət onun üçün hər şeydən yüksəkdi. Qorxaqlara qarşı sərt, barışmaz və prinsipial mövqe tutardı. Onun rəhbərliyi ilə yaradılmış I cild nəşrindən 5 il keçəndən sonra ləğv olundu. Bu barədə şair-publisit Teyyub Qurbanın "Yaşıl" – "Qırmızı" adlı silsilə məqaləsində ətraflı bəhs edilmişdir.

"Yaşıl" – milli ensiklopediyadır. "Qırmızı"da isə Sovet Azərbaycanının kommunizm quruculuğu, qurultay qərarlarının həyata keçirilməsində əldə edilən əzəmətli nailiyyətlər geniş işıqlandırılır. "Qırmızı" utanıb-qızarmadan "Yaşıl"ı inkar edir. Başda əyilməz Rəsul Rza olmaqla milli qeyrət sahiblərindən ibarət olan kollektivin nəhəng əməyini heçə endirir. 20 min tirajla buraxılmış canlı sənət abidəsini yerə vurur.



Rəsul Rzaçılar milli qəhrəmanlıq göstərərək 1918-ci ildə mart faciəsinin iştirakçılarını "Yaşıl"a daxil etməmişlər. "Qırmızı" isə 26-ların hamısı haqqında ayrı-ayrılıqda məqalə verməklə yanaşı, şəkillərindən ibarət foto-sərgi də vermişdir. Məqalədə belə müqayisəli təhlillərin sayı yüzlərcədir.

Rəsul Rza bütün kollektivdə poetik mənlik hissi və şüuru formalaşdırır, ziyalı və vətəndaş mövqeyi nümayiş etdirirdi. İstəyirdi ki, ensiklopediyada Azərbaycan əsas mövzu olsun. Bütün bunları səhhəti hesabına edirdi. Lakin belə bir qənimət şəxsiyyət mübarizə hədəfi oldu. Hətta adı ensiklopediyanın Redaksiya Şurası siyahısında saxlanmadı...

Rəsul müəllimin bilavasitə təşəbbüsü, təkidi sayəsində tikilmiş yeni binada çalışmaq onun özünə qismət olmadı. Düşünürəm ki, Azərbaycan Ensiklopediyası Nəşriyyat Poliqrafiya Birliyinə ömrünün və yaradıcılığının ən bəhrəli tam 10 ilini qurban vermiş Rəsul Rzanın adı verilsəydi, onun ruhu burda qərar tutardı… Məhz millətçi erməni alimlərinin obyektiv tarixi həqiqətlə bir araya sığmayan uydurmaları, böhtan və iftiraları sayəsində Rəsul müəllimin rəhbərliyi ilə yaradılmış yaşıl ensiklopediyanın I cildi ləğv edildi. Bədxahlar istədiklərinə nail oldular. Demokratik ruhlu şair millətin mənəvi pasportu sayılan ensiklopediyanın nəşrinə rəhbərlikdən də uzaqlaşdırıldı.

O, həyatda şəxsən görüb tanımadığım dahilərdən biri idi. Fəqət şair dünyasını dəyişəndə onunla vida mərasimində iştirak etmişəm. Rəsul Rza 1981-ci il aprelin 1-də gözlərini əbədi yumub. Dəfn mərasimi ayın 2-də idi. Ömrümdə ilk dəfə belə izdiham görürdüm. Filarmoniyada oturmağa birtəhər yer tapdım. Divardan asılmış şəkli... Öz ifasında səslənən şeirlər... Adamı haldan-hala salan hüznlü simalar...

Adlarını kitablardan bildiyim ədəbi simaları, televiziyadan tanıdığım sənət adamlarını həmin gün həyatda şəxsən gördüyüm üçün Rəsul Rzanın ruhuna minnətdaram. Ulu öndər Heydər Əliyevi Lənkəranda Məhsul bayramlarında görsəm də, daha yaxından orda gördüm.

Rəsul Rza zahirən ötkəm, zabitəli, zəhmli, hətta bir qədər acıdil adam təsiri bağışlasa da, əslində, kövrək qəlbli, xeyirxah, mərhəmətli, həssas və qayğıkeş insan idi. Bu xüsusiyyətləri ilə hələ sağlığında müdrik varlığa çevrilən şair haqqında deyirlər ki, Rəsul şeirlərinin qonşuluğunda Rəsul qayğısı da yaşayır. Vaqif Nəsib yazırdı:

*Rəsul Rza*
*İnsan üçün çiçəkləyib*
*Öz yetmiş yaşına kimi.*
*Düşmən üçün tikanlaşıb*
*Kirpiyindən qaşına kimi...*

Beləcə, mərhum Şəkər Aslanın arxivi sayəsində elə ondan da qayğısını əsirgəməyən, bütün varlığı ilə insan üçün çiçəkləyən Rəsul Rza dünyasına səyahət elədim.

***Sevda ƏLİBƏYLİ,***
***"Söz" jurnalının baş redaktoru***

*Gəlimli-gedimli dünya*

# Söz dünyasının yaxşısı...

**Onun haqqında yaxşı insanlar yaxşı söz deməkdən çəkinməz. Çünki Pənah Rüstəm hər cür şöhrətdən, qeybətdən, pis niyyətdən uzaq, jurnalist adının saflığını qoruyan idi. Ürəyinin yükünü insaniyyətdən, səmimiyyətdən, xətir-hörmətdən tutmuşdu. Sakit təbiəti, üzünün nuru, sabitqədəmliyi ilə seçilirdi. Elə mənim də yaddaşımda təmizliyinə, duruluğuna, sözünün bütövlüyünə görə dərin iz buraxıb.**

Pənah bir jurnalist kimi AZTV-də, "Bakı–Baku", "Vışka" qəzetlərində, "Media Press" İnformasiya Agentliyində müxtəlif vəzifələrdə çalışıb. Fəaliyyəti dövründə işinə məsuliyyətlə yanaşması, ünsiyyətdə olduğu jurnalist həmkarlarının qayğısına qalması heç vaxt yadımdan çıxmaz.

...Pənahı gənclik illərindən – "Azərbaycan" nəşriyyatına gedib gəldiyim vaxtlardan tanıyırdım. Mən, o zaman ittifaq tabeliyində olan, respublikamızın sənaye nəhəngi sayılan "Şelflayihəistikinti" İB-nin orqanı (İndiki Bakı Dərin Özüllər Zavodu) "Xəzər" – "Kaspi" (Azərbaycan və rus diliərində nəşr olunurdu) çoxtirajlı qəzetinin redaktoru idim. Pənah isə respublika mətbuatında çalışırdı. O, "Bakı" – "Baku" və "Vışka" qəzetlərində işlədiyi dövrlərdə bizim qəzetdə dərc olunan məqalələrin aktuallığını nəzərə alıb adıçəkilən qəzetlərdə də işıq üzünə çıxarırdı. O zamanlar bu, qəbul olunmuş qayda idi. Çoxtirajlı qəzetlərdə gedən yazılardan respublika mətbuatında seçmələr verilirdi.

Vətənpərvər oğul idi. Birinci Qarabağ savaşı illərində qaynar nöqtələrdən yazdığımız reportajları yurd aydınlarımız, yəqin ki, yaxşı xatırlayırlar. Hadisələri obyektiv qiymətləndirmək bacarığı, özünün prinsipial mövqeyinin olması onu fərqləndirən cəhətlərdən idi. Pənah həm gözəl jurnalıst, həm də yaxşı tərcüməçi kimi tanınırdı. Hərdən də şeir havasına köklənib yazırdı. Həmkarımız Zemfira Məhərrəmlinin döyüşçü xanımlarımıza həsr olunan "КАРАБАХСКАЯ ВОЙНА:сражались и женшины" kitabını məharətlə rus dilinə çevirmiş və 2005-ci ildə Sankt-Peterburqda nəşr etdirmişdi. "Bədii düşüncədə Qarabağ" kitabının, yeni povest və hekayələrin tərcüməsini isə bir neçə ay öncə başa çatdırmışdı. Heyf ki, bu tərcümə kitablarını görmək ona qismət olmadı.

Çoxdan bir-birimizdən xəbərsiz idik. Uzun fasilədən sonra sosial şəbəkələrdən sorağımı alıb, köhnə dostunu yada salıb, ismarıc yazmışdı. Əlaqələrimiz yenidən bərpa olunmuşdu. Vaxt olduqca, bayramdan-bayrama yazışırdıq, danışırdıq. Hər dəfə deyirdi ki, şeirlərindən göndər, tərcümə edim. Mənsə şeirlərimi göndərəcəyimə söz versəm də, vaxtı uzadırdım. Bilirdim ki, səhhətində problemləri var, ona görə əziyyət vermək istəmirdim.

...Son bir ildə telefon əlaqələrimiz də olmurdu. Bu günlərdə rəhmətə getdiyini eşidəndə çox kədərləndim. Dəfnində iştirak edə bilmədiyimə görə, məyus oldum. Pənah Rüstəm 69 yaşında dünyasını dəyişdi. O, dünyanın pak, yaxşı, fədakar insanlarından biri kimi özündən sonra xoş xatirələr qoyub getdi.

Üzləşdiyi məhrumiyyətlərə, maneələrə baxmayaraq, Pənah ömrünün sonunadək öz yolu ilə getdi. O, insanlar içində insan araya-araya köçdü bu dünyadan... Bilmirəm, ömrünün sonuna yaxın nələr yazıb, yazdıqlarından işıq üzünə çıxarmadığı nələr qalıb. Amma öz qeydlərində yazırdı: "... Dənizin möcüzəli "terapiyası" əzizdir. Qısa müddətdə toparlanıb, əvvəlki rejimə qayıtdım, sifarişləri vaxtında çatdırdım. Sanki yeni ruh – qüvvə gəldi, ən çətin yazılara "girişdim", heç nədən çəkinmədim – geri durmadım. Əksinə, əvvəlkindən çox material yazdım, maraqlı layihələrə qol qoydum. Hətta, bir çox mahnılara mətn yazdım. Poetik tərcümələrə başladım, müasir şairlərin şerlərini ruscaya çevirdim. Bədxahların "proqnozlarını" pozdum. Bəli, xəstəliyə boyun əymədim. Və bu gün qalib kimi yoluma davam edirəm."

Onun bir çox şeirlərinə bəstələnmiş və sevilən mahnılar var. Bəstəkar Eldar Mansurovun yazdığı, Xalq artistlərimiz Flora Kərimova və Faiq Ağayevin ifa etdiyi "Bir daha" adlı çox sevilən mahnının sözləri Pənah Rüstəmə aiddir. "Qayıt dünəninə, Bakı","İçəri şəhərim" və digər mahnılar da bu qəbildəndir.

O, təklənəndə dənizlə həmsöbət olurdu. Yaz günəşinin hərarəti ilə hələ tam isinməmiş dənizlə isti ürəklə danışırdı: "Birdən buludlar dağılır və günəş bizi salamlayır. Qışda nadir olan belə günləri xoşlayıram. Sanki yazın gəlişini "hazırlayan" məqamları deyirəm. Şaxtalı havada qaralmış göyün açılması, günəşin buludlar arasından "yol tapıb" çıxması və "göz vuraraq" parlaması təbiətin möcüzəsi deyilmi?"



Özünün dediyinə görə, ömrünün sonuna qədər ailə qurmadı, tək yaşadı. Evlənməməyinin səbəbini bilmirdim. Amma onu bilirdim ki, üzü gülsə də, içində təsəllisiz kədərlə yaşadığı hiss olunurdu. Bilmirəm, bəlkə də ürəyində heç kimin bilmədiyi nakam məhəbbəti varmış. Bəlkə, ona görə, sirrini dənizə danışardı: "Həmişə çətin anlarda sirrimi dənizlə bölüşür, təskinlik tapardım. Başımın üstünü qəfil alan xəstəlik planları alt-üst etdi. Amma sonda qalib özüm oldum. Böhrandan rəbbimin himayəsi, gücü və iradəm hesabına çıxdım".

Taledən, Tanrıdan bircə diləyi vardı Pənahın. O da sağlam ömür sürmək. Belə diləkdə bulunur insanlar başdan-binadan.Tanrı onu yaxşı adam kimi öz pənahında saxlayırdı. Amma neyləyəsən ki, belədir dünyanın işi:

*Sevinc də görmüşük, qəm də yemişik,*
*Axırı məzardı, əvvəli beşik...*

Özünün də qeyd etdiyi kimi, gücü doğma dalğaların səsindən alırdı. Həm də bunu Xəzərə yazdığı sətirlərlə dilə gətirirdi:

*Xəyal, fikir dünyamı*
*beşik kimi yırğalar,*
*yorğun – vurğun,*
*qəlbə uyğun dalğalar...*

Nə bilmək olar, bəlkə də Pənah yazdığı mahnı mətnlərində öz taleyi ilə dərdləşirdi. Sözləri Pənah Rüstəmə, bəstəsi Eldar Mansurova məxsus olan "Tale" mahnısı kimi. Ruhu şad olsun...

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

*Polemik söhbət*

# Tənqidsiz teatr – sükansız gəmi

**İncəsənət dəyişkən termindir. Onun mənası və dəyəri zamanla dəyişir. Biz artıq texnogen eranın insanlarıyıq və bütün yaradıcı sferalar da zamanın hökmü ilə hesablaşmaq məcburiyyətindədir. Rəqəmsal dünyada mədəniyyətin əsas sahələri hesab olunan teatr və kino da yenilikçi xüsusiyyətlərdən kənarda qalmamağa çalışır.**

Bir müddət əvvəl Azərbaycanda Teatr və Kino forumları keçirildi, bu və digər məsələlər geniş müzakirəyə cəlb olundu, xeyli faydalı təkliflər səsləndi. Bu mexanizmin işə düşməsi kifayət qədər zaman tələb edir. "Tarixin sonu" əsərinin müəllifi Frensis Fukuyamanın sözləri ilə desək, ekstremal situasiyaların belə texnologiyaların insan sivilizasiyasına təzyiqinin qarşısını ala biləcəyi inandırıcı görünmür. Necə deyərlər, texnoloji cin artıq şüşədən çıxıb.



Sadəcə, prosesə adaptə olmağımız lazım gəlir. Yaradıcı sferanın adamları smart mədəniyyətin elementlərinə yiyələnməklə teatr və kinonun rəqəmsallaşmasını gerçəkləşdirə bilərlər. Köhnə, klassik model bazis rolunu oynaya bilər, digital formada, onlayn qaydada biz incəsənətin müxtəlif sahələrini inkişaf etdirməklə yanaşı, onların daha geniş auditoriyalara çıxmasını təmin etmiş olarıq. Müşahidə etdiyimiz kimi, süni intellekt artıq insanı ötüb keçməyə başlayır. İndi bu sahə həm təbiətin, həm də sosial elmlərin son kəşfləri ilə silahlanıb. Sənət isə süni intellekt qarşısında tərksilah edilmiş kimi görünür. Yeni eranın futuristi Yuval Harari yazır ki, "indi biz küçədə nə baş verdiyindən daha çox kiberfəzada nə baş verdiyi ilə maraqlanırıq. İsveçrədə yaşayan dayım oğlu ilə danışmaq daha asandır, nəinki səhər yeməyi vaxtı həyat yoldaşımla; çünki həyat yoldaşım mənə yox, daim smartfona baxır".

Köhnə kişilər demiş, hal-qəziyyə budur. Azərbaycan zəngin və qədim mədəniyyətə malik ölkədir. Bu mədəni irsin gələcək nəsillərə itkisiz ötürülməsi üçün biz mütləq texnogen çağın tələblərinə uyğun davranmalıyıq. Mədəniyyət tariximizi elektron formata keçirmək, eləcə də bu gün yaranan sənət əsərlərini gələcək üçün qorumaq məqsədilə kiberbaza formalaşdırılmalıdır. Amma nədənsə bu sahə axsayır. Yaradıcılıq sferasında elektron platformalar nəzərəçarpan səviyyədə deyil. Kreativ gənclik yetişir, yeni rejissor, aktyor nəsli gəlir. Lakin onların potensialını realizə etməsi üçün yaradıcı məkanlar çox azdır, cüzidir. Virtual məkan məsələsini kənara qoyaq. Çünki bu məsələnin həlli rəqəmsallaşmadan keçir.

Digər vacib məsələyə də diqqət yetirmək zəruriyyəti yaranır. Özəl teatrlar, demək olar ki, yox dərəcəsindədir. Son zamanlar Xalq artisti Vidadi Həsənovun rəhbərlik etdiyi "M-Teatr", Nihad Qulamzadənin rəhbərlik etdiyi ƏSA Teatrı uğurlu tamaşalarla diqqəti cəlb edir. Bunlar özəl teatrlardır və teatr mühitinin canlanması üçün əllərindən gələni edirlər. Lakin sağlam rəqabət üçün, teatrın inkişafı naminə özəl teatrların sayı artmalıdır və onların texniki imkanları geniş olmalıdır.

Dövlət kinoya, teatra kifayət qədər diqqət və qayğı göstərir. Lakin, nədənsə, teatrlar yeni dramaturqlarla işləmək həvəsində deyil. Azərbaycan teatrı hələ də Şekspir, Mirzə Cəlil orbitində fırlanmaqdadır. Halbuki, müasir dövrümüzü özündə əks etdirən kifayət qədər yeni dram əsərləri yazılır. Bəs onlar niyə səhnəyə yol tapa bilmir? Gənc və istedadlı yazıçı Cavid Zeynallının "Şükriyyə" tamaşası (rejissoru Əməkdar incəsənət xadimi Bəhram Osmanovdur) hal-hazırda Akademik Milli Dram Teatrında müvəffəqiyyətlə oynanılır. İstedadlı və gənc dramaturq Ülviyyə Heydərovanın pyesləri ölkə teatrlarında mütəmadi gedir və maraqla qarşılanır. Bu, sevindirici haldır. Dövlət Milli Gənc Tamaşaçılar Teatrında İlqar Fəhminin 44 günlük Zəfərimizdən bəhs edən "Balaca kişilər" tamaşası hazırlanmışdı. Geniş rezonans doğurdu. Yeri gəlmişkən, rejissor Nicat Kazımov bu əsərə gözəl quruluş verib. Yazıçı-dramaturq Firuz Mustafanın "Sehrbaz" tamaşası Bakı Bələdiyyə Teatrında anşlaqla nümayiş olundu. Tamaşanın rejissoru Xalq artisti Mərahim Fərzəlibəyovdur. Aradan xeyli vaxt keçməsinə baxmayaraq, bu gün də həmin tamaşa haqqında danışılır. Ümumiyyətlə, unudulmaz sənətkarımız Amaliya Pənahovanın yadigarı olan Bakı Bələdiyyə Teatrının tamaşaları həmişə geniş tamaşaçı marağına səbəb olub. Bu teatr həmişə dövrün, zamanın nəbzini tutmağa, zamanla səsləşən əsərlərə səhnə həyatı verməyə çalışıb. Könül istərdi ki, digər teatrlarımız da klassika ilə yanaşı müasir əsərlərə müraciət etsinlər. Yeni nəsil dramaturqların yetişməsinə təkan versinlər.

Yeri gəlmişkən, niyə yazıçı-dramaturq Elçin Hüseynbəylinin əsərləri səhnəmizdə görünmür? O, kifayət qədər sanballı dram əsərlərinin müəllifidir və zamanında Hüseynağa Atakişiyev onun bir neçə pyesinə quruluş vermişdi.

Daha bir problem. Teatr tənqidçiləri, sanki, inzivaya çəkiliblər. Bir vaxtlar tamaşaların "taleyi"ni həll edən nüfuzlu teatr tənqidçiləri vardı. Cəfər Cəfərov, İnqilab Kərimov, Cabir Səfərov və sair. Onlar Azərbaycan teatrşünaslığının əsasını qoymuş görkəmli simalardır. Öz işlərini zamanında görüblər, bu gün də onların imzasına böyük ehtiyac var. Bəs indi niyə yoxdur? Söhbət səthi yanaşmadan deyil, peşəkar təhlildən gedir. Bu gün teatr haqqında ara-sıra jurnalist yazılarına rast gəlirik ki, onların da əksəriyyəti səthi, lokal yanaşmalardan ibarətdir. Peşəkar təhlil demək olar ki, yox dərəcəsindədir. Bu gün teatr tənqidçisi deyəndə vur-tut 3–4 imza yada düşür: İlham Rəhimli, Məryəm Əlizadə, İsrafil İsrafilov, Aydın Talıbzadə və sair.

Doğrudanmı teatrşünas yoxdur? Varsa, hardadır, niyə görünmür? Rejissorlar, aktyorlar əmək sərf etdikləri tamaşalar haqqında mütəxəssis rəyi gözləyirlər. Onların buna ehtiyacı var. İnanın, aktyorlar rol aldığı tamaşalar haqqında hansısa jurnalistin yazısını görəndə sevinirlər. Çünki peşəkar teatrşünas yanaşması yoxdur.

Söhbət uzun, vaxt qısa. Hələlik, burda yekunlaşdıraq. İnanırıq ki, ən qısa zamanda bu və bu kimi məsələlər öz həllini tapacaq. Rəqəmsallaşma isə mövcud mədəni irsi qoruyub daha da uzunömürlü etmək baxımından vacibdir. Nə qədər tez baş tutsa, mədəniyyətimiz də bir o qədər qazanar.

***Kənan HACI***
***yazıçı-dramaturq***

**"Ulduz" jurnalı ilə "Xalq qəzeti"nin birgə layihəsi olan "Ulduzlu görüşlər" davam edir. Növbəti belə görüş Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda şair, publisist, siyasi ekspert və Milli Məclisin deputatı Elçin Mirzəbəyli ilə keçirilib.**

# "Natəvan" klubunda "Ulduzlu görüş"



Elçin Mirzəbəyli onunla görüşə gələn Azərbaycan Universitetinin tələbələri ilə açıq və səmimi fikir mübadiləsi apararaq, cəmiyyətdə gedən ictimai-siyasi proseslər, gənclərin milli-mənəvi ruhda tərbiyəsi və ədəbi mühitin mövcud vəziyyəti barədə fikirlərini bölüşüb. O, dövlətçilik və vətənpərvərlik mövzularından danışaraq, həmsöhbətlərinə milli düşüncə, tarixi yaddaş və məsuliyyət hissinin aşılanmasının zəruriliyini vurğulayıb.

Sonra qonaq tələbələrin çoxsaylı suallarını cavablandırıb və onlara öz kitablarını avtoqrafla hədiyyə edib.

***XQ***

Beynəlxalq həyat

# Rusiya–Ukrayna: İstanbul görüşü atəşi kəsə bilmədi



(əvvəli 1-ci səhifədə)

Təəssüf ki, son günlər geniş və bərəkətli Ukrayna torpaqlarında cəbhənin bütün təmas xətti boyu döyüşlərin intensivliyi daha da artıb. Tərəflər bir-birinin ərazisinə aramsız raket və dron zərbələri endirirlər. Təbii ki, bu qanlı savaşdan ən çox Ukrayna xalqı zərər çəkir. Axı müharibə əsasən məhz bu ölkənin ərazisində gedir.

Həqiqətin gözünə dik baxmaq lazımdır. Rusiyanın Ukraynaya nisbətən hərbi resursları daha çoxdur. Düzdür, Ukrayna xalqının igid əsgər və zabitlərinin döyüşlərdəki fədakarlığı heyranlıq doğurur, amma, bu, yetərlidirmi? Rusiya ordusu hər gün kəndbəkənd irəliləyir.

Türkiyə dövləti ilk gündən bu məsələdə ədalətli və prinsipial mövqe nümayiş etdirir. Ankara Ukraynanın ərazi bütövlüyünün pozulmasının qəti əleyhinədir. İnsafən, ABŞ-ın 47-ci prezidenti Tramp da sülh adamıdır və müharibənin sona yetməsi üçün ciddi səylər ortaya qoyur. Görünür, hətta bu da yetərli deyil.

Son 1 həftə ərzində Rusiya–Ukrayna müharibəsi ilə əlaqədar bir çox maraqlı diplomatik addımlar atılıb. Mayın 10-da Böyük Britaniya, Fransa, Almaniya və Polşa liderləri Kiyevə səfər edərək buradan Moskvaya mesaj göndərdilər. Dedilər ki, əgər Kreml mayın 12-dən etibarən atəşkəs elan etməzsə, bu ölkəyə qarşı əlavə və əvvəlkindən daha sərt sanksiyalar qəbul edəcəklər. Bu ultimativ tələb Rusiya paytaxtında acı istehza ilə qarşılandı.

Prezident Putin Moskvanın İstanbulda 3 il əvvəl yarımçıq qalmış danışıqları davam etdirməyə hazır olduğunu bəyan etdi. Türkiyə öz növbəsində İstanbulda danışıqlar üçün hər cür şərait yaradacağını bildirdi. Prezident D.Tramp ukraynalı həmkarını təcili surətdə danışıqlara qoşulmağa səslədi.

Bu dəfə Prezident Zelenski gözlənilməz gediş etdi. O, heç kimin gözləmədiyi şəkildə Rusiyanın dövlət başçısı ilə İstanbulda şəxsən görüşmək arzusunda olduğunu söylədi. Kiyevin bu təşəbbüsü sülh danışıqları prosesinə əlavə bir dinamizm gətirdi. Siyasi təhlilçilər ağız-ağıza verib Kremlin bundan sonra hansı qərar qəbul edəcəyi ilə bağlı ehtimallar səsləndirdilər. Üstəlik, o ərəfədə 3 zəngin ərəb dövlətinə səfər edən D.Tramp İstanbul danışıqlarında şəxsən iştirak edə biləcəyini elan etdi

Beləliklə, Ukrayna böhranı ətrafında diplomatik səylər özünün pik həddinə çatdı. Zelenski əvvəlcə Ankaraya uçaraq sayın R.T.Ərdoğan ilə görüşdü. Türkiyə lideri budəfəki danışıqlarda mühüm qərarlar veriləcəyinə ümid bəslədiyini vurğuladı və tərəfləri bu fürsəti qaçırmamağa çağırdı. V. Zelenski görüşdən dərhal sonra İstanbula yola düşdü. Lakin Rusiya Prezidenti İstanbula gəlmədi. Beləcə, necə deyərlər, gözlər yollar dikili qaldı...

Moskva isə diplomatik cavab tədbirləri görürdü. Mayın 15-nə keçən gecə Prezident Putin Ukrayna ilə danışıqlara hazırlıqla bağlı müşavirə keçirdi. Qərara alındı ki, RF nümayəndə heyətinə RF Prezidentinin köməkçisi Vladimir Medinski rəhbərlik etsin. Nümayəndə heyətinə, həmçinin XİN başçısının müavini Mixail Qaluzin, RF Silahlı Qüvvələri Baş Qərargahının Baş İdarəsinin rəisi İqor Kostyukov, müdafiə nazirinin müavini Aleksandr Fomin daxildirlər.

Bu xəbər İstanbul sülh danışıqları ilə bağlı ümidləri, demək olar ki, heçə endirdi. Çünki Türkiyəyə yola düşən Rusiya rəsmiləri taleyüklü qərarlar qəbul etmək səlahiyyətində deyildilər. Bu mahiyyət etibarilə real danışıqlar üçün cəhd yox, onun imitasiyası demək idi. Ukrayna böhranının həlli ilə bağlı ümidlər yenidən azaldı.

Xatırladaq ki, Ukraynanın İstanbula gələn nümayəndə heyətinə bu ölkənin müdafiə naziri Rustem Umerov başçılıq edir. O, cəbhədəki vəziyyəti əla bilir və üstəlik, bir neçə xarici dildə sərbəst danışır. Ukrayna nümayəndə heyətinə, həmçinin Prezident Aparatının rəhbəri Andrey Yermak, eləcə də xarici işlər naziri Andrey Sibiha və digər rəsmi şəxslər daxildir.

Sonda təəssüf hissi ilə qeyd etməyə məcburuq ki, İstanbul danışıqlarının uğurla başa çatacağına ümidlər azdır. Ona görə ki, mövqelər bir-birindən kəskin surətdə fərqlənir. Ukrayna və Qərb dövlətlərinin niyyəti qeyd-şərtsiz atəşkəsə nail olmaqdır. Rusiya isə təkcə Donetsk və Luqansk vilayətlərində ələ keçirdiyi əraziləri deyil, üstəlik, Ukraynanın Zaporojye və Xerson vilayətlərini də özünə zorla ilhaq etmək istəyir. Təbii ki, bu tələb rəsmi Kiyev üçün qəbuledilməzdir.

Mayın 16-da Dolmabağça sarayında iki üçtərəfli görüş keçirilib. Əvvəlcə Türkiyə, ABŞ və Ukrayna arasında danışıqlar baş tutub. Sonra Türkiyə, Rusiya və Ukrayna diplomatları görüşərək müzakirələr aparıblar. Ukraynaya isə indi ən azı kövrək sülh lazımdır. Ümid edək ki, diplomatlar ən yaxın gələcəkdə bütün dünyanın arzu etdiyi və çox gözlədiyi sülh sazişinə imza atacaqlar.

**P.S.** Dünən axşam saatlarında bəlli oldu ki, İstanbulda Rusiya ilə Ukrayna nümayəndə heyətləri arasında 2 saat davam edən danışıqlarda atəşkəs barədə razılığa gəlmək mümkün olmayıb. Lakin tərəflərin qarşılıqlı surətdə 1000 hərbi əsiri azad edəcəklərini vəd ediblər.

*Məsaim ABDULLAYEV*
*XQ*

Təhsilə dəstək

# BP-nin BDU-da yeni layihəsi



**BP şirkətinin Bakı Dövlət Universitetinin tədris infrastrukturunun modernləşdirilməsi və genişləndirilməsinə yönəlmiş daha bir sosial layihəsi uğurla tamamlanıb. Ali məktəbdə müasir və interaktiv bir tədris məkanı olan geologiya muzeyinin açılışı olub.**

Məraimdə BDU-nun rektoru Elçin Babayev muzey barədə ətraflı məlumat verərək bildirib ki, bu innovativ tədris və təlim mərkəzi Azərbaycanın zəngin geoloji irsi, təbii ehtiyatları və bu sahədəki elmi nailiyyətlərinə dair məlumatları əhatəli şəkildə təqdim etmək məqsədilə yaradılıb. Muzey geologiya və geofizika fakültələrinin müəllim heyəti və tələbələri üçün geoloji elmlər və əlaqəli sahələri öyrənmək və araşdırmaq üçün müasir vasitələrdən istifadə etmək imkanı yaradır.

Muzey 8 tematik guşədən ibarətdir: Azərbaycanın geologiya tarixi, Azərbaycanın bölgələrinin geoloji xüsusiyyətləri, Azərbaycanın mineral ehtiyatları, Azərbaycanın fosilləri və paleontologiyası, Qeyri-adi geoloji quruluşlar və qorunan təbiət abidələri, Heydər Əliyev və geoloji inkişaf, Azərbaycanın geoloji ehtiyatlarının iqtisadi və sosial əhəmiyyəti, Geoloji tədqiqatlar və innovasiyalar. Hər bir guşə interaktiv ekranlar və xəritələr, elmi eksponatlar, multimedia materialları, sensorlu oyunlar, müasir texnoloji lövhələr, simulyatorlar və virtual reallıq elementləri ilə təchiz olunub və ziyarətçilər üçün həm maarifləndirici, həm də əyləncəli təcrübə təqdim edir.

Muzeydə akademik Musa Əliyevin kitabxanası da iştirakçılara təqdim olunub. Geologiya üzrə akademik Musa Əliyevin şəxsi kitabxanasının Moskvadan Bakıya köçürülməsini təşkil etmiş ADA Universitetinin rektoru Hafiz Paşayev bildirib ki, BDU-da bir çox görkəmli şəxsiyyətlər təhsil alıb və onların özləri də burada minlərlə yüksək ixtisaslı kadr yetişdiriblər. Belə bir görkəmli şəxsiyyətlərdən biri də akademik Musa Əliyevdir. Keçmiş SSRİ ərazisində, o cümlədən Azərbaycanda, Əlcəzairdə neft kəşfiyyatı sahəsində, Xəzər dənizində Neft Daşlarının kəşfində Musa Əliyevin böyük xidmətləri olub.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib ki, gerçəkləşdirilən layihə ölkədə təhsilə və digər mühüm sosial inkişaf sahələrinə davamlı dəstəyimizin gözəl nümunəsidir. Muzey üçün alınmış bütün avadanlıq, texniki və proqram təminatı da daxil olmaqla layihənin ümumi dəyəri 395 min 810 manatdır. Layihə yerli şirkət olan ADZONE-S MMC tərəfindən icra edilib. Yaradılan mərkəz geoloji və geofiziki biliklərin zəngin məlumat bazasını innovativ şəkildə təqdim etməyə imkan verəcək. Muzeyin dizaynı, texniki təchizatı və təqdim olunan əhatəli informasiya hər bir ziyarətçiyə yer üzünün zəngin və rəngarəng sərvətlərini kəşf etmək üçün unikal bir təcrübə yaşadacaq.

Akademiklər Akif Əlizadə, Vasif Ağazadə, professor Nizami Cəfərov, Milli Məclisin deputatı Rəfail Hüseynov BP-nin BDU ilə əməkdaşlığını, gerçəkləşdirilən layihələrin önəmini qeyd ediblər.

BDU-nun rektoru Elçin Babayev akademik Musa Əliyevin ədəbiyyatşünas alim, professor Mircəlal Paşayevə yazdığı əlyazma məktubunu Hafiz Paşayevə, universitetin xatirə hədiyyəsini isə Qəri Counza təqdim edib.

*XQ*


## "Bokt İcraçı Kredit Agentliyi" MMC-nin 2024-cü il dekabrın 31-nə maliyyə hesabatı

| AKTİVLƏR | 2024-cü il dekabrın 31-nə | 2023-cü il dekabrın 31-nə (*yenidən hesablanmış*) |
|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 3,490 | 5,189 |
| Müştərilərə verilmiş kreditlər | 975,074 | 1,049,617 |
| Əsas vəsaitlər (torpaq, tikili və avadanlıqlar) | 24,154 | 28,395 |
| Qeyri-maddi aktivlər | 8,199 | 9,645 |
| Digər aktivlər | 50,084 | 6,477 |
| CƏMİ AKTİVLƏR | 1,061,001 | 1,099,323 |
| ÖHDƏLİKLƏR VƏ KAPİTAL | | |
| ÖHDƏLİKLƏR | | |
| Borc öhdəlikləri | - | 39,302 |
| Vergi üzrə öhdəliklər | 33,382 | 20,102 |
| Digər öhdəliklər | 90,033 | 156,148 |
| Cəmi öhdəliklər | 123,415 | 215,552 |
| KAPİTAL | | |
| Nizamnamə kapitalı | 324,166 | 324,166 |
| Digər ehtiyatlar | 35,295 | 137,095 |
| Bölüşdürülməmiş mənfəət | 578,125 | 422,510 |
| Cəmi kapital | 937,586 | 883,771 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 1,061,001 | 1,099,323 |


# Avropa İttifaqı Moskvaya geoiqtisadi təzyiqi artırır

**Avropa İttifaqı (Aİ) Rusiyaya qarşı iqtisadi təzyiq siyasətini davam etdirir və sanksiya mexanizmini ardıcıl şəkildə genişləndirir. Son məlumata əsasən, Aİ 17-ci sanksiya paketini qəbul etməyə hazırlaşır. Bu paket Rusiyanın iqtisadi və siyasi kursuna təsir göstərmək məqsədi daşıyan daha geniş strategiyanın növbəti mərhələsi kimi qiymətləndirilir. Bildirilir ki, prezident Vladimir Putinin Ukrayna prezidenti Vladimir Zelenski ilə İstanbulda planlaşdırılmış görüşdə iştirak etməməsi, bu prosesin sürətləndirilməsində rol oynadı.**




Aİ 2014-cü ildən – Krımın ilhaqından və xüsusilə də 2022-ci ilin fevralında Rusiyanın Ukraynaya qarşı genişmiqyaslı hərbi əməliyyatlara başlamasından sonra – Rusiyaya qarşı bir sıra sanksiya paketləri tətbiq etmişdir. Bu məhdudiyyətlər maliyyə, enerji, müdafiə və nəqliyyat sektoru ilə yanaşı, həm fiziki, həm də hüquqi şəxsləri əhatə edir.

Mayın 14-də Aİ ölkələrinin səfirləri Rusiyaya qarşı 17-ci sanksiya paketini ilkin olaraq təsdiq etmiş, xarici işlər nazirləri səviyyəsində yekun qərarın isə mayın 20-də verilməsi gözlənilir. Mövcud məlumatlara görə, bu paket əsasən Rusiya neftinə qarşı tətbiq olunan sanksiyalardan yayınmağa kömək edən onlarla şirkət və fiziki şəxsə, həmçinin "kölgə donanması" kimi tanınan təxminən 100 tankerə qarşı yönəldiləcək.

"Politico" nəşri bildirir ki, Rusiya prezidentinin İstanbul görüşlərində iştirak etməməsi səbəbilə Avropa liderləri Rusiyadan idxal olunan mallara əlavə cəza xarakterli tariflərin tətbiqini nəzərdən keçirirlər. Bu məsələnin Albaniyada keçirilən görüşdə müzakirəyə çıxarılacağı gözlənilir. ABŞ senatoru Lindsi Qremin Rusiyadan enerji daşıyıcılarının idxalına 500 faizlik rüsum tətbiqini nəzərdə tutan qanun layihəsi də bu təşəbbüslərə təsir edən amillərdən biri kimi qeyd olunur.

Xatırladaq ki, bundan əvvəl Aİ Rusiyanın Ukraynanın təklif etdiyi 30 günlük atəşkəsə razılaşmadığı təqdirdə əlavə sanksiyaların tətbiq olunacağını bəyan etmişdi. Lakin Moskva atəşkəs elan etmədi və prezident Vladimir Putin İstanbulda keçiriləcək danışıqlara qatılmaq əvəzinə, aşağı səviyyəli nümayəndə heyəti göndərdi.

17-ci paket hələ tam təsdiqlənmədən Aİ artıq növbəti – 18-ci sanksiya paketinin hazırlanmasına başladığını bildirdi. Finlandiyanın xarici işlər naziri Elina Valtonen və Almaniya kansleri Fridrix Merts bu məlumatı təsdiqlədilər. Qeyd etmək yerinə düşər ki, 2022-ci ildə qəbul olunmuş "REPowerEU" proqramına əsasən, Aİ 2027-ci ilə qədər Rusiyadan enerji asılılığını tamamilə aradan qaldırmağı planlaşdırır. Son dörd ildə Rusiyanın Avropa qaz bazarındakı payı 40 faizdən 18,3 faizə qədər azalmışdır. Avropa Komissiyasının bu ilin sonunadək üzv dövlətlərə Rusiya qazından mərhələli imtina planlarını təqdim etməyi tapşırması da vurğulanır.

Bununla yanaşı, Rusiyadan verilən açıqlamalar və Qərb mediasında yayımlanan təhlillər göstərir ki, Moskva Aİ-nin yeni sanksiyalarına qarşı müqavimət nümayiş etdirməyə davam edir. Məsələn, CNN qeyd edir ki, prezident Putin İstanbul görüşündə iştirak etməməklə daxili prioritetləri və beynəlxalq diplomatik balansı özünəməxsus şəkildə qiymətləndirmiş və bu addımı hesablanmış siyasi risk kimi atmışdır.

Nəticə etibarilə, Aİ-nin sanksiya siyasəti Rusiyaya qarşı uzunmüddətli geoiqtisadi təzyiq strategiyası çərçivəsində davam etdirilir. Məhdudlaşdırıcı tədbirlər Rusiya iqtisadiyyatının strateji sahələrinə təsir etməklə yanaşı, Ukraynanın mövqeyini gücləndirmək məqsədi daşıyır. Lakin bu siyasətin uğuru onun icra mexanizmlərinin səmərəliliyindən, üzv dövlətlərin koordinasiyasından və beynəlxalq dəstəyin davamlılığından asılıdır.

*Səbuhi MƏMMƏDOV*
*XQ*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*tabeliyindəki gəmilərə quraşdırılacaq temperli illuminator şüşəsinin quraşdırılması xidmətlərinin (şüşəsinin sökülüb yenisi ilə əvəz olunması və mal-material daxil olmaqla) satın alınması məqsədilə*

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il mayın 23-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu-(012) 404-37-00, daxili: 1171.

Ünvan-Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.



## "Montin Bazar" ASC səhmdarlarının nəzərinə!

1 yanvar 2025-ci il saat 10.30-da "Montin Bazar" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Ümumi yığıncaqda aşağıdakı məsələlər müzakirə ediləcəkdir:

1. 2024-cü ilin illik maliyyə balansının təsdiq edilməsi.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanına müraciət edə bilərlər.

Səhmdarlar gündəliklə bağlı təklif və çıxışlarını icra orqanına təqdim edə bilərlər.

Əlaqə telefonu- 055-792-42-58.

Ünvan- Bakı şəhəri, Nərimanov rayonu, Mayakovski küçəsi 8/9.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 101 (30795) 17 may 2025-ci il, şənbə

İdman

## Gimnastlarımız Avropa Kubokunun finalında



**Azərbaycan gimnastları Zöhrə Cəfərova və Gövhər İbrahimova Bolqarıstanın Burqas şəhərində keçirilən Avropa kubokunda çoxnövçülük yarışında finala yüksəliblər.**

Zöhrə Cəfərova halqa, top, gürzlər və lentlə hərəkətlərdə 100,981 xal toplayıb və təsnifat mərhələsində altıncı yeri tutub. İbrahimova da 100,663 xalla ondan sonrakı pillədə qərarlaşıb.

Qeyd edək ki, finala çıxan 16 gimnast mübarizəni mayın 18-də "Cross Battle" formatında davam etdirəcək.

## Paralimpiyaçımızın qaçış bürüncü



**İkiqat Paralimpiya çempionu Lamiyə Vəliyeva Daşkənddə keçirilən Dünya Atletikasının bürünc səviyyəli "UNG Meeting" yarışında uğurla çıxış edib.**

Bu barədə Azərbaycan Atletika Federasiyasından məlumat verilib. Təmsilçimiz 200 metr məsafəyə qaçışda 24.35 saniyə nəticə göstərib və bürünc medal qazanıb.

## İranda 2 güləş medalı



**İranın Behşehr şəhərində sərbəst güləş üzrə "Necad Haşimi kuboku" turniri keçirilir.**

Yarışda 20 yaşadək güləşçilərdən ibarət Azərbaycan millisinin pəhləvanları da fərqləniblər. Ənənəvi turnirdə 2 təmsilçimiz fəxri kürsüyə qalxıb.

Omar Gülməmmədov (74 kq) gümüş, Sədrəddin Həsənov (57 kq) isə bürünc medal qazanıblar.

***L.AZAD***
***XQ***

✓ ***2025-ci il fevralın 19-da İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Məmmədova Bəhriyyə Oqtay qızının adına verilmiş AR seriyalı, 060443 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

✓ ***2023-cü ildə Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci tərəfindən Məmmədov Tunar Ziyəddin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.***

*Futbol tariximizdən*

# Sağ cinahın sərrast hücumçusu



**Mərhum həmkarım, Əməkdar jurnalist Abas Əzimovun (şəkildə solda) "Neftçi"nin 70 illiyi münasibətilə 2007-ci ildə nəşr etdirdiyi "Neftçi"—70" kitabından götürdüyümüz fotoda onunla yanaşı dayanan 1960-cı illərin birinci yarısında SSRİ çempionatlarında Azərbaycan futbolu flaqmanının şərəfini qorumuş, yaddaşlarda özünə yüksək texnikalı, sürətli sağ cinah hücumçusu kimi yer etmiş Kamil Eynullayevdir.**

Bu gün onlar həyatda yoxdurlar. Amma idman mətbuatımızın, futbolumuzun yaşlı nəsil nümayəndələri hər ikisini yaxşı tanıyırdılar. "Xalq qəzeti" yada saldığımız kitabın müəllifi haqqında əvvəllər söhbət açıb. Futbolçunu isə indi xatırlayacağıq. Elə həmin kitabda verilmiş statistik göstəricilərin köməyi ilə.

Həmişə oyunlarını həyəcanla izlədiyimiz "Neftçi"nin ən fəal hücumçularından biri olmuş K. Eynullayev rəqib müdafiəçiləri daim gərgin vəziyyətdə saxlayan kəskin həmlələri və yüksək sürəti ilə fərqlənirdi.

SSRİ çempionatlarının güclülər dəstəsində komandamızın heyətində 74 görüşdə meydana çıxan Kamil 7 qolun müəllifi olub. Digər mənbələrə də müraciət edib, həmin qollarla maraqlandıqda bu qənaətə gəlirik ki, onlardan 3-ü dəyərinə görə xüsusi qeyd olunmalıdır.

1961-ci il aprelin 20-də 23-cü SSRİ çempionatı çərçivəsində Bakıda keçirilmiş və meydan sahiblərinin 1:0 hesablı qələbəsi ilə başa çatmış "Neftçi"–"Spartak" (Vilnüs) görüşündə azarkeşləri yeganə qolla Kamil Eynullayev sevindirib.

Həmin oyundan 3 həftə sonra, mayın 13-də Xarkovda yerli "Avanqard" komandası ilə matçda da moskvalı hakim P. Apuxtin bakılıların xeyrinə kiçik hesabla qələbə qeydə alıb—1:0. Bu dəfə də "Neftçi"yə 2 xalı Eynullayevin sərrast zərbəsi qazandırıb.

O, Azərbaycan paytaxtı futbolçularının həmin 23-cü çempionatda Tallinin "Komsomol" stadionunda yerli "Kalev" komandası ilə görüşündə də inamlı oyunu ilə yadda qalıb. Həmyerlilərimizin doğma sahillərdən uzaqlarda, Baltikyanı respublikada meydan sahiblərini 2:1 hesabı ilə məğlubiyyətə uğratdıqları oyunda qollardan birinin müəllifi Kamil olub.

K.Eynullayevin iştirakçısı olduğu görüşlərdən birinin isə beynəlxalq yoldaşlıq oyunları tarixində xüsusi yeri var. Tarix xatırladır ki, 65 il əvvəl, 1960-cı il iyulun 11-də Respublika stadionunun tamaşaçılarla dolu tribunaları qarşısında oynanılmış matçda "Neftçi" İstanbulun hələ o vaxtlardan yaxşı nüfuz sahibi kimi tanınan "Qalatasaray" komandasını qəbul edib və 3:1 hesabı ilə qələbə qazanıb. Qonaqların qapısına vurulan hər 3 qol isə oyunun qəhrəmanı Eynullayevin həlledici zərbələrindən sonra qeydə alınıb.

Bax belə, ötən əsrin 60-cı illərinin birinci yarısında "Neftçi"nin yüksək ustalığı ilə xatirələrdə yaxşı iz buraxmış sağ cinah hücumçusu Kamil Eynullayev kimi sevimli oyunçusu olub. Çoxminli futbol ictimaiyyətimiz də öz növbəsində onu unutmur, daim hörmətlə xatırlayır.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# İşi ver iş bacarana!

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin Mil-Muğan Regional Məşğulluq filialı tərəfindən Sabirabad şəhərində əmək yarmarkası təşkil olunub.**

Mil–Muğan Regional Məşğulluq filialından mətbuata verilən məlumata görə, yarmarkaya 14 müəssisə tərəfindən, ümumilikdə, 100-ə yaxın boş iş yeri təqdim edilib. Boş iş yerləri üzrə işəgötürənlər tərəfindən təklif edilən əməkhaqqı 400–1280 AZN arasında olub.



Vətəndaşlar Qarabağ Peşə Hazırlığı Mərkəzi tərəfindən peşə hazırlığı istiqamətində də məlumatlandırılıblar.

Yarmarkada 165 işsiz və işaxtaran şəxs qeydiyyatdan keçib. İşəgötürənlər tərəfindən vakansiyalara müraciət edən şəxslərin CV-ləri qəbul edilərək nəzərdən keçirilib, uyğun namizədlər növbəti mərhələyə dəvət olunublar.

***XQ***

# Gədəbəydə qanvermə aksiyası

**Gədəbəydə könüllü qanvermə aksiyası təşkil edilib. Aksiya rayon icra hakimiyyətinin və "Respublika Qan Bankı" publik hüquqi şəxsin birgə təşkilatçılığı ilə Gədəbəy Rayon Mərkəzi Xəstəxanasında reallaşıb.**

Həkim-hematoloqlar tərəfindən hər bir donorun sağlamlığı öncədən yoxlanılıb, hərtərəfli tibbi müayinədən sonra onlardan qan götürülüb. 60 nəfər rayon sakinindən tədarük olunan qan hemofiliyalı və talassemiyalı xəstələrin müalicəsində istifadə ediləcək.

***XQ***



HAVA

# Aranda yağmursuz, dağlarda yağış və duman...

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 17-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 13-16°, gündüz 19-24° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunundan 763 mm civə sütununa enəcək, nisbi rütubət 70-75 faiz olacaq.

Azərbaycanın əksər rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu



düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-16°, gündüz 22-27°, dağlarda gecə 0-5°, gündüz 10-15° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

*Sağlamlıq*

# Xoşbəxtlik iksiri – serotonin

**Gündəlik həyatın gərginliyi bəzən əhvalımıza mənfi təsir göstərir. Amma beynimizdə "xoşbəxtlik hormonu" serotonini artırmaq əhvalımızı düzəldir. Fitoterapevtlərin fikrincə, bunun üçün bəzi məhsulları qidamıza əlavə etməliyik.**



**Bananın** tərkibindəki triptofan serotonini artırır. B6 vitamini əhval-ruhiyyəni tarazlamağa kömək edir. Qəlyanaltı üçün faydalıdır.

**Tünd şokolad** təkcə serotonin səviyyəsini artırmır. Antioksidant təsiri də var. Az yeyildikdə, əhval-ruhiyyəni yaxşılaşdıran güclü bir desert alternativi olur.

**Yulaf** günə enerjili başlamaq istəyənlər üçün ideal səhər yeməyidir.

**İspanaq** zəngin maqnezium tərkibi ilə sinir sistemini rahatlaşdırır.

**Yumurta** tərkibindəki triptofan və B vitaminləri ilə beyinə müsbət təsir edir. Gündə 1 yumurta həm fiziki, həm də zehni performansı yaxşılaşdıra bilər.

**Badam** sağlam yağlar və maqneziumla zəngindir. 1 ovuc badam gün ərzində sakit qalmağa kömək edə bilər.

**Somon balığı** Omeqa-3 yağ turşuları ilə tanınır, serotonin səviyyəsini tarazlayır. Həftədə ən az 1–2 dəfə yemək depressiv əhval-ruhiyyəni azaldır.

**Toyuq** yüngül, faydalı zülal qaynağı və triptofanla fiziki gücü və zehni dəstəkləyir.

**Soya və soya məhsulları** vegetarianlar və veganlar üçün yaxşı seçimdir.

**Taxıl məhsulları** – qəhvəyi düyü, buğda çörəyi və buğdalı makaron qan şəkərini tarazlayır, toxluq hissi yaradır.

***Z.HÜSEYNLİ***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi institutun əməkdaşı Maral Mirzəyevaya qardaşı

İLHAM ŞİRƏLİ OĞLU MƏMMƏDOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 981
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00